# ÇİN

# AZƏRBAYCANLILARIN GÖZÜ İLƏ

Bakı 2013

## ÇİN AZƏRBAYCANLILARIN GÖZÜ İLƏ

---

Baş redaktor:
**Dr. Fərhad MƏMMƏDOV**

Məsul redaktor:
**Dr. Rəşad S. KƏRİMOV**

Kitab Çin Beynəlxalq Araşdırmalar Fondunun maliyyə dəstəyi ilə hazırlanmış və nəşr edilmişdir.

Книга подготовлена и издана при финансовой поддержке Китайского Фонда Международных Исследований.

# MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru Dr. Fərhad Məmmədov**
Ön söz 5

**Azərbaycana dost qazandıran diplomat**
Yaşar Əliyev. Çin haqqında təəssüratlar: əsrlərdən süzülüb gələn və reallıqdan doğan füsunkarlıq 9

**Çin iqtisadçı gözü ilə**
Ziyad Səmədzadə. "Sarı əjdaha oyanır" 19

**Azərbaycanın Çində ilk səfiri olmaq böyük şərəfdir**
Tamerlan Qarayev. Parlamentdən səfir pilləsinə doğru 35

**Azərbaycan təhsilini dünyada tanıtdıran ziyalı**
Hamlet İsaxanlı. "Böyük çaylar qərbdən şərqə doğru axır" 51

**Azərbaycanın iqtisadi tərəqqisinə səy göstərən gənc iqtisadçı**
Seymur Orucov. Azərbaycan-Çin iqtisadi əlaqələri 65

**Çində doktorluq dissertasiyası müdafiə edən ilk azərbaycanlı**
Rəşad Seyfəddin (Kərimov). Arzuların çin olduğu yer 71

**Qələmi ilə millətinə xidmət edən insan**
Elçin İsmayılov. Çin Azərbaycanın gözü ilə 83

**Dünyanı Azərbaycana tanıtdıran insan**
Azər Qərib. Çin haqqında qısa hekayə 91

**Peşəsini sevən insan**
Azad Nağıyev. Çin səddinin "fəthi" və ya səmimi etiraflar 101

**Kitabların dostu**
Zərifə Salahova. Çin haqqında təəssüratlarım 109



# Ön söz

Azərbaycanın dövlət müstəqilliyi əldə etməsi onun daxili və xarici siyasətində keyfiyyətcə yeni, köklü dəyişikliklərə gətirib çıxardı. Qısa zaman kəsiyində beynəlxalq birliyin üzvü olan Azərbaycan dövləti ölkənin daxili həyatında iqtisadi tərəqqinin davamlı inkişafını təmin etmək üçün səmərəli, çoxplanlı və qarşılıqlı faydaya əsaslanan xarici siyasət kursu həyata keçirdi.

Yenicə müstəqil dövlət quruculuğu prosesinə başlamış gənc Azərbaycan üçün qüdrətli və təcrübəli dövlətlərin əldə etdiyi nailiyyətlərdən nümunə götürməyə, onlarla ikitərəfli əlaqələr qurmağa böyük ehtiyac duyulurdu. Məhz yaxın və uzaq qonşular içərisində Çin ilə hərtərəfli əlaqələrin qurulması Azərbaycan üçün olduqca böyük əhəmiyyət kəsb edirdi.

1991-ci ildən etibarən Azərbaycan ilə Çin arasında müxtəlif sahələrdə əlaqələr qurulmağa başladı. İkitərəfli sazişlər və protokollar imzalandı ki, bunlar da siyasi, iqtisadi-ticarət, mədəni sahələrdə əməkdaşlığın güclənməsinə ciddi təkan verdi. Bu sahədə ulu öndərimiz, Ümummilli lider Heydər Əliyevin, daha sonra isə Respublika prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına ardıcıl rəsmi səfərləri Azərbaycanın Şərq siyasətində mühüm addım olmaqla yanaşı onun Çin ilə əlaqələrində də yeni mərhələnin başlanğıcını qoydu.

Son illər ərzində iki ölkə arasında müxtəlif xarakterli dövlət və hökumət nümayəndə heyətlərinin səfərləri müntəzəm hal almışdır. Həm Çin xalqının, həm də Azərbaycan xalqının bir-birilə yaxın, faydalı əlaqələr qurması təbii olaraq Azərbaycanda Çin mədəniyyətinə, Çin xalqının mədəni nailiyyətlərinə marağın artmasına səbəb oldu. Belə bir şəraitdə Azərbaycanda Çin gerçəkliyi, həyat tərzi barəsində müəyyən təsəvvürlər və bilgilər olsa da, bu xalqın keçdiyi keşməkeşli və zəngin tarixi inkişaf yolu, mədəniyyətin və ümumiyyətlə həyatın müxtəlif sahələrində son illərədək əldə etdiyi böyük uğurlar barəsində məlumatlara ciddi maraq yaranmışdır.

Bu mənada Çinə səfər etmiş və ya orada çalışan hər bir azərbaycanlı diplomatın, tədqiqatçı alimin, magistrın, mədəniyyət və incəsənət xadiminin qələmə aldığı hər hansı bir xatirə, oçerk və ya yol qeydləri Çin xalqının həyatı ilə daha yaxından tanış olmağa imkan yaradır, Azərbaycan vətəndaşları, ziyalıları və gəncləri üçün böyük maraq doğurur.

Son illər tarixi "İpək yolu"nun keçdiyi marşrut boyunca nəqliyyat dəhlizinin bərpa olunması prosesi xeyli sürətləndirilmişdir. Coğrafi cəhətdən Azərbaycanın bu dəhlizin üzərində yerləşməsi onun iqtisadi rolunu artırmaqla yanaşı strateji əhəmiyyətini də xeyli yüksəltmişdir. Ölkəmizin belə bir əlverişli mövqedə yerləşməsi Çinin də diqqətindən yayınmamışdı.

Bu mənada geniş oxucu kütləsinə təqdim olunan "Çin azərbaycanlıların gözü ilə" adlı kitab Çin xalqının qədim və zəngin mədəniyyəti və tarixi ilə maraqlananlar üçün elmi-praktiki əhəmiyyət kəsb edir. Kitaba daxil edilmiş yazılar, xatirələr, yol qeydləri, ayrı-ayrı azərbaycanlı diplomatlar haqqında bioqrafik məlumat xarakterli bilgilər Azərbaycanın xarici siyasətində Çinin oynadığı mühüm rolu bir daha təsdiq edir. Bu bir reallıqdır ki, hər iki ölkə bir-birinə böyük maraq göstərir və bu amil danılmazdır.

Kitabda nəzərdən keçirilən məsələlərin ana xəttini azərbaycanlı ziyalılarının Çin barəsində maraqlı və dəyərli fikir və mülahizələri təşkil edir. Digər tərəfdən qələmə alınmış yazılar və xatirələr Çin haqqında ümumi və özünəməxsus təsəvvürlər yaradır, azərbaycanlı oxucularda da bu qədim və zəngin ölkə barəsində müsbət rəyin formalaşması üçün zəmin yaradır.

Bu kitab diplomatların və ictimai-siyasi xadimlərin birbaşa canlı müşahidələrinə əsaslandığına, mövcud Çin gerçəkliyini daha dolğun və

səlis əks etdirdiyinə görə elmi maraq da doğurur. Yazıların dili sadə və anlaşıqlı olduğuna görə çıxarılan nəticələr də aydın və diqqətəlayiqdir.

***Dr.Fərhad Məmmədov***
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Strateji Araşdırmalar Mərkəzinin direktoru*



# Azərbaycana dost qazandıran diplomat



*Yaşar Əliyev Tofiqi oğlu 1948-ci ildə Bakı şəhərində dünyaya göz açmışdır. Azərbaycan Tibb İnstitutunu bitirmişdir. Uzun illər səhiyyə sahəsində rəhbər vəzifələrdə çalışmışdır. 2002-2011-ci illərdə Azərbaycan Respublikasının Çin Xalq Respublikasında fövqəladə və səlahiyyətli səfiri, 1990-2002-ci illərdə Azərbaycan Respublikası Parlamentinin üzvü, vitse-spikeri olmuşdur. 2011-ci ildə Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.*

## Çin haqqında təəssüratlar: əsrlərdən süzülüb gələn və reallıqdan doğan füsunkarlıq

Uzaq və sirli ölkə - məhz bu sözləri ifadə edərkən, insanın təsəvvüründə konfutsi fəlsəfəsi, İpək yolu, əsrarəngiz mədəniyyəti, əfsanəvi imperatorları, mürəkkəb heroqlifləri və Böyük Çin səddi ilə məşhur Çin dövləti canlanır. Məhz bu dövlətin təməlində hələ də insanlara açıqlanmayan bir çox sirlər, əfsanələr yatmaqdadır. Görünür insanlar bu səbəbdən də Çin haqqında danışarkən, bu diyara uzaq və sirli ölkə deyə xitab edirlər. Bu ölkəyə səfər edən hər bir insan istər-istəməz qərar verir: mən gözəl Çin

diyarına bir daha gedəcəyəm. Bəlkə də hansısa sirri, hansısa əfsanəni açmaqdan, öyrənməkdən ötrü... Çinin valehedici gözəlliyi və cəlbedici xüsusiyyətlərindən biri də elə budur.

Mərkəzi və Şərqi Asiyada böyük bir dövlət olan Çin tarixin bütün mərhələlərində dünyada öz yeri, mövqeyi və təsiri olan ölkə kimi diqqəti cəlb etmişdir. Çinlə qədim sivilizasiyalardan biri hesab edilən, ondan məsafəcə uzaqda yerləşən Azərbaycan arasında mədəni əlaqələrin tarixi qədimlərə təsadüf edir. Aralarında məsafə uzaqlığına baxmayaraq hər iki ölkə arasındakı mədəni münasibətlərin təşəkkülü eramızdan əvvəllərə gedib çıxır. E.ə. II əsrin əvəllərindən başlayaraq Azərbaycan Şərqi Asiya ölkələrinin Qərblə beynəlxalq tranzit ticarəti yolunda yerləşdiyinə görə onun bu ölkələrlə ticarət, iqtisadi sahələrdə olduğu kimi, mədəni sahədə də əlaqələr yaratmasına geniş imkanlar açılmışdır.

## Günümüzün müasir dövrlərinə qədər gəlib çatan Qədim Çin sivilizasiyası

Ancaq məsələ həm də ondadır ki, Avropadan, Amerikadan uzaq olan əfsanəvi Şərq dövləti bu gün qədimliyi ilə yanaşı, həm də müasirliyi, modernliyi ilə çox qəribə sintez təşkil etməkdədir. Amma bu barədə məqaləmin sonrakı hissələrində söhbət açacağam. Çünki Çin kimi dövlətdən bəhs edərkən, insan ehtiyatlanır ki, birdən hər hansı ştrixi, hər hansı nüansı unuda bilərsən. Ona görə də qərara gəldim ki, bildiyim və gördüyüm qədər hər bir şeyi planlı və tam təfərrüatı ilə qeyd edim.

Qərbdə tarixi Çin sivilizasiyası haqqında çox maraqlı və məntiqli fikir formalaşmışdır. Məsələn, bu barədə kitab yazan Avstraliya Dövlət Universitetinin professoru, tarix araşdırmaçısı Çarlz Patrik Fitsdjerald "Çin tarixi" adlı əsərində qeyd etmişdir ki, bu ölkənin tarixi ən qədim sivilizasiyalara söykənməklə yanaşı, həm də dayanıqlı olub. Müəllif öz kitabında bu nüansı belə izah edib ki, qədim Yunanıstan, Krit, Roma kimi tarixi şəhərlər bir zamanlar öz qızıl dövrlərini yaşadılar. Ancaq indi onların sadəcə, yazılı tarixləri qalıb. Çində isə belə deyil. Çinin qədim sivilizasiyası günümüzün müasir dövrlərinə qədər gəlib və təbii ki, bu amilin qorunması arxasında xalqın marağı dayanıb. Bəli, məhz Çin xalqı öz tarixini özləri kimi yaşadır, gələcək nəsillərə ötürürlər.



*ÇXR-in sabiq sədri Cyan Cemin ilə görüş*

## Qədim Çin təbabəti dünyaya inteqrasiya edir

Çinin müxtəlif tarixlərə əsaslanmış qədim təbabəti də müasir dünyanın möcüzələrindəndir. Belə ki, məhz bu sahəyə də fəlsəfi olaraq yanaşan çinlilər müxtəlif zamanlarda bir çox xəstəliklərin dərmanlarını tapıblar. Əlbəttə ki, Çin təbibləri burada təbiətin bəxş etdiyi müalicəvi otlardan daha çox istifadə edirlər ki, bunun da insan orqanizminə qətiyyən ziyanı yoxdur. Görünür, bu baxımdan, Çini uzunömürlülər diyarı kimi dəyərləndirirlər.

Çağdaş Çində Ənənəvi Çin Təbabəti Akademiyası mövcuddur. Bu Akademiyanın nəzdində Çin təbabəti üzrə mütəxəssis hazırlayan 20 institut vardır. Ənənəvi təbabət üsulları ilə müalicə edən həkimlər ölkənin bütün yerlərində fəaliyyət göstərir və dövlət xəstəxanalarında işləyirlər.

Söz yox ki, insanların sağlam ruhda yaşamaları üçün Çinin sağlamlıq mütəxəssisləri fəaliyyətlərini davamlı şəkildə qururlar. Lakin bu ölkədə daha bir maraqlı cəhətlərdən biri də insanların hər gün küçələrə çıxaraq, qədim Çin fəlsəfəsinin tərkib hissəsi olan uşu idman növü ilə məşğul olmalarıdır. Yaşlı və cavan olmaqla, hər bir çinli bu növ idmanla məşğul olaraq, öz sağlamlıqlarının qeydinə qalmaqdadırlar. Əlbəttə ki, qədim Çin təbabətinin yaradıcıları bu gün də xalq tərəfindən hörmətlə, ehti-

ramla anılmaqdadır. Onların hər biri təbabət elmini dünyaya tanıtdıran şəxsiyyətlərdirlər. Çünki ölkənin istənilən bölgəsində fəaliyyət göstərən müalicə ocaqlarında onların adları, tibb sahəsindəki kəşfləri, ixtiraları əbədiləşdirilir. Bu gün Çin təbabətinin dünyaya inteqrasiya etdiyini, müasir insanların isə məhz Çin təbabəti vasitəsilə müalicə olunmalarını desək, yəqin ki, yanılmarıq.



*Yaşar Əliyev xanımı Rəna Əliyeva ilə birlikdə ÇXR-in yaranmasının 60-cı ildönümü tədbirində*

## Daha bir maraqlı bənzərlik

Hazırda Çin Xalq Respublikası (ÇXR) adlandırılan bir dövlət - Şərq yarımkürəsində  yerləşir. Çin dünyada əhalisinə görə birinci, ərazisinə görə isə Rusiya və Kanadadan sonra üçüncü ölkədir. Eyni zamanda, Çin 13 ölkə ilə -Rusiya, Qazaxıstan, Qırğızıstan,Tacikistan, Əfqanıstan, Hindistan, Nepal, Butan, Myanma, Laos, Vyetnam, KXDR, Monqolustan ilə həmsərhəddir.

Bu dövlətdə yaşamaq və işləmək mənə də nəsib olmuşdur. Azərbaycanın Çin Xalq Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri kimi çalışdı-

ğım illər ərzində mən daha bir maraqlı bənzərliyi kəşf etdim. Qədim Şərq mədəniyyəti kontekstində tarixi Azərbaycan-Çin yaxınlığı bu təsadüf olmayan bənzərliyin əsas atributlarındandır. Çünki nəhəng "İpək yolu"nun bir hissəsində Çin, digər hissəsində isə Azərbaycan dövlətləri yerləşmişdir. Bu baxımdan, demək mümkündür ki, Azərbaycanla Çin arasında tarixi köklərə dayanmış əlaqələr mövcuddur.

Tanınmış Çin şairi Ke Çjunpin Azərbaycandan aldığı təəssüratı "Bakı" adlı şeirində tərənnüm edərək belə təsvir etmişdir:

*Seyr elədik biz Qafqazın başı qarlı dağlarını,*
*Coşqun axan çaylarını, bir də yaşıl bağlarını,*
*Gəlib çatdıq səhər çağı sahilinə göy Xəzərin,*
*Biz qovuşduq vüsalına Bakı adlı bir şəhərin...*

## İnkişaf edən və möhkəmlənən iqtisadi-diplomatik əməkdaşlıq

Dövlətin diplomatik fəaliyyətinin başlanğıcı onun bir suveren dövlət kimi tanındığı vaxtdan başlayır. Hər bir dövlət müstəqilliyini elan etdikdən sonra qarşısında duran ilk məqsədi beynəlxalq səviyyədə dövlət kimi tanınması və dünya dövlətləri ilə diplomatik əlaqələrin qurulmasından ibarətdir. Diplomatik əlaqələr dedikdə iki dövlət arasında dinc əsaslarla müəyyən məqsədlərin həyata keçirilməsi üçün qurulan ikitərəfli əlaqələr başa düşülür. Məhz Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında da yaranmış əlaqələrin kontekstində bu kimi əhəmiyyətli faktorlar dayanmışdır. Mən də Milli Məclisin deputatı olarkən, fəaliyyətimi məhz bu kontekst üzərində qurdum. Xüsusilə, Azərbaycan-Çin parlamentlərarası dostluq qrupunda bu fəaliyyət geniş spektoru əhatə edirdi. Eləcə də, Ümumçın Xalq Nümayəndələri Məclisində də müvafiq qrup yaradılmışdır. Maraqlı nüans isə ondan ibarətdir ki, Çin parlamentində heç də bütün dövlətlər üzrə bu cür qruplar yaradılmır. Qeyd edim ki, Azərbaycan-Çin parlamentlərarası dostluq qrupunun əsas məqsədlərindən biri də iqtisadi diplomatiyanın inkişafı istiqamətini əks etdirməsidir. İqtisadi diplomatiya - dövlətlər arasında danışıqlar yolu ilə qurulan ikitərəfli və çoxtərəfli iqtisadi-ticarət əlaqələridir. İqtisadi diplomatiya sahəsində fəaliyyət hər bir müstəqil dövlətin qarşısında duran əsas vəzifələrdən biridir. İqtisadi sahədə diplomatik fəaliyyət dövlət iqtisadiyyatının formalaş-

ması, onun inkişafı, dünya səviyyəsində tanınması və dünya iqtisadiyyatına qoşulması üçün mühüm istiqamət kimi qiymətləndirilir. Dövlətin iqtisadi diplomatik fəaliyyətinin formalaşması üçün bir çox işlərin görülməsi zəruri hesab olunur. İlk növbədə dövlət onun maraqlarına cavab verən, beynəlxalq səviyyədə nüfuza malik olan, dünya iqtisadi məkanında yeri olan dövlətlərlə iqtisadi diplomatik əlaqələrin qurulmasına xüsusi önəm verməlidir. Çünki bu kimi dövlətlərlə əlaqələr dövlət iqtisadiyyatının beynəlxalq səviyyədə inteqrasiyası üçün böyük əhəmiyyətə malikdir. Güclü dövlətlərlə iqtisadi əlaqələr qurulduqda dövlət bir çox profisariyalar əldə edir. Bu baxımdan, vurğulamaq istərdim ki, Çinin Azərbaycanın əsas iştirakçılarından biri olduğu layihələrə qoşulması ümumi tarixi və mədəni köklərdən əlavə, bu ölkələrlə iqtisadi və siyasi təmasın da daha sıx olmasına öz töhfəsini vermişdir. Həmin siyasətin nəticələrindən biri odur ki, Azərbaycan Çin üçün Avropa məkanına və bazarlarına etibarlı körpü ola bilmişdir. Çinin artan beynəlxalq nüfuzu və Avrasiyada onun mövqelərinin möhkəmlənməsi Azərbaycan-Çin münasibətlərinin intensivləşməsinə təkan verməkdədir. 2010-cu ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi təqribən 630 mln. dolları əhatə edirdisə, 2011-ci ildə bu rəqəm 940 mln. həcmində olub. 2012-ci ildə isə bu rəqəm 1 milyard həddini aşmışdır. Bu, bir tərəfdən iqtisadi sahədə yaxşı səviyyəyə çatmağımıza, digər tərəfdən bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanlar olmasına dəlalət edir. Artıq Çinin Sintszyan-Uyğur Muxtar Rayonu ilə Azərbaycan arasında ticari-iqtisadi əməkdaşlıq üzrə işçi qrupu da uğurlu fəaliyyət göstərməkdədir. Bu fakt isə ölkələrimizin iqtisadi əməkdaşlığı daha da inkişaf etdirmək əzmində olmasını bir daha təsdiq edir. Beləliklə, Azərbaycan-Çin iqtisadi-diplomatik fəaliyyətinin formalaşması prosesində dövlətin düzgün qurulan xarici siyasəti və bu siyasət nəticəsində onun əldə etdiyi iqtisadi uğurlar meyar olaraq qəbul olunmalıdır.

## Prezident İlham Əliyevin 2005-ci və 2008-ci illərdə Çinə səfərləri əlaqələrimizin inkişafına böyük bir töhfədir

Artıq Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında diplomatik əlaqələrin yaranmasından 20 il ötür. Vurğulamaq istərdim ki, Çin Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biridir. SSRİ-nin dağılması və Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra vəziyyət dəyişdi. Müstəqil dövlət kimi Azərbaycan Respublikasının

beynəlxalq münasibətləri və diplomatik əlaqələri genişləndi. Ümummilli Lider Heydər Əliyevin gərgin əməyi nəticəsində Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutdu, dövlətin mənafeyini tam əks etdirən xarici siyasət konsepsiyası hazırlandı. Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səyi ilə beynəlxalq münasibətlərdə Azərbaycanın mövqeyi daha da möhkəmlənib, güclü diplomatik xidmət formalaşdırılıb. İlham Əliyev Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin üçüncü müşavirəsində (7 iyul 2008-ci il) demişdir: "Bu müşavirələr artıq ənənəvi xarakter daşıyır və hamımız yaxşı bilirik ki,



*Çində keçirilən beynəlxalq tədbirdə*

müşavirələrin çox gözəl nəticələri olur... Təbii ki, bizim xarici siyasətimiz çox açıqdır, aydındır, çox səmimidir və bizim bütün bəyanatlarımız, atdığımız addımlar bütün ictimaiyyət üçün aydındır. Amma eyni zamanda, müəyyən mərhələlərdə daha dəqiq siyasi kursun müəyyənləşməsi əhəmiyyət kəsb edir". Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki fəal rolu və diplomatik əlaqələri problemin tarixinə də marağı genişləndirdi. Artıq bu sahə xüsusi tədqiqat istiqaməti kimi hərtərəfli inkişaf etməkdədir.

Bir nüansı da qeyd etmək istərdim ki, iki ölkə arasında əlaqələrin in-

kişafında Ulu Öndər Heydər Əliyevin 1994-cü ildə Çinə etdiyi səfəri böyük rol oynamışdır. Həmin səfər zamanı əməkdaşlığın hüquqi bazası yaradılmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci və 2008-ci illərdə Çinə səfərləri də əlaqələrimizin inkişafına böyük töhfə vermişdir. Qeyd edim ki, Çin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini, Azərbaycan isə "Vahid Çin" siyasətini dəstəkləyir. 1991-ci il dekabr ayının 27-də Çin Azərbaycan Respublikasının müstəqilliyini tanımış, 1992-ci il aprelin 2-də isə Azərbaycan ilə Çin arasında diplomatik münasibətlər qurulmuşdur. Belə ki, ÇXR-in Sinxua İnformasiya Agentliyinin müxbiri Van Dzuoka 2005-ci il martın 2-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevdən müsahibə almış, müsahibə zamanı Azərbaycan-Çin münasibətləri, müxtəlif sahələrdə ikitərəfli əməkdaşlıq, habelə regional və digər bir sıra mühüm məsələlərə aydınlıq gətirilmişdir.

Əbəs yerə deyil ki, bu gün Ermənistan-Azərbaycan münaqişəsində ÇXR ölkəmizin haqlı mövqeyini dəstəkləyir.

Prezident İlham Əliyevin bu ölkəyə səfərlərindən biri də Pekin Yay Olimpiya Oyunlarının keçirilməsinə təsadüf edir. Məhz həmin zaman Azərbaycan idmançıları dövlət bayrağımızı yüksəklərə qaldırarkən, ölkə rəhbərimiz də hər bir sadə vətəndaş kimi sevinc hisslərini bölüşürdü. Bu baxımdan, daha bir maraqlı məqama toxunmaq istərdim. İdmançılarımız Pekin Olimpiadasında qalib gələrkən, Çin rəhbəri bilavasitə prezident İlham Əliyevi bu münasibətlə təbrik etmişdi.

İdmançılarımızın ardıcıl uğurları, həm də ondan qaynaqlanırdı ki, onların yarışlarına şəxsən prezident İlham Əliyev və xanımı Mehriban xanım Əliyeva azarkeşlik edirdilər. Əlbəttə ki, bir dövlətin idmançısı öz bayrağını yüksəklərə qaldırmaqdan ötrü bütün gücünü səfərbər edir. Belə bir məqamda dövlət başçısının azarkeşlik dəstəyi onlara stimul, güc verirdi. Hər bir sadə Azərbaycan vətəndaşı kimi prezident və xanımı da tükənməz qələbə ruhunu ölkəsi ilə paylaşırdı.

Belə bir məqamda daha bir faktoru xüsusilə vurğulamaq istərdim. Artıq Azərbaycan bütün sahələrlə yanaşı, idman sahəsində də davamlı nailiyyətlər əldə edir. Avropada ilk olaraq, Avropa Olimpiya Oyunlarının birinci dəfə Azərbaycanda keçirilməsi qərarı qeyd olunan fikirləri kifayət qədər təsdiq edir. Bu, möhtərəm prezidentimiz cənab İlham Əliyevin və onun xanımı Mehriban xanım Əliyevanın ölkə inkişafına göstərdikləri qayğının və diqqətin məntiqi nəticəsidir.

Bir faktı da xüsusi olaraq qeyd etmək zəruridir ki, Azərbaycan Çinlə mədəni əməkdaşlıq sahəsində müstəqil qərar qəbul etmək, yaxud bu mədəni əlaqələrin prioritetlərini müəyənləşdirmək səlahiyyətlərindən məhrum idi. Digər xarici dövlətlərlə olduğu kimi Çinlə də mədəni əlaqələrin istiqamətləri yalnız "mərkəz"dən diqtə olunurdu. Lakin 1991-ci ildə Azərbaycanda müstəqilliyin bərqərarı və respublikada suverenliyin elan edilməsi Çinlə bütün əlaqələrin, eləcə də mədəni əlaqələrin yenidən qurulmasını təmin etdi.

Xüsusi ilə daha bir maraq doğuran məqama toxunmaq istərdim. Belə ki, səfir işlədiyim dövrlərdə Çində Azərbaycan mədəniyyət mərkəzi fəaliyyət göstərib. Mədəniyyət mərkəzində ölkəmizlə bağlı hər bir uğur, hər bir nailiyyət Çin ictimaiyyətinə çatdırılıb. Dahi bəstəkarımız Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası bu ölkədə Çin dilində tamaşaçılara təqdim edilmişdi. Həmçinin, Çində Ulu Öndər Heydər Əliyevin xatirəsinə iki cür marka hazırlanmışdır.

Eyni zamanda 20 yanvar, Xocalı soyqırımı kimi faciələrin ildönümlərində tədbirlər keçirilir, ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər bir daha ictimaiyyətin nəzərinə çatdırılırdı. Təsadüfi deyil ki, mədəniyyət mərkəzinin adı da "Şuşa" qoyulmuşdur. Çünki tarixi və əzəli torpağımız olan Şuşa da Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti nəticəsində işğala məruz qalmış ərazilərimizdəndir.

Çinin Sinxua agentliyinə məxsus "Sinxuanın gündəlik xəbərləri" qəzetində Azərbaycan haqqında bu sözlər yazılmışdı: "Azərbaycan elə bir ölkədir ki, burada mədəniyyətə böyük ehtiram bəsləyirlər. Biz bunu çoxdan eşitmişik... Bakılılar Çinə dərin hörmət hissi bəsləyirlər".

Bütün bunlar Çin xalqının Azərbaycan xalqına, Azərbaycan dövlətinə verdiyi ali dəyər və yüksək qiymətdir.

## Çin – dinamiklik və müasirlik potensialı

Müasir mərhələdə Çin Xalq Respublikası böyük potensiala malik olaraq ən müasir texnologiyalar tətbiq etməklə yüksək sürətlə tərəqqi edir. Bu gün Çin Milli Neft Korporasiyası, ümumilikdə, Çin şirkətləri Azərbaycanın karbohidrogen ehtiyatlarının işlənilməsində fəal iştirak edir və bu sahəyə böyük sərmayə qoyurlar. Çin şirkətlərinin neft layihələrində iştirakı ilə Azərbaycanda neft hasilatı artır. Belə ki, Çin Milli Neft Korporasiyası-

nın vitse-prezidenti Çou Dzipinin başçılıq etdiyi nümayəndə heyətinin 2004-cü il iyul ayında Azərbaycana səfər etməsi bunu təsdiqləyən faktdır.

ÇXR-in sabiq sədri Xu Szintao Prezident İlham Əliyevin ölkəsinə səfərini Azərbaycan-Çin dövlətlərarası münasibətlərinin tarixində çox mühüm hadisə kimi dəyərləndirmişdir. Bu səfər iki ölkə arasında siyasi, iqtisadi və mədəniyyət sahələrində münasibətlərinin yeni səhifəsini açdı. Belə ki, bu rəsmi səfər çərçivəsində atılan ən mühüm addımlardan biri Azərbaycan Mədəniyyət Nazirliyi ilə Çin Mədəniyət Nazirliyi arasında 2005-2009-cu illər dövründə mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında protokolun imzalanması oldu. Səfər zamanı Çinin Kommersiya Nazirliyi, Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi və ölkəmizin Çindəki səfirinin təşkilatçılığı ilə keçirilən forumda respublikamızın 40 və Çinin 400-dək şirkətinin nümayəndələri iştirak etmişlər. Forumda Azərbaycanda Çin texnologiyaları ilə şüşə-liftlər, kompüterlər, neft sənayesi üçün səyyar qazma avadanlığı, kənd təsərrüfatında istifadə üçün qablar və qablaşdırma materialları üzrə müəssisələrin yaradılması, toxuculuq, ayaqqabı sənayəsi, tikinti materiallarının buraxılışı sahəsində əməkdaşlığı genişləndirmək məsələləri müzakirə olunmuşdur. Həmin səfər proqramı çərçivəsində Prezident İlham Əliyev Çinin ən möhtəşəm abidələri olan Böyük Çin səddi və dünyanın ən nadir tikintilərindən sayılan memarlıq abidələri ilə tanış oldu. Şanxay şəhərini ziyarət edən İlham Əliyev məşhur teleqüllə və Şanxay Planlaşdırma Muzeyinə də baş çəkmişdir.

İstər səfir olduğum illərdə, istərsə də bu gün Azərbaycan-Çin münasibətləri müxtəlif sahələrdə durmadan inkişaf edir. Beynəlxalq Təşkilatlar çərçivəsində iki ölkə arasında uğurlu əməkdaşlığın həyata keçirilməsi iqtisadi, siyasi, mədəni əlaqələrin güclənməsi üçün əlverişli zəmin yaradır. Hal-hazırda Azərbaycan-Çin mədəni əməkdaşlığının səmərəli bir dövrü yaşanmaqdadır. İki ölkə arasında dostluğun, yaxınlaşmanın əldə olunması kimi mühüm bir işdə mədəni əməkdaşlığın bütün imkanlarından kifayət qədər istifadə edilməkdədir.

Beləliklə, Azərbaycan Respublikasının apardığı uğurlu ölçülüb-biçilmiş və tarazlaşdırılmış xarici diplomatik siyasət sayəsində Azərbaycan xalqının təhlükəsiz və xoşbəxt gələcəyini təmin edən xarici mühit yaradılıb-qorunaraq, Azərbaycanın həm dünya miqyasında mövqelərinin möhkəmləndirilməsi, həm də Xəzər-Qafqaz bölgəsində ən vacib ölkəyə çevrilməsinə nail olunur.

# Çin iqtisadçı gözü ilə



*Professor Ziyad Əliabbas oğlu Səmədzadə Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü, iqtisad elmləri doktorudur.*

*O, 25 iyun 1940-cı ildə Bakının Buzovna kəndində anadan olmuşdur. 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin iqtisadiyyat fakültəsini fərqlənmə ilə bitirmiş, 1971-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1977-ci ildə professor elmi adına layiq görülmüşdür.*

*1980-cı ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının üzvü, 1989-cu ildə Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.1983-1993-cü illər ərzində Mərkəzi Komitənin İqtisad şöbəsinin rəhbəri, Azərbaycan Respublikası Ali Soveti sədrinin birinci müavini, baş nazirin birinci müavini və planlı iqtisadiyyat Dövlət Komitəsinin sədri, Azərbaycan üzrə TASİS və TRASEKA proqramlarının milli əlaqələndiricisi olmuşdur.*

*O, iqtisadi müstəqillik konsepsiyasının inkişafına və 1987-1991-ci illər ərzində müvafiq qanun layihələrinin hazırlanmasına əhəmiyyətli töhfələr vermişdir.*

*İqtisadi inkişaf, struktur, demoqrafiya, məşğulluq, regional inkişaf, effektivlik və bazar iqtisadiyyatı problemləri mövzusunda 500-dən artıq məqalənin və çoxsaylı monoqrafiyaların müəllifidir. Onlardan mütəxəssislərə tanış olanları sırasına – "Dünya iqtisadiyyatı: Çinin iqtisadi möcüzəsi", 2001-ci il, "Dağlıq Qarabağ: Naməlum həqiqətlər, "Yarım əsr üçün Azərbaycan iqtisadiyyatı, yeni reallıqlar və perspektivlər", 2004-cü il (rus dilində), "Çin qlobal iqtisadiyyatda", 2009-cu il (azərbaycan və rus dillərində) - aid etmək olar.*

*O, Azərbaycan İqtisadçılar Birliyinin sədri, iqtisadiyyat üzrə Beynəlxalq İttifaqın vitse-prezidentidir. 1999-cu ildə Səmədzadə ölkə və dünya iqtisadiyyatı ilə bağlı hadisələri bu gün də müntəzəm işıqlandıran "İqtisadiyyat" qəzetinin əsasını qoymuşdur.*

*Hal-hazırda akademik Ziyad Əliabbas oğlu Səmədzadə Milli Məclisin (Azərbaycan Respublikası Parlamentinin) İqtisadi Siyasət Komitəsinin sədridir və iqtisadi qanunvericiliyin möhkəmləndirilməsi, büdcə sisteminin təkmilləşdirilməsi və bütün iqtisadi inkişaf strategiyasının həyata keçirilməsinə öz fəal töhvəsini verir.*

## "Sarı əjdaha oyanır"

Mən Çinin iqtisadi artım səbəblərini açıqlamağa iddia etmədən, diqqəti faktın özünə yönəltmək, Çinin sürətli və indiyə qədər görünməmiş və demək olar ki, geniş mənada çox uğurlu inkişafı haqqında, Çinə səfərlərim zamanı şahidi olduğum və valeh olduğum məqamlar barədə bölüşmək istəyirəm. İqtisadi amillər – açıq iqtisadiyyat, güclü institutlar, makroiqtisadi sabitlik, ixrac yönümlü sənaye siyasəti – Çinin başgicəlləndirici müvəffəqiyyətinin yalnız bir qismini izah edir. Bəlkə də, mühüm əhəmiyyət kəsb edən qeyri-iqtisadi, mədəni-tarixi amillər vardır.

Dünya təcrübəsi göstərir ki, dövlətlərin və xalqların yaxınlaşması üçün canlı ünsiyyət son dərəcə vacibdir. Həm də yalnız siyasi rəhbərlik səviyyəsində deyil, digər məqamlarda da bu ünsiyyət zəruridir. İnsanlar arasında "Bir dəfə görmək, yüz dəfə eşitməkdən yaxşıdır" ifadəsi təsadüfi olaraq işlədilmir. Mən hər dəfə xarici səfərlərdə olduğum zamanlarda bu

sözlərin həqiqətə uyğun olduğuna əmin oluram.

1993, 2000, 2002 və 2010-cu illərdə Çin Xalq Respublikasına səfərlər 30 ilə yaxın müddətdə ölkənin sürətli inkişaf yolu haqqında bir nəticəyə gəlməyə, öz tədqiqat və nəticələrimi dərinləşdirməyə, iqtisadi inkişaf modellərinə aid bir çox sualları yenidən düşünməyə imkan yaratdı. Çinə ilk səfərim zamanı (1993-cü ildə) mən böyük miqyaslı islahatlara heyran oldum və o vaxtdan islahatda Çin təcrübəsi mənim elmi fəaliyyətimin tərkib hissəsinə çevrildi.

Bu ölkəyə mənim çoxsaylı səfərlərimin nəticəsi olaraq, 3 kitab hazırlanıb çap edildi ("Çinin iqtisadi möcüzəsi", "Çin qloballaşan iqtisadiyyatda"- rus və azərbaycan dillərində), Çin iqtisadiyyatı haqqında ondan artıq məqalə və ÇXR-in 55 illik yubileyinə həsr edilmiş "İstiqlaliyyət"adlı qəzet nəşr edildi. Bu işlərdə Çin Xalq Respublikasının iqtisadi sahədə uğurları araşdırılır, bu böyük və gözəl ölkənin təcrübəsindən real istifadə imkanları müəyyən edilir.

Çinli dostlarım ilə keçirtdiyim görüşlər, müəssisələrin işi ilə tanışlıq, dövlət qurumlarını ziyarət mənə Çin Xalq Respublikasının iqtisadi siyasəti ilə tanış olmağa kömək etdi və üzərində işlədiyim araşdırmalar üçün əhəmiyyətli rol oynadı. Qeyd etməyə borcluyam ki, çinli dostlarım tərəfindən həmişə səmimiyyət, qonaqpərvərlik və xeyirxahlığın şahidi olmuşam.

Böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Bakı şəhərində 2001-ci ilin aprel ayında Azərbaycan İqtisadçılar Birliyi, ÇXR-in Azərbaycandakı səfirliyi və Çinin Milli Diplomatiya İnstitutunun təşkilatçılıqları ilə "Planlı təsərrüfatçılıqdan bazar iqtisadiyyatına keçid və iqtisadi inkişaf modelləri" adlı Beynəlxalq elmi-nəzəri konfrans keçirilmişdir. Bu konfrans kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılmış və mütəxəssislərin böyük marağına səbəb olmuşdur. Eyni zamanda, Azərbaycan – Çin iqtisadçı alimlərinin təşəbbüsü ilə, Din Syaopinin 100 illiyinə həsr edilmiş konfransı qeyd etmək istəyərdim ki, harada ki, ikitərəfli əlaqələrin möhkəmləndirilməsi məsələləri geniş müzakirə olunmuşdur.

Bu gün Çin iqtisadiyyatı ÜDM həcminə görə dünya iqtisadiyyatında ikinci yeri tutur (2006-cı ildən bu vaxta qədər həmin mövqeni Yaponiya tuturdu). Çin XXI əsrin əvvəllərində qlobal sənaye dövləti olaraq, kosmik və nüvə ölkəsi kimi kömür, dəmir, manqan, sink, qurğuşun, sürmə və volfram filizləri, həmçinin ağac istehsalına görə liderlik edir. Çində dünyada sürətli və ən yüksək sürətli dəmir yolu şəbəkəsi vardır ki, bu da Avropa və Yaponiyanın bu sahədə birlikdə olan imkanlarını da geridə qoyur. Çin dünyanın

vacib valyutalarından birinə sahibdir və dünya valyuta ehtiyatlarının yarısına malikdir.

2012-ci ildə Çində əsas vəsaitlərin investisiya həcmi 5,81 trilyon dollara çatmışdır. Ötən il kənd təsərrüfatı sahəsində investisiya 32,2% artaraq 145 milyard dollara yüksəlmişdir. Sənaye sektoruna kapital qoyuluşu 2,55 trilyon dollara çatmışdır. Xidmət sahələrinə kapital axını 2012-ci ildə 3,17 trilyon dollar artıb. Sosial inkişaf məsələləri yüksək sürətlə həyata keçirilir.

Çinin belə fenomenal nailliyətlərinə təkan verən qüvvə nədir? Həyata keçirilmiş islahatların əsasını nə təşkil edir? Çin qloballaşmış dünyada yaxın gələcəkdə hansı mövqeni tuta bilər? Bu məqalədə mən bu və ya digər suallar ətrafında cavablarımı oxucular ilə bölüşmək istəyirəm.

Pekinin, Şanxayın, Şen Cjenin mərkəzi küçələri boyunca hərəkət edərkən təcrübi olaraq "islahat və açıqlıq" siyasətinin şahidi olmaq olur. Keyfiyyətli çoxzolaqlı yollar boyunca çox gözəl otellər, şüşəli göydələnlər, çoxmərtəbəli ofis və inzibati binalar inşa edilib və edilir, körpü və yolütürücülərlə müasir avtomobillər və ikimərtəbəli avtobuslar hərəkət edir. Çin bütövlükdə böyük bir tikintiyə bənzəyir. Orta və iri şəhərlərin ardınca kiçik əyalət şəhərləri salınır və onların hamısını nadir nəqliyyat infrastrukturu birləşdirir (sürətli avtomobil və dəmir yolları, yeni aeroportlar).

Nəhəng və həmişə yüksələn ÜDM Çin iqtisadiyyatının sıçrayış rəmzidir. 2012-ci ildə o, 8,28 trilyon ABŞ dolları təşkil edib və bu, ABŞ-dan sonra dünyada ikinci ən yüksək göstəricidir. Onun orta illik artımı on ilə yaxındır ki, 8-10% təşkil edir. Belə iqtisadi uğurlar insanların çoxunda suallar yaradır və sovet keçmişi ilə paralellər gətirməyə çağırır: Çin ilə Sovet İttifaqı arasında siyasi oxşarlıq olmasına baxmayaraq, necə olur ki, bir halda iqtisadi möcüzə baş verir, digərində isə yox? Dövlətin iqtisadi planlaşdırılması, dövlət əmlakının və böyük dövlət müəssisələrinin inzibati idarəçiliyi necə belə müxtəlif nəticələrə gətirib çıxara bilər?

Çinin başqa dünya nəyinə gərəkdir? Düşünmək olardı ki, bir milyard nəfərdən çox əhalisi olan bir ölkə digərlərinə nisbətən özü-özünü təmin etməyə meyllidir. Amma Çində kiçik iqtisadiyyat 1978-ci ildə Belçikadan da az idi və islahatçılar başa düşürdülər ki, dünyaya çıxış ölkəyə xeyir gətirəcək. Belə addım 3 üstünlüyə malikdir. Birincisi, Çin bütün dünyanın intensiv əmək malları bazarına (oyuncaq, geyim, ayaqqabı) çıxış əldə etdi. İkincisi, ixracdan əldə edilmiş valyuta hesabına iqtisadiyyatın inkişafı üçün xammal və yeni texnologiya əldə etmək olar.



*Ququn imperator sarayı*

Nəhayət, xarici investorların imkanı hesabına çinlilər onlardan müasir istehsal metodlarını və biznesin əsaslarını öyrənə bilər ki, bu da onilliklərlə kommunist prinsipləri ilə yaşayan bir ölkə üçün çox vacibdir. Bu gün Çin elektronika mallarının istehlakı üzrə ən böyük istehsalçıdır. Dünyanın yarıdan çox məişət texnikası orada istehsal edilir.

Xarici investisiyalar Çin islahatlarını dəstəkləyən vacib amil olmuşdur. Xarici investorlar ölkə iqtisadiyyatına bilik, dünya ilə əlaqələr, kapital gətirir, islahatçıların təşəbbüslərini davam etdirərək yerli firmalar üçün rəqabət yaradır və bununla da onlarda səmərəliliyi daha da artırmağa həvəs oyadırdılar.

Qədim tarixə malik olan Çin Asiyanın şərq hissəsində yerləşir. Çinin ərazisi 9,6 milyon kvadrat kilometrdir. Bu ölkə ərazisinə görə Rusiya və Kanadadan sonra dünyada 3-cü yeri tutur. Əhalisinin sayına görə (1,3 milyondan artıq) birinci yeri tutan ÇXR Rusiya, Monqolustan, Əfqənistan, Hindistan, Laos, Nepal, Butan, Birma və Vyetnamla həmsərhəddir. İnzibati baxımdan Çin 21 əyalət və 5 muxtar rayona bölünüb.

Bütün qədim mədəniyyətlər içərisində yalnız Çin mədəniyyəti inkişafa müvəffəq oldu və məhv olmaqla nəticələnən ağır çevrilişdən qurtula bildi. Bildiyimiz kimi “dünyanın dörd böyük kəşfi” Çinə məxsusdur: kağız, kitab çapı, kompas və barıt.

XX əsrin çox hissəsi boyunca Çin Kamerundan da yoxsul ölkə idi. 1949-

cu ildə yaradılan dünyanın nəhəng ölkəsi – Çin Xalq Respublikası vətəndaş müharibəsi ilə müflis olmuşdur. Çin bundan sonra bütün dövrlərdə nəzərə çarpacaq şəkildə uğur əldə etməyə nail olmuşdur.

Mütəxəssislərin hesablamalarına görə, ÇXR-in təbii sərvətləri 16,5 trilyon dollardan artıq qiymətləndirilir. Bu göstəriciyə görə Çin dünyada üçüncü yeri tutur. Əgər əhalinin sayını nəzərə alsaq, onda ən sadə hesablamalara əsasən, adambaşına yalnız 15,1 min dollardan artıq təbii sərvət düşmür. Bu dünya göstəricilərinin 58%-ə qədərini təşkil edir. Düşünürəm ki, bu rəqəmlər şərtidir. İqtisadiyyat inkişaf etdikcə yanacaq ehtiyatlarının qiymətlərinin yüksəlmə və enişindən asılı olmayaraq, gələcəkdə təbii ehtiyatların qiymətləndirilməsi digər meyarlar əsasında həyata keçiriləcək. Ölkə dünyada neft istehsalına görə 2-ci, polad istehsalına görə isə 3-cü yeri tutur. Məhdud resurs bazasına (neft və qaz) baxmayaraq, ÇXR-in iqtisadi inkişafı digər dünya ölkələrinə nisbətən yüksək olacaq.

Çinin iqtisadi inkişafının əsas xüsusiyyətlərindən biri də onunla bağlıdır ki, iqtisadiyyatda edilən islahatlar siyasi sistemdə oxşar dəyişiklikləri nəzərdə tutmur. Əksinə, Kommunist partiyası bir partiya kimi öz təsirini artıraraq, Çinin iqtisadi inkişafına xüsusi diqqət yetirmiş, islahat prosesinə ideoloji dəstəyi təmin etmişdir.

Onlar yaşlı nəslin üzərinə mənəvi zərbə qoymamış, islahat prosesində təmtəraqlı şüarlardan istifadə etməmişlər, əksinə, məharətlə sosialist və bazar iqtisadiyyatının qovuşmasına, başlıca olaraq, reallıqdan doğan forma və metodları tətbiq etmişlər.

Çin islahatının memarı Din Syaopin hesab edirdi ki, Çinin Kommunist Partiyası tarixi inkişafın təkanverici qüvvəsi kimi sinfi mübarizədən imtina etməli və cəmiyyətdə konsensusun yaradılması və himayəsini önə çıxarmalıdır. Bu baxımdan, Çin Kommunist Partiyası öz ideya-nəzəri müstəvisinə bir çox keyfiyyət dəyişiklikləri etmişdir.

Çində islahatlar qərb tövsiyyələrinin əksinə olaraq, kəndlərdən başlamışdır, amma bu doğru bir addım idi. Çin kəndlərində vəziyyət çox ağır olaraq qalırdı. 1970-ci illərin axırlarında onlar o qədər inkişafdan qalmış idilər ki, sənayenin inkişafı üçün xammal bazası da ola bilmədilər. Şəhərlərdə ərzaq məhsulları talonlarla verilirdi. 250 milyon kənd sakinlərinin gəlirləri isə yoxsulluq dərəcəsindən də aşağı olaraq qalırdı. Buna görə də, Çin Kommunist Partiyası bazar iqtisadiyyatı münasibətlərinin tətbiq edilməsinə məhz kənd təsərrüfatı sahəsindən başlamağa qərar verdi.

Tez-tez sual olunur ki, nə üçün Çində bazar iqtisadiyyatı islahatları zamanı Rusiya, MDB və Şərqi Avropa ölkələrində olduğu kimi, istehsalın zəifləməsi olmayıb? Bu mövzuda bir çox məqalə və kitablar yazılmış, lakin tədqiqatçılar arasında indiyə qədər hələ də vahid fikir yoxdur. Çin bazar iqtisadiyyatı münasibətlərini (Sovet Yeni İqtisadi siyasəti nəzərə alınmadan) Şərqi Avropa ölkələrindən və SSRİ-dən 10 il əvvəl işə salan ilk planlı iqtisadiyyatı olan ölkə olmuşdur. Nəticələr heyranedici idi – taxıl istehsalının kollektivdən ailəyə keçməsinə görə, plandan artıq məhsulun bazar qiymətinə satışına icazə 10 il ərzində ikiqat artmış, ÜDM-in investisiya payı 40%-ə, artım sürəti 10%-ə qədər yüksəlmişdir. Keçmiş Sovet İttifaqının təcrübəsi istehsalatın 10 il ərzində, kobud hesablamalara görə, 2 dəfə aşağı düşməsi çox şeyləri yenidən düşünməyə vadar etdi.

Mənim fikrimcə, Çində uğurlu islahat üç zəruri addımın unikal birləşməsi ilə müəyyən edilir – azad bazarlar, keyfiyyətli dövlət və düzgün makro iqtisadiyyat (aşağı inflyasiya), sənaye siyasəti (ixrac yönümlü sahələrə dəstək). MDB-də 90-cı illərdə, Çində kommunizmdən əvvəlki dövrdə olduğu kimi bazarların olmasına baxmayaraq, güclü institutlar, ixraca yönümlülük yox idi; SSRİ-də 1929-cu ildə Yeni İqtisadi Siyasətin dağılması ilə və kommunist Çində bazar islahatlarına qədər güclü institutlar olmuş, amma bazar olmamışdır.

Bütövlükdə, Çinin iqtisadi inkişafında ağıllı, dünyada bənzəri olmayan inkişaf modelinə əsaslanır. Bu gün Çin elmi sahədə surətlə inkişaf edən ölkələr arasında mühüm yer tutur ki, bu da ölkənin iqtisadi təhlükəsizliyinin güclü zəmanətlərindən biridir.

Çin mütəxəssisləri hesab edirlər ki, əgər onların ölkələri digər SSRİ-nin tərkibindən ayrılmış ölkələr, xüsusilə Rusiya kimi olsaydı, ölkə öz inkişaında geriyə gedərdi və onun bugünkü vəziyyəti bəzi post-sovet respublikalarından və bir çox zəif inkişaf etmiş ölkələrdən də pis olardı. Məhz islahat zamanı dövlətin dəstəyi ilə on milyonlarla iş yeri açılmışdır. Çin üçün məşğuliyyət yerlərinin olmasının əhəmiyyəti barədə danışmaq artıq olar.

Çin islahatları bir daha həqiqəti təsdiq etdi: islahatların uğuru xüsusi mülkiyyətdən deyil, rəqabətdən aslıdır.

Din Syaopin tərəfindən irəli sürülmüş mərhələli şəkildə həyata keçirilən islahatlar, dövlət tərəfindən öncədən nəzərdə tutulmuş radikal olmayan mövqelər yaxın zamanlara qədər xaricilər üçün müəmmalı qalmışdır. İlk vaxtlar bir çox xarici ekspertlər Çin islahatlarına sarkazmla yanaşırdılar. La-

kin reallıq bütün şübhələrin düzgün olmadığını sübuta yetirdi.

Özəlləşdirmə ilə bağlı Din Syaopin və hökumət çox ağıllı mövqe tutdular. Rusiya və bir sıra MDB ölkələrinin təcrübələrinin nəticələri göz önündədir – yüzlərlə şirkətin islahatlarının əsl mahiyyətinə, sosial tələblərinə və siyasi mahiyyətinə uyğun olmayan sonrakı özəlləşdirmə islahatlarıdır.

Çin iqtisadiyyatında dövlət sektoru yüksək səmərəlik, gəlirlilik və özünü himayələşdirməklə xarakterizə edilir. Diqqətə layiq haldır ki, Çinin 20-dən artıq dövlət müəssisəsi dünyanın 500 nəhəng transmilli korporasiyaları sırasına daxildir. Çinin dövlət sektoru əsasən neft-kimya, qaz, kömür, elektrik, əlvan metallurgiya, kosmos və digər strateji əhəmiyyətli sahələrlə təmsil olunur.

Lakin, buna baxmayaraq, Çin miqyasında tamamilə dövlətə aid olan müəssisələrin bu qədər az sayda olması təəccüb doğurur. Bundan əlavə dövlət hələ də bəzi şirkətlərin səhmlərinə sahiblik edir. Lakin onların əksəriyyətində dövlətin rolu divident olmaqdır, şirkətlərin fəaliyyətlərinə nəzarət isə digər səhmdarlar və idarələr tərəfindən həyata keçirilir. Çinin dövlət müəssisələrinin fəaliyyətlərinin yüksək səmərəliliyi – islahatların nəticəsidir.

Çində qeyri-dövlət sektoru əsasən kiçik və orta bizneslə təmsil olunub ki, bu da həm ÜDM-in, həm də ixracın 60%-ni təmin edir. Çin şəhərlərinin kiçik küçə və dalanlarına nəzarət xırda ticarətin üstünlüyünü təsdiqləyir. Bir çox kiçik kafe, restoran, bərbərxana, mağaza, anbar, ayaqqabı təmir sexləri, açar istehsalı əgər əvvəl göydələnlərin kölgəsində qalmışdısa, indi artıq önə çıxaraq mərtəbələr və bütün tikilini əhatə edə bilirlər.

Bütövlükdə, dövlətin şəxsi sahibkarlara münasibəti maraq doğurur. 2009-2010-cu illərdə qlobal maliyyə böhranı zamanı məhz kiçik sahibkarlıq dövlət qayğısı aldı: vergilər azaldıldı, bir sıra inzibati haqqlar ləğv edildi, güzəştli kreditlər təqdim edildi.

Kiçik ticarət Çinin demək olar ki, bütün xidmət sahələrini təmin edir. Bütövlükdə, ÇXR-də xidmətlər ÜDM-in 40, sənayenin – 47, kənd təsərrüffatının – 13%-ni təşkil edir. Kiçik ticarətin dinamik inkişafını nəzərə alaraq, Çinin xidmət sahələrinin 2020-ci ildə ÜDM-in 50%-dən artığını təşkil edəcəyi planlaşdırılır. Çin sənayesində bir çox şeylər özəl sahəyə aiddir. Huawei, Lenovo, ZTE kimi özəl Çin şirkətləri dünyada məşhurdular. Ümumiyyətə, Çin bir çox malların istehsal və istehlakı üzrə dünyada lider olmuşdur.



*Müasir Çin yolları*

Çində son 30 ildə başlanan və bu günə qədər davam edən struktur, investisiya siyasəti öz müxtəlifliyi və əhatə dairəsi ilə seçilir. Hazırda Çin ölkə iqtisadiyyatına Rusiya və ABŞ-dan çox kapital yatırır. Proqnozlara görə, 2015-ci ildə bu göstərici ABŞ göstəricilərindən 4 dəfə artıq olacaq. Müasir texnika və texnologiya əsaslanan yeni zavodlar tikilir, sənaye, sosial infrastruktur nizama düşür.

Bu sahədə həyata keçirilən "açıq qapı" siyasəti ideologiyasının mahiyyəti qloballaşan iqtisadiyyatda milli maraqların qorunması ilə dünya bazarına çıxışı və dövlətin mövqeyinin möhkəmləndirilməsini təmin edir.

Çin banklarının son illər keçdiyi inkişaf yolu adətən maraq oyadır. Əgər əvvəl banklar səmərəsiz, inzibati cəhətdən vəsaitləri dövlət proqramına uyğun bölüşdürən və öz portfelində 40% müddəti keçmiş kreditləri olan maliyyə idarələri idilərsə, indi belə kreditlər 5%-dən azdır, bankların çoxu müasir, böyük, beynəlxalq standartlara cavab verən, daha yaxşı qərb təhsili almış peşəkar işçi kollektivi olan müəssisələrdir.

Belə nəticənin əldə edilməsi üçün Çində 1990-cı ilin sonlarında bank isla-

hatı keçirildi. Misal olaraq, 1999-2000-ci illər islahatını göstərmək olar. Çin Xalq Bankı ilə Maliyyə Nazirliyi Çinin hər bir böyük bankında fəallarla iş üzrə dövlət şirkətləri yaratdı ki, müddəti keçmiş “pis kreditlər”i (ümumi miqdarı 400 milyardan çox olan) təhvil verdilər. Bundan başqa, hər bir böyük bankın kapitalı, ölkənin valyuta ehtiyatları hesabına 1,2 milyard dollar artmışdır. Bütün bunlar banklara 2004-cü ildə öz balanslarını təmizləmək və artıq 2006-cı ildə yeni strateji investorlar qismində tanınmış dünya banklarını (Bank of Amerika, Goldman Sachs) cəlb etməyə və 2005-2012-ci illərdə xarici kapitalı cəlb etmək məqsədilə dünya birjasına daxil olmağa imkan yaratdı.

Bu gün Çin bank sistemi davamlı işləyir, iqtisadi təhlükəsizlik, maliyyə sabitliyi üçün aydın strategiyaya malikdir. ÇXR artıq 25 ildir ki, illik xarici investisiya baxımından inkişaf etməkdə olan ölkələr arasında liderlik edir. 2001-ci ildən ölkəyə birbaşa xarici investisiyaların axını 50 milyard, 2007-ci ildən – 70 milyard, 2012-ci ildən 100 milyard dolları keçmişdir. Çinə olan investisiya marağının əsas səbəbini demək çətindir. Bu səbəblər çoxdur və hamısı bir-birini tamamlayır, zaman və vəziyyətə uyğun olaraq ölkədə nadir investisiya mühiti yaradırlar.

Çinin əldə etdiyi uğurun əsas şərti – dövlətin və ticarətin bacarıqlı əməkdaşlığıdır. Gələcəkdə Çinin bir çox qonşuluqda, eləcə də bütün dünya ölkələri ilə əməkdaşlığını uğurlu hesab etmək olar.

Bu prosesə şahidlik edən çox xarici iş adamları var: Çin bazarının dinamik yüksəlişi, əsaslandırılmış analitik təlimin yaradılması və marketinq infrastrukturunun möhkəmləndirilməsi istehsalçılara olan tələbləri artırır.

Çin mütəxəssisləri təsdiq edirlər ki, heç bir ideoloji məzmunu olmayan bazar universal, dünyəvi xarakter daşıyır və ona keçid Çin hökuməti üçün nə sosial inkişaf yolunun, nə də hər hansı bir xarici modelin dəyişməsi demək deyil. Əgər Çin hökuməti digər ölkələrin təcrübəsini qəbul edirsə, bu o demək deyil ki, həmin ölkənin mədəniyyəti daha öndədir və ya həmin ölkə daha demokratikdir, bu yalnız hər hansı bir təklifin səmərəli və məqsədyönlü şəkildə, milli maraqları nəzərə almaqla istifadəsidir.

Ümumiyyətlə, iqtisadiyyata dövlət müdaxiləsi məsələsi yaxın və uzaq gələcəkdə, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə, o cümlədən Çində də aktual olacaq. Dünyada axırıncı qlobal iqtisadi böhranın olması buna sübutdur. Çin bu böhrandan minimal itkilərlə çıxdı, çünki dövlət səmərəli tənzimləmə mexanizmlərindən istifadə edə bildi.

Çinə hər səfərim zamanı sahibkar mühitinin necə sürətlə dəyişdiyinin,

dövlət və ticarət münasibətlərinin yaxşılaşmasının şahidi olurdum. Çinli mütəxəssislər deyirdilər: "Biz qeyri-adi heç nə etmirik, prinsiplərimiz üzrə işləyirik, dövlətimizin və xalqımızın marağına uyğun gələn beynəlxalq standartları nəzərə alırıq.

Çinli mütəxəssislərlə söhbət zamanı biz dünya təcrübəsi, demoqrafik inkişaf, şəhərlərin qarşılaşdıqları çətinliklər, bu problemlərin həlli istiqamətində proqramların həyata keçirilməsi məsələlərini hərtərəfli müzakirə etdik. Qeyd edim ki, urbanizasiya problemləri haqqında bir çox məsələlərdə bizim fikirlərimiz üst-üstə düşürdü. Çinin və onunla qonşu olan ölkələrin təcrübəsi göstərir ki, XXI əsrdə urbanizasiya faktoru dinamik inkişafın güclü amilinə çevrilib. Buna görə də urbanizasiya probleminin həlli istiqamətində, mən belə deyərdim ki, urbanizasiya siyasətində dövlət öz fəal iştirakını vacib hesab edir. İdarəedici strukturun çinli ekspertlərini şəhərlərdə müvafiq şərait yaradılması, iqtisadi potensialın optimal sərhəddinin müəyyənləşdirilməsi, onların ekoloji problemləri, nəqliyyat axının təyin edilməsi məsələləri narahat edir.

Çinlilər yaxşı başa düşürlər ki, iqtisadi təhlükəsizliyi yalnız daxili ehtiyatlar hesabına təyin etmək olar. Onlar yaxşı bilirlər ki, heç bir dövlət bu nəhəng ölkənin ərzaq təminatı funksiyasını öz üzərinə götürməz və əgər götürmüş olsa da onun bütün səyləri uğursuzluqla nəticələnər. Buna görə də 30 il ərzində islahatların ən səmərəli nəticələrindən biri ölkədə məhsul bolluğunun yaradılması və ərzaq təhlükəsizliyinin təmin edilməsi olmuşdur.

Əlbəttə, Çinin inkişafı üçün hələ də həllini gözləyən bir çox problemlər vardır. Çin hökuməti bütün bunları dərk edir və problemləri həll etmək üçün müvafiq proqramlar hazırlayır. Bu gəlirlərin differensasiyası, regionların ekoloji cəhətdən tarazlı inkişafı və s. ilə bağlıdır. Amma dəyişməz həqiqət ondan ibarətdir ki, Çin uğurlu islahatların nəticəsi olaraq, təhlükəsizliyini, stabil inkişafını təmin edə bildi və qloballaşan dünyada nəhəg ölkənin siyasi həyatının iqtisadiyyatında öz mövqeyini nəzərə çarpacaq şəkildə möhkəmləndirdi, beynəlxalq terrora qarşı fəal müqavimət göstərməyə başladı.

2008-ci ilin əvvəllərində Çin bir daha ölkə iqtisadiyyatının inkişaf etdiyini və bir çox qərb ölkələrinə, Rusiyaya nisbətən daha az təhlükədə olduğunu sübut etdi. Əlbəttə ki, qlobal iqtisadi proseslər də ona öz təsirini göstərir. Bununla yanaşı qeyd etmək lazımdır ki, Asiyanın digər ölkələrinin fond bazarlarında bu dövrdə maliyyə böhranının nəticəsi olaraq, maliyyə enişi və

yüksəlişi oldu, ABŞ-ın fövqəladə ehtiyat sisteminin Çin kimi nəhəng ölkə ilə qarşılaşmasını müstəsna hal kimi qəbul etmək təbiidir.

Hal-hazırda dünyada elə ölkələr vardır ki, orada adambaşına düşən xarici borc ümumi daxili məhsulun adambaşına düşən həcmindən artıqdır. Uzun müddət belə bir tendensiyanın olması ölkəni xarici kapitaldan aslı salar, müstəqilliyi itirməyə katalizator ola bilər.

Çin son 30 ildə iqtisadiyyatda təsiredici nailiyyətlər əldə etmiş və borc götürmədən mümkün olmayan hərbi potensialı gücləndirmişdir. Amma Çin hökuməti fikirlərini ölçülü şəkildə həyata keçirir, müasir texnologiyalar əsasında borcları səmərəli şəkildə iqtisadiyyatın inkişafı üçün sərf edir.

Çinə xarici investorları cəlb etmək üçün əhəmiyyətli vergi maqniti Xüsusi İqtisadi Zonalar (XİZ) oldu.

Onların əldə etdikləri nəticələr bütün dünyanı heyran edir. Çin hökuməti Xüsusi İqtisadi Zonaların inkişaf strategiyasını onların normal fəaliyyəti üçün əsas istiqamət kimi qiymətləndirərək, hüquqi baza, maliyyə-vergi, gömrük və digər mexanizmlər formalaşdırdı.

Xüsusi İqtisadi Zonaların hökumətə tabe olmasına baxmayaraq, onlar müstəqil idarə formasına malikdirlər. Onların inkişafı üçün həlledici amil – xarici kapitalı cəlb etməkdir. Prinsipial xüsusiyyət bundan ibarətdir ki, xarici kapital hesabına yaranan müəssisələr ixraca xidmət edir. Xüsusi İqtisadi Zonalar, mərkəz tabeliyində olan şəhərlər kimi öz fəaliyyətində hüquqi haqlarından istifadə edə bilərlər.

Xüsusi İqtisadi Zonaların yaradılmasının məqsədlərindən biri onların əlverişli coğrafi mövqeyindən tam istifadə imkanının olmasıdır. Qeyd olunan məqsədə yüksək həcmdə xarici investisiyaların cəlb edilməsi, digər ölkələr ilə iqtisadi və texniki əməkdaşlığın möhkəmləndirilməsi üçün güzəştli siyasətin həyata keçirilməsi, idxal, qabaqcıl texnologiyaların tətbiqi, ixracın genişləndirilməsi, xarici valyutanın mənfəətinin genişləndirilməsi, qənaətin artırılması aiddir. Eyni zamanda, Xüsusi İqtisadi Zonalar dünya iqtisadiyyatının ,  xüsusilə dünya bazarının nailiyyətlərindən geniş istifadə etməyə imkan yaradır. Ən maraqlı odur ki, burada dövlətin marağına zərər yetirmədən xarici kapitalın səmərəli istifadəsi üçün şərait yaradılıb.

Ölkədə cəmi yüzdən çox XİZ yaradılmışdır ki, xüsusi iqtisadi rayonlar, emal zonaları, sənaye parkları, azad ticarət sahələri, trans-sərhəd əməkdaşlığı və s. əhatə edir. Onlardan ən məşhurları – Şen Cjen, Cuxay, Tyencin, Şanxayın Pudun rayonu, Sucou şəhərində Çin-Sinqapur sənaye

parkıdır. Maraqlıdır ki, son iyirmi il ərzində Çinin şərq və cənub sahili əyalətlərində yerləşən XİZ-i bütün xarici sərmayələrin 70%-ni ölkəyə cəlb etmişlər. Bir çox Çin Xüsusi İqtisadi Zonalarında hələ də vergi tətilləri fəaliyyət göstərir, gəlirə görə vergi dərəcəsi 15%-dir, böyük məbləğdə (məsələn, 10 milyon dollardan çox) və uzun müddətə (10 ildən yuxarı) vergi güzəştləri nəzərdə tutulur, torpağa, suya, elektrik ödənişinə də güzəştlər vardır. Çin XİZ-də öz istehsalatını açan investor faktiki olaraq həmin vaxt əsaslandırılmış yollar, elektrik xətləri, su xətləri və infrastruktur paket əldə edir. Bir çox Xüsusi İqtisadi Zonalar "vahid pəncərə" sistemi əsasında fəaliyyət göstərir, bu da eyni məkanda bütün lazımi icazələri almağa, layihəni ekspertizadan keçirtməyə və müəssisəni qeydiyyata götürməyə imkan yaradır.

Çin XİZ-i bir də onunla maraq doğurur ki, onlarda tez-tez eyni istehsal silsiləsinə aid olan, bir-birini tamamlayan müəssisələr yerləşdirilir. Onların coğrafi cəhətdən yaxınlığı sayəsində nəqliyyat məsrəfləri, tədavül xərcləri azalır, texniki və idarəetmə təcrübəsinin ötürülməsi sürətlənir. Nəticədə, yalnız bir əməliyyat və ya eyni sənaye sahəsində ixtisaslaşmış olan şəhərlər meydana gəldi. Məsələn, Çhendu şəhəri (Sıçuan əyaləti) qadın ayaqqabı modelləri istehsalı üzrə dünya mərkəzi, Vencou (Cijcyan əyaləti) dəri kəmərlər istehsalı üzrə paytaxt şəhəri hesab edilir, Cijcyan əyalətinin özünü "corab sənaye mərkəzi" adlandırırlar, Sicyao şəhəri (Quandun əyaləti) dünyada parça istehsalı üzrə ən böyük mərkəzə çevrilmişdir  və s. Quandun əyalətinin şəhərləri – oyuncaq, məişət texnikası, elektrik cihazları istehsalı üzrə məşhurdur.

Çinə səfərim zamanı mən bir sıra iqtisadi zonaların, o cümlədən Pudun zonasının fəaliyyəti ilə tanış oldum. 1 milyondan çox əhalisi və 6340,5 min kvadrat kilometr ərazisi olan Şanxay Çinin cənubi-şərqində, Sakit okeanın qərb sahilində yerləşir. Şanxay dünya mədəniyyətinin beşiyi, Çinin ən mühüm iqtisadi mərkəzi hesab edilir.

1980-cı ilin birinci yarısına qədər Pudun Çinin ən kasıb bölgələrindən hesab edilirdi. İnfrastrukturu zəif olduğu üçün bura varlı xarici sahibkarlar üçün cəlbedici deyildi. Lakin, ucuz işçi qüvvəsinin mövcudluğu burada xüsusi iqtisadi zonanın yaradılması üçün bir vacib amil oldu. 18 aprel 1990-cı ildə Çin hökuməti Pudunun gələcək inkişafı haqqında qərar qəbul edərək, ona Yantsızı boyunca şəhərlərin inkişaf etdirilməsi üçün "lokomotiv" rolunu həvalə etdi. Bir neçə il ərzində keçirilən irimiqyaslı islahatlar nəticəsində

Pudun ticarətin “qızıl açarı” adını alaraq, iqtisadi nöqteyi-nəzərdən müasir və abad bölgəyə çevrildi.

Burada iqtisadiyyatın əsasını sənaye təşkil edir. Şanxay sənayesinin əsasını təşkil edən - maşınqayırma, elertronika, informatika, məişətdə istifadə edilən elektrik cihazları, kimya və digər bir sıra sahələr yüksək inkişaf səviyyəsinə çatıblar. Burada 100 min kvadrat kilometr sahəyə malik olan və 36,000 ticarət salonu, 1608 ticarət yeri olan Şanxay Birjası yerləşir.

Çin hökuməti burada keçirilən iqtisadi siyasəti həmişə nəzarət altında saxlayır. Təkcə 1990-cı ildən bu günə kimi Pudunla bağlı 100-dən artıq tənzimləyici qərarların qəbul edilməsini qeyd etmək kifayət edir. Şanxay bələdiyyəsi və yeni hökumət rəhbərliyi Pudun sakinlərinin və iş adamlarının maraqlarının müdafiəsini gücləndirib. İndi beynəlxalq təcrübəyə uyğun olaraq, intellektual mülkiyyətin qorunması, hüquqi xidmətin təşkili, təhsilin səviyyəsinin və yerli sakinlərin peşəkarlığının artırılması üçün böyük işlər aparılır.

Səfər etdiyim digər iqtisadi zonalar haqqında da məlumat vermək olar, amma oxucuları informasiya artıqlığı ilə yormaq istəmirəm.

Təbii olaraq, belə bir sual ortaya çıxır: Çinin müstəqil iqtisadi sahələrdə fəaliyyət təcrübəsi digər ölkələr üçün maraqlı ola bilər? Şübhəsiz, Çin xüsusi iqtisadi zonaları üçün yaradılmış təcrübə məntiqliyi, qarşıya qoyulan problemin həllinə sistemli münasibəti, elmi yanaşmaya bağlılığı və təhlili ilə seçilir. Hökmət süründürməçiliyin qarşısını almaq, investorların normal fəaliyyətinə şərait yaradılması üçün bütün gücünü sərf edir. Şanxay vitse-meri, eyni zamanda Pudun xüsusi zonasının rəhbərliyi, onların mütəxəssisləri ilə görüş zamanı, mən tamamilə əmin oldum ki, ölkəmiz üçün də xüsusi iqtisadi zonaların yaradılması məsələsi diqqət mərkəzində olmalıdır.

Ölkəyə birbaşa xarici investisiyaların cəlb edilməsi üçün mühüm stimul ölkənin ÜTT-yə daxil olduqdan sonra xarici şirkətlər üçün açıq olan nəhəng daxili bazarının olmasıdır. Bu gün Çin dünyada avtomobil, mobil telefon, kondisioner, fərdi kompüter və başqa məhsulların nəhəng istehlakçısı və müvafiq olaraq ən böyük istehsalçısıdır.

Alıcılıq qabiliyyətinin artması ilə daxili istehlakı stimullaşdırmaq üçün dövlət siyasəti Çinin nəhəng daxili bazarını yaratmışdır. Çin investisiyalarına olan marağın səbəblərindən biri də aşağı istehsal xərclərinin olmasıdır. Əgər 1990-cı illərdə xarici investorları Çinə işçilərin aşağı əmək haqqı, kiçik enerji xərcləri, ətraf mühitin və əməyin təhlükəsizliyi cəlb edirdisə, 2000-ci

illərdə aşağı əmək haqqı ilə yanaşı, əmək məhsuldarlığının da əhəmiyyəti artmışdır.

Diqqətəlayiq haldır ki, bu gün Çin yalnız xarici investisiyaları öz ölkəsinə cəlb etmir, həm də xarici ölkələrə öz investisiyalarını yatırır. 2012-ci ildə Çin xarici ölkələrə 60 milyard dollardan artıq kapital qoymuşdur .

Xarici investisiyalaşma üçün 2007-ci ildə Çin Xalq Bankı 200 milyard dollar həcmində xüsusi investisiya fondu yaratmışdır. Bu fonddan Blackstone Group Amerikan şirkətini və Morgan Stanley Bankını almaq üçün vəsaitlər yönləndirilmişdir.

Çin birbaşa xarici investisiyaların irəliləyişi üçün xarici ölkələrdə sənaye zonaları (sənaye parkları) yaradır. Hökumətin dəstəyi ilə Çin şirkətləri, bir qayda olaraq, müəyyən xarici əraziyə güzəştli vergi ilə investisiya qoyurlar. Çin artıq Tayland, Pakistan, Misir, Nigeriya və başqa ölkələrdə də belə zonalar yaratmışdır.

Qlobal maliyyə böhranının başlanğıcı ilə çox şey dəyişdi. Çin digər ölkələrə nisbətən az da olsa öz məhsullarına xarici tələbatın dəyişdiyini hiss etdi. Bu böhran Çin üçün iqtisadiyyatın yönümünü ixracdan daxili istehlaka çevirmək üçün əlverişli şərait yaratdı. 2009-2010-cu illərdə Çin hakimiyyət orqanları daxili tələbatı stimullaşdırmaq üçün bir sıra tədbirlər görmüşlər. Bu əsasən Çin iqtisadiyyatının yüksəlişini stimullaşdırmaq planı idi və bunun reallaşdırılması üçün 4 trilyon yuan (586 milyard dollara yaxın) vəsait ayrılmışdır ki, bu da Çinin ÜDM-in 20 %-ni və 2007-ci il üçün dövlət xərclərinin 80 %-ni təşkil edir.

Daxili istehlakı stimullaşdırmaq üçün başqa bir tədbir kasıb təbəqə (təqaüdçülər, işsizlər, tələbələr) arasında supermarketlərdə alış-veriş, restoranlara gediş və turistik səfərlər üçün istehlak kuponlarının yayılması idi.

Çin istehlakçıları arasında malların endirimli qiymətlərlə satışının da həyata keçirilməsi məhşurdur. Endirimin məbləği məhsulun ilkin qiymətinin 20 %-dən 50%-dək ola bilər. Bir endirim aksiyası bitəndən sonra digər ölçüdə endirim aksiyası başlaya bilər. İstehlakı stimullaşdırmaq üçün vaxtaşırı satış vergiləri azaldılır. Bundan əlavə daxili istehlakı stimullaşdırmaq və böhran dövründə kreditin mövcudluğunun artırılması üçün Çin Xalq Bankı depozitlər və kreditlər üzrə faiz dərəcələrinin hesablanması üçün baza faizlərinin azaldılmasını tətbiq edir.

Daxili istehlakı stimullaşdırmaq üçün görülən tədbirlərin nəticəsində Çinin müasir iqtisadiyyatı göz önündə dəyişilir və getdikcə ixrac yönümlü olur.

Çinin müasir iqtisadiyyatına nəzər yetirdikdə onun sabah necə olacağı haqqında fikir yürütmək çətin olur. Son illər Çin hökumətinin iqtisadi siyasətinin demək olar ki, həmişə uğurlu nəticələrə gətirib çıxardığını nəzərə alaraq, Çinin bugünkü plan və prioritetlərinin yaxın gələcəkdə həyata keçəcəyinə ümid bəsləyirsən.

Bu gün görülmüş tədbirlərin nəticələrindən çıxış edərək əminlikdə demək olar ki, sabahki Çin iqtisadiyyatı innovasiyaya əsaslanacaq. Belə iqtisadiyyatın yaradılması sistemləşdirilmiş və hərtərəfli prosesdir. Çində onilliklər ərzində tədricən innovasiya infrastrukturları yaradılır, innovativ fəaliyyət təbliğ və tətbiq edilir.

Çin çox geniş bazarı olan qüdrətli ölkədir. Təbii ki, ölkənin ekoloji təhlükəsizliyini təmin edən, habelə onun dünyaya inteqrasiya kontekstində inkişafına zəmin yaradan xarici-iqtisadi siyasəti təkmilləşdirməyə ehtiyac vardır. Bir sözlə, bu gün Çin beynəlxalq iqtisadi münasibətlərdə, dünyada ticarət siyasətinin formalaşmasında fəal iştirak edir və bu uğurlara dövlətin milli maraqlarına heç bir zərbə vurmadan nail olunmuşdur.

Çin Qərb təcrübəsini rədd etmir, eyni zamanda kor-koranə də qəbul etmir, bu təcrübəni milli maraqlar mövqeyindən qiymətləndirir və buna görə də inamlı və sürətli inkişaf edərək dünya iqtisadi inkişafında və siyasətində yüksəlir.

Çinin qeyri-adi ölkə olması birmənalıdır. Eləcə də, Çin haqqında qısa bir məqalədə danışmaq çətindir. Amma ən böyük təəssüratım burada olduğum müddətdə heç vaxt məni tərk etmir: Çin – sürətli inkişaf edən, çox əməksevər və öz işıqlı gələcəyinə inamı olan bir ölkədir.

# Azərbaycanın Çində ilk səfiri olmaq böyük şərəfdir



*Qarayev Tamerlan Elmar oğlu 1952-ci ildə anadan olmuşdur. 1973-cü ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini, 1980-cı ildə isə Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun aspiranturasını bitirmişdir.*

*1973-1978-ci illər ərzində hüquq mühafizə orqanlarında işləmişdir. 1978-1993-cü illər müddətində Azərbaycan Dövlət Universitetində müəllim, dosent, hüquq fakültəsinin dekan müavini vəzifələrində çalışmışdır.*

*1998-ci ildən 1991-ci ilə kimi Azərbaycan Xalq Cəbhəsinin üzvü, 1990-1991-ci illərdə isə Xalq Cəbhəsi Məclisinin sədri olmuşdur.*

*1990-cı ildə Azərbaycan Ali Sovetinin deputatı, 1991-ci ildə isə Ali Sovetin sədr müavini seçilmişdir. 1992-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin (parlamentinin) sədrinin 1-ci müavini seçilmişdir.*

*1993-cü ildə Çin Xalq Respublikasına səfir təyin edilmişdir.*

*2004-cü ildə Hindistan Respublikasına səfir təyin edilmişdir. Eyni zamanda Banqladeş Xalq Respublikasında, Nepal Federativ Demokratik Respublikasında, Şri-Lanka Demokratik Sosialist Respublikasında və Maldiv Respublikasında səfir olmuşdur.*

*2011-ci ildə İndoneziya Respublikasına səfir təyin edilmişdir. Eyni zamanda Sinqapur Respublikasında, Fillipində və Şərqi Timor Demokratik Respublikasında səfir kimi çalışmışdır.*

*Fövqəladə və Səlahiyyətli səfir rütbəsi və hüquq elmləri doktoru elmi adının sahibidir.*

*Evlidir, iki oğlu var.*

## Parlamentdən səfir pilləsinə doğru

Azərbaycan Respublikasının Çin Xalq Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmaq kimi böyük bir şərəf ilk dəfə mənim üzərimə düşmüşdür. Mən orada ilk dəfə olaraq üzərində üçrəngli bayrağımız yüksəldilən



*ÇXR-in sədri cənab CyanEminə etimadnamənin təqdim edilməsi*

və giriş qapısı önündə milli gerbimiz olan Azərbaycan səfirliyini açdım.

Bu vəzifədə demək olar ki, uzun müddət - 8 ilə yaxın çalışmışam və bu yaxınlarda Çinlə bağlı xatirələrimi bölüşməyimi xahiş edəndə, çox böyük çətinlik çəkdim. Üst-üstə yığılmış xatirələr olduqca çoxdur. Mən qərara gəldim ki, həmin xatirələrdən ən parlaqlarını qısaca şəkildə də olsa anladım.

Mən 1993-cü ilin dekabr ayında Pekinə gəldim, artıq növbəti ilin yanvar ayında ÇXR-in sədri cənab Cyan Ceminə etimadnaməmi təqdim etdim. Təntənəli şəkildə keçən təqdimatdan sonra, cənab sədrlə şəxsən görüşə dəvət edildim. Tərcüməçi vasitəsilə qarşılıqlı rəsmi salamlaşmadan sonra məlum oldu ki, cənab Cyan Cemin özü də rus dilini pis bilmir və bu bizim gələcək ünsiyyətimizi çox asanlaşdırdı. Adətən bu tip görüşlərə 15 dəqiqədən artıq vaxt ayrılmır, amma protokolun tələblərinə əks olaraq, bizim söhbətimiz, demək olar ki, bir saat davam etdi.

Sədr həm Azərbaycanın tarixi, həm də respublikada yaranmış vəziyyətlə maraqlanır, amma SSRİ-nin dağılmasına gətirib çıxaran hadisələr onun maraq dairəsinin əsasını təşkil edirdi. Mən başlanğıcdan söylədiklərimin mənim subyektiv fikrim olduğunu xüsusi qeyd edərək, çalışırdım ki, onun bütün suallarını cavablandırım. Məni ətirli çin çayına və şirniyyatlarına qonaq edən Cyan Cemin toxunduğumuz məsələlərdə fikirlərimizin bütövlükdə üst-üstə düşdüyünü müşahidə etdi və zarafatyana mənim xarici görünüş baxımından ona Stalini xatırlatdığımı qeyd etdi. Sonralar, bizim müxtəlif tədbirlərdə görüşlərimiz zamanı o mənə xüsusi diqqət göstərər və həmişə gülümsəyərək, mənə "yoldaş Stalin" kimi müraciət edərdi. Çində olduğum uzun illər boyunca, onun verdiyi bu ləqəb mənimlə birgə addımladı.

Xüsusi olaraq qeyd etmək istəyirəm ki, cənab Cyan Cemin mənim yaddaşımda özü haqqında unudulmaz təəssüratlar qoymuşdur. Görkəmli ideoloq və siyasətçi kimi o, ən məsuliyyətli zamanda, bu gün şahidi olduğumuz dəyişikliklərin əsası qoyulan vaxtlarda, ölkənin başında olmuşdur.

Həmin gün Hökumət Evində mənim şərəfimə düzənlənən naharın sahibi qismində vəzifəyə demək olar ki, elə o gün təyin edilmiş Xarici işlər nazirinin müavini cənab Dai Binqo çıxış etdi. O, tutduğu yeni mövqedə iştirak etdiyi ilk tədbir olduğunu qeyd edərkən, mən zarafatyana ona uğur gətirdiyimi söylədim. Zarafatın davamı olaraq, o mənimlə razılaşdığını və bundan sonra özünü mənə borclu saydığını vurğuladı. Elə həmin into-



*Sədr Cyan Cemin ilə söhbətim*

nasiya ilə davam edərək, əlimin yüngül olduğunu və mənimlə dostluğun ona karyera yüksəlişində uğur gətirəcəyini söylədim. Biz həqiqətən onunla dostlaşdıq. Demək olar ki, nisbətən qısa vaxt ərzində, o özünə həqiqətən parlaq karyera qurdu. Hal-hazırda cənab Day Binqo ölkə rəhbərlərindən biri kimi, ÇXR-in dövlət şurasının üzvüdür.

Həm onu və həm də sonradan həmin vəzifədə çalışan Xarici İşlər nazirinin müavini Can Dequanı mənim xahişlərimin hətta öz səlahiyyətləri xaricində olsa da belə, həyata keçirilməsi üçün göstərdikləri kömək və dəstəyə görə xüsusi razılıq və minnətdarlıqla xatırlayıram. Yeri gəlmişkən qeyd edim ki, İndoneziya və Hindistanda səfir olduğum vaxtlarda da mənə onlarla görüşmək nəsib oldu və mən bizim dostluğumuz və qarşılıqlı rəğbətimizin elə əvvəlki kimi qaldığına bir daha əmin oldum.

Qeyd etmək lazımdır ki, Xarici İşlər Nazirliyinin rəhbərliyi tərəfindən belə xüsusi diqqət yalnız mənə göstərilməyib. XİN ölkədə xarici diplomatların qalma şərtlərinin asanlaşdırılması və öz funksiyalarının yerinə yetirə bilməsi üçün mümkün olan hər bir şeyi edirdi. Bir sıra ölkələrin səfirlikləri müxtəlif səbəblərə görə, müvəqqəti olaraq öz diplomatik

nümayəndələrinin öhdəliklərini təmin etmək imkanında olmadıqları halda, Çin hökuməti onları tamamilə təmənnasız olaraq, idarəyə yaxın yaşayış yeri və prestijli avtomobillərlə təmin etmişdir. Bu ölkənin diplomatlarının övladları ödənişsiz orta və ali təhsil alırdılar.

Bundan əlavə, ildə bir neçə dəfə səfir təyin edilmiş şəxslər və başqa diplomatik nümayəndələr, bir qayda olaraq, istirahət də daxil olmaqla, tanışlıq məqsədilə Çinin müxtəlif əyalətlərinə çoxgünlük səfərlərə dəvət olunurdular. Belə səfərlər zamanı səfirlər qrupunu həmişə Xarici İşlər nazirinin müavinlərindən biri müşayət edirdi. Səfərlərin bütün xərcləri, uçuş biletləri, otel və yemək xərcləri də daxil olmaqla, nazirlik tərəfindən ödənilirdi. Hətta səfir öz şəxsi istəyi və təşəbbüsü ilə hər hansı bir görməli yerlərə səfər edəndə də yerli hakimiyyət ona yüksək səviyyədə diqqət göstərirdi.

Buna nümunə olaraq, bir misal göstərmək istəyirəm. Çinin ən cənub nöqtəsinə - eyni adlı adada yerləşən Haynan əyalətinin paytaxtı – Haykou şəhərində qubernatorla görüşüm zamanı, ona həmin gün mənim doğum günüm olduğu xəbəri çatdırılmışdı. Məni təbrik edərək, göstəriş verdi ki, bu münasibətlə axşam möhtəşəm ziyafətlə bərabər konsert proqramı da təşkil edilsin. Növbəti gün isə o, hədiyyə olaraq, israr etdi ki, mən həyat yoldaşımla birlikdə bir neçə günlük adanın cənubunda dənizkənarı Sanya şəhərində istirahət edim. Bizi ora bələdçi funksiyasını yerinə yetirən onun köməkçisi və tərcüməçisinin müşayəti ilə, qubernatorun şəxsi avtomobili ilə çatdırdılar. Nazirin köməkçisi bizi yolda əyləndirərək, çin dilində böyük Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettasından ariya oxuması ilə heyrətləndirdi. Belə bir anı necə unutmaq olar?!

Bu arada, qeyd etmək istərdim ki, həmin ariyalar unudulmaz müğənni Rəşid Behbudovun ifasında Çinin yaşlı nəslinin nümayəndələri arasında çox məşhurdur. Hətta Çinin nazirləri, digər yüksək vəzifəli şəxsləri bizim görüşlərimiz zamanı hər dəfə bu ariyaları ifa edir və həm operettanın musiqisinin ahəngi, həm də Rəşid Behbudovun lətafətli səsinə məftun olurdular.

Etimadnamənin təqdimatından qısa bir müddət sonra Azərbaycanın Xarici İşlər naziri Həsən Həsənovun ÇXR-ə səfəri baş tutdu. O, səfər zamanı öz həmkarı – Çinin Xarici İşlər naziri cənab Tyen Tiçen tərəfindən qəbul edildi. Həsən Həsənov xahiş etdi ki, ÇXR hökumət başçısı ilə onun görüşünü təşkil edim. ÇXR-in XİN nümayəndələri müraciətimə cavab olaraq,



*Nazir Li Penlə görüş*

bizim nazirin ÇXR-ə səfər proqramı çərçivəsində belə görüşün nəzərdə tutulmadığını bildirdilər. Ölkədə hələ kifayət qədər əlaqələrim olmadığından, mən Pakistanla ÇXR arasında xüsusi münasibətlərdən çıxış edərək, ölkənin idarə edilməsində böyük nüfuzu olan və artıq dostlaşmağa imkan tapdığım Pakistanın səfirinə müraciət etməli oldum. Səfir mənim xahişimə cavab verdi və növbəti gün H.Həsənovun ÇXR-in Dövlət Şurasının naziri Li Penlə təntənəli görüşü təşkil edildi. Nazirimizi müşayət edərkən, mən müasir Çinin təşəkkülü və inkişafı üçün böyük işlər görmüş, ölkənin digər görkəmli rəhbəri – Li Penlə ilk dəfə görüşüb tanış oldum. Sonralar mənim cənab Li Penlə müxtəlif səbəblərə görə bir çox görüşlərim oldu və bu görüşlər zamanı o, həmişə Dağlıq Qarabağ mövzusu ətrafında hadisələrin inkişafı ilə maraqlanardı. Yeri gəlmişkən, 2000-ci ildə biz cənab Li Penin Azərbaycana səfərini təşkil etdik və ona minnətdar olmalıyıq ki, Azərbaycana və Bakıya xarici səfəri zamanı o, ciddi bəyanatla çıxış edərək, bildirdi ki, bu regionda Azərbaycanla Çinin münasibətləri prioritet olaraq qalır və ÇXR birmənalı şəkildə ölkəmizin ərazi bütövlüyünü dəstəkləyir və Dağlıq Qarabağı Azərbaycan Respublikasının tərkib hissəsi kimi qəbul edir və tezliklə

dövlətimizin ərazi bütövlüyünün bərpasının tərəfdarıdır.

1994-cü ilin mart ayında Çin Xalq Respublikası ilə bizim münasibətlərimiz tarixində ən əhəmiyyətli hadisə - Azərbaycan Respublikasının prezidentinin ÇXR-ə rəsmi səfəri baş tutdu. Qeyd etmək vacibdir ki, bu, Heydər Əliyevin prezident seçiləndən sonra xaricə ilk rəsmi səfəri idi. Əlbətdə ki, Çində Heydər Əliyevi yaxşı tanıyırdılar, onu SSRİ-nin rəhbələrindən biri kimi xatırlayır və ona hörmət göstərmək üçün səy göstərirdilər. ÇXR-in sədri cənab Cyan Cemin görüş zamanı, cənab sədrin özünün şəxsən prezidentimizin görüş proqramına dəyişiklik etməsi də bunun bariz nümunəsidir. Heydər Əliyevin ÇXR-in sədrinin təkidi ilə, onun qüruru olan Şanxayın yeni azad iqtisadi zonasına səfəri təşkil edildi və o bu barədə prezidentimizi ətraflı məlumatlandırdı. Görüşdə iştirak edən ÇXR-in XİN-in nümayəndələri, Şanxayın bütün rəhbərliyinin Çinin kommunist partiyasının Mərkəzi komitəsinin sabahkı iclası üçün artıq Pekinə gəldiklərini əsas tutaraq, cənab Cyan Cemini bu fikrindən daşındırmaq istədilər. Amma Çinin sədri qəti şəkildə onlara dərhal Şanxaya qayıtmaları və Heydər Əliyevi qonaqpərvərliklə qarşılamaları haqqında göstəriş verdi.

O zaman ÇXR-in Xarici İşlər Nazirliyi və Şanxayın rəhbərliyinin necə təlaş içində olduqlarını təsəvvür edirəm, ən azından onlara yuxusuz gecə təmin olunmuşdu, buna baxmayaraq sədrin göstərişi nöqsansız yerinə yetirildi və səhər tezdən bizim Şanxaya qayıtmağımız üçün xüsusi layner təşkil edildi. Doğrudur, bu vaxt maraqlı bir hadisə də baş verdi. Bizim nümayəndə heyətinin bəzi üzvləri şəhərə girmədən Pekin aeroportundan birbaşa Bakıya gələcəklərini bilərək səhər tezdən suvenir almağa getdilər və reysə gecikdilər. Onlar nümayəndə heyətinin Şanxaydan qayıtmasını və vətənə dönmək üçün onlara qoşulmağı gözləmək məcburiyyətində qaldılar. Hansısa “mərhəmətli insan” bu barədə Heydər Əliyevə artıq məlumat çatdırmışdı, amma o, deyəsən, ÇXR-ə səfərindən o qədər məmnun idi və onun əhvalı o qədər yaxşı idi ki, olanlara yumor hissi ilə yanaşdı və günahkarlar töhmətdən qaça bildilər. Bir sözlə, səfər baş tutdu. Əslində, bu səfər siyasət, ticarət-iqtisadi və mədəni sahələrdə dövlətlər arasında ikitərəfli münasibətlərin sürətli inkişafının əsasını qoydu.

Sonralar parlamentlərarası əlaqələr qaydaya salındı. Azərbaycan Respublikası Milli məclisinin sədri Murtuz Ələsgərov böyük parlament nümayəndə heyətinin rəhbərliyi ilə Çinə səfər etdi. Müxtəlif vaxtlarda Xarici İşlər naziri Vilayət Quliyev, Azərbaycan Respublikasının baş pro-

kuroru Eldar Həsənov, hekayələri çin dilinə tərcümə edilən və səfirlik tərəfindən kitabxanalara geniş yayılan baş nazirin birinci müavini Elçin Əfəndiyev, eləcə də idarə və nazirliyin bir sıra rəhbərləri Çinə rəsmi səfər etmişlər. Çinə Elmlər Akademiyasının görkəmli üzvlərindən olan Azad Mirzəcanzadə, Arif Mehdiyev, Bəkir Nəbiyev, Asəf Nadirov, şair Nəbi



*ÇXR-in Xarici İşlər nazirinin müavini Day Binqonun Çinin hava limanında Heydər Əliyevi salamlaması*

Xəzri də səfər etmişdir.

Çində mədəniyyət tədbirlərinin keçirilməsinə xüsusi diqqət yetirilirdi. Azərbaycanın və SSRİ-nin xalq artisti Zeynəb Xanlarovanın da bura qastrol səfəri uğurla keçmişdir. Demək olar ki, onu səhnədən buraxmaq istəmirdilər. Zalda çox sayda xarici ölkə səfirlərinin olduğunu nəzərə alan Zeynəb xanımın müxtəlif dillərdə mahnılar oxumasını konsert zalındakı tamaşaçılar böyük coşquyla qarşıladılar. ÇXR-in Mədəniyyət naziri Zeynəb xanımın eyni zamanda Parlamentin deputatı olduğunu öyrənəndə, səfirliyimiz tərəfindən onun şərəfinə təşkil edilmiş məclisə şəxsən təşrif

buyurmuşdur. Yeri gəlmişkən, orada maraqlı bir hadisə də baş vermişdi. Tədbir iştirakçılarının bütün çıxışlarının sinxron tərcüməsi səfirliyin gənc əməkdaşı, Pekin institutunun məzunu və çin dili üzrə aspirantı Elcan Həbibzadə tərəfindən həyata keçirilirdi. Orada qonaq qismində iştirak edən Rusiya səfiri İ.A.Roqaçev, tərcüməçinin çox ehtimal ki, çinli olduğunu zənn edərək mənə yaxınlaşdı və ÇXR-in Mədəniyyət naziri ilə mübahisəsinin həll edilməsini xahiş etdi, belə ki, tərcüməçi çin dilində, bildiyimiz kimi, heç bir xaricinin nail ola bilmədiyi kimi, tamamilə aksent hiss edilmədən danışırdı. Mən onlara tərcüməçinin azərbaycanlı olduğunu bildirdim. Görkəmli çinşünas və çin dilini gözəl bilən İqor Alekseyeviç bunu çox yüksək qiymətləndirdi və o, bu verilən dəyərlə fəxr edə bilər, cənab nazir isə öz növbəsində, heyranlıqla qeyd etdi ki, ilk dəfədir ki, çinli olmayan bir şəxsdən çin dilinin belə təmiz tələffüzünü eşidir. Əlavə olaraq, qeyd etdi ki, görünür, siz azərbaycanlılar çox zərif eşitmə və həssas musiqi hissiyyatına malik olduğunuzdan, Zeynəb xanım kimi belə parlaq müğənniniz var.

Bu baxımdan, digər bir azərbaycanlı aktyor – Qafar haqqında xatirələrimi də bölüşmək istəyərdim. Onun əsli Bakıdandır və bir vaxtlar Cənubi Azərbaycana mühacirət etmişlər, sonradan valideynləri nəticədə Qərbi Avropada məskunlaşmışlar. Qafar Təbrizdə dünyaya gəlməsinə baxmayaraq, Avropada böyümüş və təhsil almışdır. Bizim ünsiyyətimizdə heç bir problem olmurdu, belə ki, Qafar valideynlərinin sayəsində azərbaycan dilini o qədər də pis bilmirdi. O, ölkəmizin vətəndaşı olmamasına ramən, tez-tez bizim səfirliyə gəlir və buranı özünə doğma yer kimi qəbul edirdi. Biz onunla dostlaşdıq və burada nə ilə məşqul olduğu sualına cavab olaraq danışdı ki, hələ gənc yaşlarından ənənəvi çin opera sənəti ilə ciddi məşğul olurdu, Pekinə gələndən sonra bu sahədə müvafiq təhsil alır və elə bitirdiyi tədris binasının studiyasında aktyor işləməyə başlayır. O, Çin operasında akrobatik səhnələr qurur və ifa edirdi. Məlumatı olanlar bilirlər ki, Çin operası vokal hissə və akrobatik rəqslərin bir qarışığıdır və onların ifası yüksək dəqiqlik və Çin incəsənətinin incəliklərini dərindən bilməyi tələb edir, belə ki, hər bir hərəkət yalnız bu qədim mədəniyyəti bilən çinliyə və ya digər tamaşaçıya bir məna çatdırır. Biz Qafarın iştirak etdiyi tamaşaları izləməyə getdik,  necə uğur sahibi olduğunu görərək, qürur hissi ilə tamaşaçılara onun azərbaycanlı olduğunu bildirdik. Qafar bənzərsiz idi, belə ki, bildiyimiz qədərincə, o, Çin milli operasında yeganə

professional xarici aktyor idi. Bizim təklifimiz ilə, onun haqqında hələ o vaxtlar qəzetlər yazdı və səhnədə çıxışlarından fotoşəkillər dərc edildi.

Öz kökləri ilə qədim keçmişə gedən, təkrarolunmaz xüsusi mədəniyyətə malik Çin xalqı hər zaman digər xalqların mədəniyyətlərini anlamaq və incəsənətlərindən zövq almaq xüsusiyyəti ilə fərqlənmişdir. Çinlilər Tahir Salahovun və Səttar Bəhlulzadənin rəsm əsərləri qarşısında donub qalan zaman ürəyim iftixar hissi ilə dolub-daşırdı. Fərhad Bədəlbəylinin konsert proqramlarında fortopiano ifaçılığına yüksək dəyər verən çinli dinləyicilər o vaxt məşhur olan, sahibinin müvəffəqiyyət göstəricisi və uğuru sayılan, elə buna görə də zaman və məkandan aslı olmayaraq aramsız zəng çalan mobil telefonlarını söndürməsi, Çində uzun illər bir çox musiqi təqdimatlarının iştirakçısı kimi, inandırım sizi ki, şübhəsiz ifaçının bacarığına verilən çox böyük qiymətdir. Alim Qasımovun ifasından zövq almaq üçün muğam sevərlər xüsusi olaraq, Sintszyan-Uyğur muxtar vilayətindən gəlmişdilər. Biz şahidik ki, dinləyicilər Fidan və Xuraman Qasımovaların çıxışlarını necə həyəcan və coşqu ilə qarşılayırdılar. Bu Çində xalqımız haqqında gözəl fikirlər oyatmaq üçün təşkil etdiyimiz mədəni tədbirlərin hələ tam siyahısı deyil.

Eyni zamanda Çin mədəniyyəti və incəsənəti ilə də yaxından tanışlıq sadəcə məni valeh etdi.

Bir nümunə ilə fikrimi izah etmək istəyirəm. Bir dəfə bir qrup səfirlər ilə mən YUNESKO-nun xatirə irsi olan, şəhərətrafı Litszyan mahalının Yunyan cənubi Çin əyalətində yerləşən qədim Daiyan şəhərində oldum. Bu şəhər bizim İçəri şəhər kimi şəhər-muzeydir. Biz orada şəhərin bütün yollarını örtən çay daşları üzərində at dırnaqlarının izlərini gördük və yerli bələdçinin sözlərinə görə, həmin izlər Çinin Yan imperiyasının yaradıcısı Çingiz xanın nəvəsi – Hubilay xanın qoşunları tərəfindən qalmış izlərdir.

Bir gün axşam bizi 80 yaşından yuxarı aktyorları olan yerli teatrda tamaşaya dəvət etdilər. Xalq çalğı alətlərində ifa edən qrup nəğmə ilə müşayət olunurdu. Onların nə oxuduqlarını anlamasam da, amma melodiya mənə çox doğma və tanış gəlirdi. Bir anlıq gözlərimi yumdum və xəyala daldım. Bəli, bu elə demək olar ki, bizim muğamdır!!! Melodiya məni xəyalən vətənimə, Qarabağa apardı.

Konsertdən sonra mən teatrda ləngidim və aktyor truppası ilə uzun müddət söhbət etdim. Onlara muğam haqqında, vətənimdə muğamı, bir qayda olaraq, gözü qapalı necə dinləmək bacarığından danışdım. Ağsaq-



*ÇXR-in Milli Müdafiə naziri general Çi Xaotyan ilə tanışlığım*

qallar uzun əsrlər nəsildən-nəslə ötürülmüş nəğməni, instrumental ifanı elə belə də dinləmək lazım olduğu ilə razılaşdılar, çünki bu sadəcə musiqi yox, özünəməxsus meditasiya forması, Tanrıyla ünsiyyət vasitəsidir.

Ayrılarkən mən ağsaqqallara ən gözəl muğam ifaçılarının yazılarını göndərməyi söz verdim. Onlar da öz növbəsində öz ifa yazılarını mənə göndərdilər.

Bu gözəl ağsaqqallarla görüşümü xatırlayarkən, mən qeyri-ixtiyari olaraq, çinlilərin öz ahıl yaşlı qocaları ilə bənzərsiz rəftarları haqqında düşündüm. Dünyanın bir çox ölkələrinə səyahət etməyimə baxmayaraq, yaşlılara onlar kimi qayğı göstərilməsini heç bir yerdə müşahidə etməmişəm. Axşam vaxtları Çinin müxtəlif şəhərlərinin parklarında gəzərkən, çox həssas mənzərəni müşahidə etmək olar: yüzlərlə cavan işdən sonra sərbəst hərəkət edə bilməyən valideynlərini əlil arabalarında gəzdirirdilər.

Bununla əlaqədar olaraq, Pekindən avtomobillə bir neçə saatlıq yolu olan Çhendı şəhərciyində mənə danışılan əhvalat yadıma düşdü. Bir neçə əsr əvvəl orada Tsin sülaləsinin imperatorlarının yay iqamətgahı yerləşirdi. Erkən yaşlarından buddizmə sitayiş edən imperator Çian Lunun

anası uzun illər Tibetdə Lasa şəhərində yerləşən buddistlərin müqəddəs Potala sarayını ziyarət etməyə ümid bəsləyirdi. Mən Tibetə səyahət zamanı oraya da getdim və bugünkü günə qədər həmin sarayın dünyanın müxtəlif yerlərindən olan buddistlərin ziyarət yeri olduğunun şahidi oldum. İmperator anasının ahıl yaşını nəzərə alaraq, başa düşürdü ki, o, bu uzun və çətin yolu gedə bilmək iqtidarında deyildir. Eyni zamanda o, anasının arzusunu yerinə yetirməkdən imtina edə bilməzdi. O, bu sarayı Çhendıdən Lasa köçürtmək qərarına gəldi. Əlbətdə ki, hərfi mənada deyil. Sadəcə onun əmri ilə Çhendıdə Puto və ya Putotzuçen adını almış, Potala sarayının eynisi ucaldıldı. Anası Çian Luna  belə övlad məhəbbəti göstərdiyi üçün minnətdar oldu və ömrünün qalan hissəsini həmin sarayda, oğlunun xoşbəxtlik və uğurlu idarəçiliyi üçün dua etməklə keçirtdi.

Yaşlı nəslə xüsusi diqqətdən danışarkən, mən Pekindən partiya və hökumətin yaşlı veteranlarının ölkə üçün vacib qəbul edilən bayramlara, qurultay və iclaslara dəvət olunduqlarını xatırlayıram. Sərbəst hərəkət edə bilməyənləri oraya arabalarda gətirir və ön cərgədə yerləşdirirdilər. Onlarla məsləhətləşir və onların fikirləri, şahid olduğum qədərincə, qərarların qəbulunda həlledici rola malik idi.

Məsələ yalnız yaşlılara göstərilən diqqətdə deyil. Ümumiyyətlə, çinlilər həm ailə üzvlərinə, həm də digər yaxınlarına, o cümlədən həmkarlarına qayğıkeş münasibət göstərmələri ilə fərqlənirlər. Ailə onlar üçün hər şeyin əsasıdır.

Ənənəvi çin müalicəsi üzrə mütəxəssis olan bir tanış məşhur həkimin qəbulunda olarkən, diqqət yetirdim ki,  xəstələrin qəbulu zamanı o, bütün tələbələrini otaqdan çıxardır və ona yalnız bir cavan qadın assistentlik edir. Xəstələrin müalicə prosesinin tələbələr üçün əlavə təcrübə olduğunu nəzərə alaraq, onun nə səbəbə belə etdiyi ilə maraqlandım. O, gülümsəyərək izah etdi ki, tələbələrə yalnız hamıya məlum olan bilikləri verir, xəstələrin qəbulu prosesində isə o, ixtira etdiyi və gizli saxladığı müalicə metodlarını tətbiq edir. Bəs sizin assistentiniz? Yəqin ki, o sizin qızınızdır –deyə, ehtimal yürütdüm. Xeyr, deyə cavab verdi. O öz qızını ona görə öyrətmir ki, fikirləşir ki, qızı tezliklə ailə quracaq və onun sirlərini həyat yoldaşına və eləcə də özgə ailəyə ötürə bilər. Oğlum isə tibb işçisi olsa da, tibbin digər ənənəvi sahəsində çalışır – deyə, o davam etdi. Ona görə o, gizli saxladığı müalicə metodlarını yalnız öz gəlininə, indi ona assistentlik edən və nəticədə gələcəkdə bu bilikləri nəvəsinə ötürəcək, oğlunun həyat

yoldaşına öyrədir. Bu biliklər onun şəxsi ixtiraları, öz şəxsi mülkiyyətidir və yalnız ailəsinə gəlir gətirməlidir. Qızı yetkin olmasına, artıq çoxdan işləməsinə baxmayaraq, o, qızına maddi dəstək olmağa davam edir və lazım gələrsə, ailə qurduqdan sonra da böyük məmnuniyyətlə köməklik göstərəcək. Mənə yalnız onun məntiqi ilə razılaşmaq qalırdı.

Bununla əlaqədar olaraq, digər bir hadisəni də xatırladım...1990-cı ildə Fransada Azərbaycan mədəniyyət mərkəzinin dəvəti ilə təxminən 10 gün müddətində Parisdə oldum. Nə mənim, nə də dəvət olunduğum tərəfin otel xərclərini qarşılamağa vəsaitləri olmadığından məni fransız dostlarının – yaşlı cütlüyün evlərində yerləşdirdilər. Səhəri gün ev sahiblərinin işdə



*ÇXR-in sədrinin müavini Xu Tszintaonun Azərbaycan və ÇXR-in Müdafiə Nazirliklərinin rəhbərləri ilə görüşü*

olduğunu, mənzildə gənc qadının təmizlik işləri ilə məşqul olduğunu aşkar etdim. Səhər yeməyi zamanı aydın oldu ki, həmin qadın onların qızıdır, evlidir, iki azyaşlı uşağı olduğuna görə hələ ki işləmir. Həyat yoldaşının qazancı kifayət etmədiyindən o, kömək üçün valideynlərinə müraciət

etmək məcburiyyətində qalıb və valideynləri ona otağın təmizliyi ilə məşqul olmağı təklif ediblər ki, bunun da müqabilində o, əmək haqqı alacaqdı. Mənzillərinin Parisin mərkəzində olmasını və kifayət qədər təmin olunmuş ailə olduqları üçün, nəyə görə valideynlərinin ona təmənnasız yardım etmədiklərini soruşdum. Mənim sualım onu təəcübləndirdi. O, artıq müstəqil olduğunu bildirdi və qeyd etdi ki, valideynləri ona kömək etməyə borclu deyillər, hələ bu işi peşəkar xadiməyə həvalə etmək əvəzinə, ona verdikləri üçün onlara minnətdardır.Valideynləri bu işi ona sevdikləri müqabilində təklif etdiklərini də əlavə olaraq qeyd etdi.

Müxtəlif xalqlar və yaxın insanların bir-birinə fərqli münasibəti. Mənim, əlbətdə ki, çinlilərdən gətirdiyim nümunə ürəyimcədir. Amma yenə də bilmək olmaz, bəlkə də vaxt keçdikcə fransız ailəsinə xas olan münasibətlər yalnız Çin üçün deyil, o cümlədən hər yerdə tipik olacaq. Amma buna inanmaq belə istəmirəm.

Çinə ilk gəldiyim vaxtlarda, çinlilərin öz ailələrini necə qiymətləndirdiklərindən məlumatlı olduğum üçün, heç bir hadisə olmamış kimi yaxınlarının ölüm xəbərini necə gülərüzlə çatdırmaları məni təəccübləndirdi və hətta əsəbləşdirdi. Eyni laqeydlik, amma minnətdarlıqla da onlar digərlərindən başsağlığı qəbul edirdilər. Ürəyimdə bir sual yarandı, görəsən, onlar həqiqətən də yaxınlarının itkisinə görə həyəcan keçirtmirdilər.Yalnız illər keçdikcə, mən anladım ki, bu heç də belə deyil. Yaxınlarının itkisinin acılığı hamı kimi, onlara da pis təsir edir. Sadəcə onlar keçirdikləri həyəcanı kənar adamların yanında büruzə verməyi qəbul etmirlər. Onlar öz sevinclərini böyük məmnuniyyətlə bölmələrinə baxmayaraq, qəmlərini heç kimlə bölüşdürmür, hesab edirdilər ki, bu ancaq onların dərdidir. Bu keyfiyyət bütün millət üçün xarakterikdir. Çin xalqı öz çoxəsrlik tarixi müddətində saysız-hesabsız həqarətlərə məruz qalıb. Amma onlar digər xalqlar qarşısında ağlamaq, ah-zar edib yalvarmaqla bunu büruzə vermirlər. Onlar, əksinə, başqa cür hərəkət edərək, güclü olmağa çalışır, öz ölkələrini möhkəmləndirmək, itkiləri geri almaq və xöşbəxt olmağa çalışırdılar. Aldıqları zövqü keçmiş acıları unutmaq üçün ən yaxşı vasitə hesab edirdilər və fikrimcə, bununla razılaşmamaq çətindir.

Çinlilərin əməksevərliyi haqqında hətta əfsanələr də yayılıb. Mən də onların əməksevərliyini öz xatirələrimlə təsdiq etmək istəyirəm.

Digər səfirliklərin həmkarları ilə birlikdə Çinə səfərlərimin birində Hebey əyalətində kiçik bir kənddə oldum. Təəssüflər olsun ki, uzun illər

keçdiyindən kəndin adı yaddaşımdan silinib. Kənd dağlıq-qayalıq, uzun illər torpaq və su mənbəyi olmayan bir ərazidə yerləşirdi və kəndlilər burada səliqəli şəkildə çox laylı terraslar düzəltmişdilər. Bu terrasların üzərini uzun kilometrlərlə ərazidən, demək olar ki, öz çiyinlərində və ya yük heyvanlarında gətirdikləri torpaqla örtmüşdülər. Torpağı suvarmaq üçün onlar dağlıq ərazidə qaya üzərində yağış suyunun yığıldığı böyük su anbarı tikmişdilər və orada onlar gözəl meyvə bağları, bostanlar salmışlar ki, burada da maraqlı meyvələr, çay və tərəvəzlər yetişdirilir. Siz onların necə mehribanlıqla qonaq qarşıladıqlarını görərdiniz, stollar demək olar ki, yemək bolluğuna tab gətirmirdi. Belə çətin şəraitdə yaşadıqları çətinliklərin olmasına baxmayaraq, biz onların dilindən heç bir narazıçılıq eşitməmişdik. Onların hamısı şad və xürrəm görünürdülər. Və yalnız bu cənnət guşəsini tərk edən zaman, kəndin çıxacağında ucaldılmış iki transparant diqqətimi cəlb etdi. Onların birində Li Penin buranı ziyarət etdiyi, digərində isə “Hörmətli qonaq! Biz tərəflərə yenə də gəl və əgər bu sənin üçün çətin olmayacaqsa, gələndə özünlə kiçik torbada torpaq gətir” müraciətləri yazılmışdı. Təəssüflər olsun ki, mənim yolum bir daha ora düşmədi.

ÇXR-in Xarici İşlər nazirinin səyi və öz şəxsi təşəbbüsü sayəsində demək olar ki, Çinin hər bir tərəfini gəzmişəm. Xatirələr sonsuzdur. Amma bu məqalə çərçivəsində hamısını danışmaq mümkünsüzdür. Ona görə də hələlik söylədiklərimlə kifayətlənirəm.

# Azərbaycan təhsilini dünyaya tanıtdıran ziyalı



*Hamlet İsaxanlı (İsayev) 1948-ci il martın 1-də Gürcüstanda anadan olmuşdur. Orta məktəbi qızıl medalla, ali məktəbi – Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Lomonosov adına Moskva Dövlət Universitetində Ph.D dissertasiyası üzərində işləmiş, 1973-cü ildə onu müdafiə etmişdir. 1983-cü ildə SSRİ Elmlər Akademiyasının Steklov Riyaziyyat İnstitutunda riyaziyyat üzrə elmlər doktoru dissertasiyasını müdafiə etmişdir. Riyaziyyat, elm və mədəniyyət tarixi, təhsil siyasəti və tarixi, tarix fəlsəfəsi, ədəbiyyat, dilçilik üzrə çoxsaylı məqalə, dərslik və monoqrafiyalar yazmışdır. Şair, yazıçı-publisist və tərcüməçidir. Şeirləri bir çox dünya dillərinə, o cümlədən çin dilinə tərcümə edilmişdir. Xəzər Universitetini və Dünya məktəbini təsis etmiş, onları yüksək səviyyəli elm və təhsil ocaqlarına çevirmişdir. "Azərbaycan Akademiyası" adlı yeni elm və sənət ocağını təsis edən beş nəfərdən biridir. İctimai xadimdir.*

## Böyük çaylar qərbdən şərqə doğru axır

Çin deyəndə yada nə düşür? Bu, əlbəttə ki, adamın kimliyi, onun savadı, dünyagörüşü, yaşadığı məkan və zamandan, nəhayət onun Çinə marağının olub-olmamasından asılıdır. Bir azərbaycanlı uşaq kimi orta məktəbdə oxuyarkən (Sovet dövründə) mən Çin haqqında nə bilirdim? Çin dünyada ən çox əhalisi olan dövlətdir, sosialist dövlətidir. Çində qədim zamanlarda inşa olunmuş çox uzun Çin səddi var. Çin öz ərazisinə görə dünyanın ikinci dövlətidir...Lakin tarix və ədəbiyyat kimi dərslərdə Çin haqqında məlumat yox dərəcəsində idi, onlar tam avromərkəzçi xarakter daşıyırdı. Qalan hər şey təsadüflərə və adamın xüsusi istəyinə bağlı qalırdı...



*Xanım Xu Fenhua ilə birlikdə Anxouy Universitetində*

Çinlə tanışlığımın sonrakı dövrü daha məhsuldar oldu. Tarix, fəlsəfə, ədəbiyyat kimi sahələrə marağım məni xəyalən Çinə də apardı. Çin müdrikləri, xüsusilə Konfutsi ilə, Çin mədəniyyəti ilə, uzaqdan da olsa, tanış oldum.

Azərbaycan xalqının əsas hissəsi türkdür və onlar təbii olaraq Azərbaycan türkcəsində danışır. Bu baxımdan Çin tarixi öz-özlüyündə və qədim Türk xalqlarının tarixi fonunda mənə maraqlı idi. Məlum oldu ki, Çinsiz qədim Türk tarixi yoxdur, necə ki, qonşularsız, onlarla sıx, qarşılıqlı münasibətlərsiz Çin tarixi yoxdur.

Çin dünyanın ilk mədəniyyət ocaqlarından biri olmaqla yanaşı onlar arasında ən davamlı olanıdır, yəni yarandığı yerlərdəki mədəniyyət arasıkəsilmədən bu günə qədər davam edib; Çin Avropa və islam mədəniyyətlərinə qəribə və sirli görünən yazı sisteminə malikdir, yazı səsin deyil, fikrin simvolları-xarakterlər üzərində qurulub.

Çin çox uzun zaman ərzində dünyanın ən böyük iqtisadiyyatına malik olmuş, İslam dünyasının qızıl çağı ilə yarışmış, sonra Avropanın böyük coğrafi kəşfləri və sonrakı sənayeləşməsi ilə birinciliyi uzun müddət əldən vermişdir. Nəhayət 1980-ci illərdən başlayaraq iqtisadiyyatı güclənən, həcmə görə ondan daha böyük iqtisadi gücləri bir-bir və sürətlə arxada qoyan, hazırda ikinci böyük iqtisadiyyat olmaqla birinci olma tarixi də təqribi hesablanmış olan bir Çin var. Bu iqtisadi və onun arxasınca gələn geopolitik yarışı sanki bir olimpiya və ya dünya çempionatı yarışı kimi maraqla izləyirik.

İnsan okeanına bənzəyən, bütün çətinliklərə baxmayaraq dağılmayan, parçalanmayan, monolit bir dövlət, uzunömürlü ənənələri və çağdaş dəyişmələri özündə ehtiva edən xalq, ölkə maraq doğurmaya bilməz. Çin məşhur "pişiyin qara və ya ağ olması deyil, siçanı tutması əsasdır" fikrini həyata keçirən, "bir ölkə, iki sistem" kimi dualizmi qiymətləndirməyi bacaran, iqtisadi sərbəstlik verməklə ölkənin birliyini və gücünü qoruyan yeni dövlətçilik prinsipini nümayiş etdirdi. SSRİ və Qorbaçov bunu bacarmadılar; iqtisadi sərbəstlik vermək istəməyən, ancaq "yeni düşüncə" ilə hərəkət edən, daxili ziddiyyətləri qızışdıran siyasət öz "bəhrəsini" verdi, ölkə dağıldı. Əlbəttə ki, Çinin problemləri də az deyil, iqtisadi, siyasi, elmi-texniki, mədəni inkişaf yolundakı çətinliklər, zəifliklər aradan qaldırılmalıdır. Çağdaş inkişaf meylləri nikbin olmağa əsas verir.

***

Azərbaycanla Çini tarixən bir-birinə yaxınlaşdıran, bir-birinə bağlayan tellər olub. Öncə, söhbətimizin dəqiqliyi naminə Azərbaycan dövlətçiliyi

haqqında çox qısa məlumat verməliyik. Azərbaycan xalqının böyük hissəsinin İranda yaşadığını qeyd edək. Müstəqil Azərbaycan Respublikası ilə yanaşı onun cənub qonşusu olan İranın şimal-qərb vilayətləri də Azərbaycan adlanır və oranın da əsas əhalisi Azərbaycan türkləridir.

Çinin şimalında və şimal-qərbində həyat sürən qədim türklərin qurduğu Türk xaqanlıqlarının davamı olan Xəzər türkləri islamı yayan ərəblərlə qarşı-qarşıya gəldilər, onların əsas savaş meydanı, demək olar ki, Azərbaycan idi. Hunlar və onların davamı, eləcə də Xəzərlər Azərbaycan əhalisinin türkdilli olmasında iştirak etdilər. Daha sonra - 11-ci əsrdə Orta Asiyadan Xəzər dənizinin cənubundan keçərək, qərbə və cənuba yayılan böyük türk axını - Səlcuqlar Qafqazı, Azərbaycanı da unutmadı. Beləliklə, Çinin şimalından qərbə doğru axın edən xalqlar Azərbaycanda da məskən saldılar. Orta əsrlərdə Azərbaycan İslam sivilizasiyasının tərkib hissəsi idi. İslam aləmində Çinin böyük şöhrəti vardı. “Bilik (elm) dalınca Çinə getmək gərəkirsə, çəkinmə, get” çağırışı ənənəyə görə Məhəmməd peyğəmbərə aid edilir.

Səlcuq axınları nəticəsində yeni dövlətlər yaranmış, onların bir qismini də əcdadlarımız qurmuşlar. Azərbaycan və İran tarixləri bir-birinə qarışmış, Persiya və ya İran adlı dövlətinin əsas əhalisi farslar və Azərbaycan türkləri olmuşlar. Azərbaycan xalqı İran, Osmanlı və Rusiya kimi iri dövlətlərin çəkişmə, savaş məkanında yaşamış, savaşlar nəticəsində ən çox İranda, ikinci olaraq Rusiyada, üçüncü olaraq Türkiyədə yer almışlar (azərbaycanlılar qonşu və qonşu olmayan digər dövlətlərdə də məskən salmış, indi isə dünyanın hər tərəfində yaşamaqdadırlar).

Azərbaycanlıların 1918-ci ildə qurduqları və iki ilə yaxın bir müddətdə (28 may 1918-28 aprel 1920) mövcud olan Azərbaycan Demokratik Respublikası adlı dövlət bolşeviklər tərəfindən işğal olunmuş, nəticədə, Azərbaycan Sovet Sosialist Respublikası kimi Sovet İttifaqına daxil edilmişdir. Bu, məhdud olsa da, Azərbaycan dövlətçiliyini qorumuş, və nəhayət, Sovetlərin dağılması ilə müstəqil Azərbaycan Respublikası qurulmuşdur.

Sanki bir kəmər şəklində Asiyanın belinə dolanan, İran və Azərbaycanı (cənublu-şimallı), Qərbi Asiya və Avropanı Çinlə birləşdirən İpək yolundan Azərbaycan da çox faydalanıb, İpək yolunun fəal iştirakçısı olub. Azərbaycan şəhəri Təbriz (İndiki İran Azərbaycanının paytaxtı) İpək yolu üzərində yerləşən ən böyük iqtisadi və mədəni mərkəzlərdən biri

idi. Arxeoloji qazıntılar və tarixi-coğrafi əsərlər qədim zamandan İpək yolu ilə Azərbaycana Çindən ipək parça və ipək materialları daxil olduğunu göstərir. Azərbaycanda, Bizans və yaxın Şərqdə ipək istehsalı yaranıb inkişaf etdikdən sonra da Çin ipəyinin gəlməsi azalmamışdı; orta əsrlərdə, xüsusilə 12-13-cü əsrlərdə artmışdı. Arxeoloji qazıntılar zamanı Azərbaycanın hər yerində Çindən gələn çini (farfor) qablara rast gəlinir. (Сара Ашурбейли. Экономические и культурные связи Азербайджана с Индией в средние века. «Елм», Баку, 1990. Səh. 19-26). Bu qabların Azərbaycan dilindəki adı Çin sözündən alınıb (bu gün də belədir)!

***

Çin mövzusu, Çinlə bağlı hadisələr, bənzətmələr orta əsrlər ərzində Azərbaycanda tez-tez rast gəlinir, bir sıra hallarda xüsusi yer tuturdu. Çin gözəli, "Çin müşkünün ətri", ağ rəngin rəmzi kimi Çin... bu kimi ifadələr Azərbaycan şairlərinin dilindən düşmürdü. Onlar Çin kəlməsi ilə yanaşı Xatay (bir az fərqli deyilişdə "Kitay") sözünü də işlədir, çox zaman bu iki deyiliş arasında fərq qoymurdular. Çin imperatorlarının islam ölkələrindəki ləqəbi Fəğfur idi (baqfur-tanrı oğlu). Bu söz həmçinin farsca farfor, yəni çini qab deməkdir. Poeziyada "Fəğfurun bilərziyi" tərifələnərdi. Onu da xüsusi qeyd etmək lazımdır ki, orta əsrlər Azərbaycan ədəbiyyatında Çin hökmdarını Çin xaqanı da adlandırır, çinlilərlə Çin türklərini qarışdırır və ya eyniləşdirirdilər. Ədəbiyyatda Çin mövzusu üzrə Çinə çox maraq göstərmiş böyük şair Nizaminin yaradıcılığına müraciət etməklə kifayətlənəcəyik.

Nizami Gəncəvi (1141-1203) indiki Azərbaycan Respublikasının Gəncə şəhərində doğulmuş, orada da dünyasını dəyişmişdir. Nizaminin ümumilikdə "Xəmsə" (beşlik) adlanan farsca yazdığı beş mənzum epiklirik əsər və ənənəvi divan şeirləri dünya ədəbiyyatı xəzinəsində xüsusi yer tutur. Onun bütün əsərlərinə ən məşhur şairlər tərəfindən fars və türk (o cümlədən azərbaycan) dillərində çoxsaylı nəzirələr (bənzətmələr) yazılmışdır. Höte Nizamini Şərqin (Asiyanın) yeddi ən böyük şairindən biri adlandırmışdı. Nizaminin "Xəmsə"sində "Çin" ən çox işlənən təşbehlərdən biridir. O, "Çin nigarxanası"ndan söhbət açır, bu, "gözəllər məskəni" deməkdir, digər mənası isə "incəsənət məkanı"dır. Nizami bənzətmələrində "Çin dilbərləri kimi (könülləri) qarətə gedirsən" deyir, "havadan bir toz

görməmiş Çin parçası"ndan söhbət açır, Çin poladından dəbilqəni tərif edir.

Nizaminin "Yeddi gözəl" əsərində gənc şahzadə Bəhram bir gözəl qəsrdə ("Göy ona Yerin qibləsi/Kainat isə Çin baharı deyirdi") 7 gözəl qız şəkli görür, onlara aşiq olur. Taxta çıxanda 7 iqlimdən 7 padşahın qızını gətizdirir. Biri Çin xaqanının qızı imiş. Rum gözəlini tərif edərkən də Nizami "Çin nazlı Rum gəlini" deyir. Hər gözəl Bəhram şaha bir əfsanə danışır. "Dar (uzunsov) gözlü" Çin qızının söylədiyi əfsanə məşhurdur, o, seçilib Azərbaycan orta məktəblərində tədris olunur! Çin qızı iki cavanın -Xeyir və Şərin ("əməlləri adlarına uyğun") yola çıxması və Xeyirin səhrada susuzluq çəkməsi, susuzluqdan yanmasından danışır. Şərdən su istəyən Xeyirin yalvarışları Şərə təsir etmir; Şər "gözlərini mənə suya sat" və yalnız bu halda su verəcəyini deyir. Susuzluqdan yanan, özünü itirən və əlacsız qalan Xeyir razı olur. Şər Xeyirin gözünü deşir, su da vermir və onu səhrada qoyub gedir. Su gətirməyə gedən bir kürd qızı onu tapıb evə gətirir. Kürd (qızın atası) bir ağacın yarpağından dərman düzəldir, yaralının gözlərinə sürtür. Xeyir sağalır, gözləri açılır. Xeyir xilaskarı qızla evlənir. Sonra Xeyir şahın və vəzirin ağır xəstə olan qızlarını sağaldır, arvadının razılığı ilə onlarla da evlənir. Nəhayət, Xeyir padşah olur. Bir gün Şəri görür, onu öldürmür, bağışlayır. Şər aradan çıxır, lakin kürd arxasınca gedib onu öldürür (Nizami. Yeddi gözəl. Filoloji tərcümə. "Elm", Bakı, 1983).

Nizaminin son əsəri – "İskəndərnamə" ideallaşdırılmış hökmdar Makedoniyalı İsgəndər (Aleksandr), onun səfərləri, qələbələri və müdriklərlə, filosoflarla söhbətlərinə həsr olunmuşdur (Nizami. İsgəndərnamə. Filoloji tərcümə. "Elm", Bakı, 1983). Nizami öz ideyalarını ortaya qoymaq üçün tarixi anaxronizmlərə yol verir, İskəndəri Azərbaycana və Çinə aparır, türklərlə görüşdürür, ruslarla vuruşdurur (İsgəndər zamanında türklər və ruslar tarix səhnəsinə çıxmamışdılar, İsgəndər Çinə gedib çatmamışdı), müxtəlif dövrlərdə yaşamış filosofları bir yerə, İsgəndərin ətrafına yığır, onlara söz verir. Əsəri yazmağa başlayarkən qoy "bostan Çin ipəyilə bəzənsin" deyir. Gözəl qızı, gəlini "Çin gözəli" bənzətməsi ilə tərif etmək Nizaminin sevimli üsullarından biridir. Hətta hindli gözəlin tərifi belə Çinsiz keçmir, Çini daha çox sevir. "Hindistandan Çinli meydana çıxdı", "Ahutək Çində müşk bəsləmişdi/Hindistanda qərənfil yemişdi". Çin biyabanını keçib abadlığa, behiştə meydan oxuyan bir yerə gələn "İskəndər bu



*Tyananmen meydanında*

gözəl diyarı görüncə ürəyi Hind sevdasından boşaldı".

İskəndər Çin xaqanına, Çin türklərinin başçısına məktub yazır, tutduğu torpaqlarla, öz qələbələri ilə öyünür: "Həbəş hüdudundan Çinə gəlmişəm", xoş məramla gəldiyini söyləyir: "Çində ağ yasəmən əkmək istəyirəm". Öz gücünə güvənir, rəqibi hədələyir, onun başına ağıl qoyur: "ey Çin türkü, ...sən tufan qarşısında çıraq tutursan". Məni hörmətlə qarşılamasan, "ataram bütün Çin torpağını Çin dəryasına".

Çin Xaqanı ona ləyaqətlə cavab verir: "hiylə və əfsun işlətməklə Çindən ərzağı yox etmək olmaz", qolun zorludur, amma zor göstərmə deyir, "çünki tanrı hökmü padşahlıqdan güclüdür". Bununla belə, "sülh döyüşdən yaxşıdır". Xaqan vəzirlə məsləhətləşir: Çinin alnındakı qırışığı necə açım? "Qoşunu Çin hüduduna ona görə çəkdim ki/Turan mülkünü ələ gətirim" deyən İskəndər xaqandan yeddi ilin xəracını istəyir. Xaqanın onda "mənim yeddi il ömür sürəcəyimə bir xətt (təminat) yaz" kimi mənalı cavabı İskəndərin çox xoşuna gəlir, 6 ili sənə bağışlayıram, bir ilin xəracını ver, yetər deyir. Xaqanın qoşunla gəldiyini görəndə onun savaş etmək istədiyini zənn edən (səhvən) İsgəndər hirslənir, Çinliləri tənə edir: "Fitnəsiz anadan bir türk

doğmamış...Qədimdə nə qədər doğru demişlər: "çinlilərdə nə əhd var, nə də ki, vəfa".

"Dar gözlülük onların sifətidir, çinlinin ürəyi əyri-üyrüdür". Xaqanın xoşniyyətli olduğunu anlayan İsgəndər bir il xəracı da ona bağışlayır.

Şah Xaqanın qonağı idi. Kim, hansı millət nədə mahirdir? Bu sual ətrafında gedən müzakirədə biri Rum (Bizans) rəssamlığını, digəri Çin naxışlarını təriflədi. Mübahisəni həll etmək üçün Rumlu və Çinli iki sənətkar arasında yarış elan olundu. Bir tağ quruldu, ondan pərdə asıldı. Rumlu sənətkar bir tərəfdə, Çinli sənətkar digər tərəfdə bir-birini görmədən işə başladılar. Yarış vaxtı başa çatdı. Pərdə götürüldü. Və...hər iki rəssamın çəkdiyi şəkil tamamilə eyni idi!!! Hamı heyrət içində idi, bunun necə olduğunu heç kəs anlamadı. Nəhayət, İsgəndər kələfin ucunu tapdı, yenidən aradan pərdə asılmasını əmr etdi. Və...Rumlunun naxışı parladı, Çinlinin naxışı yox oldu. Pərdəni aradan bir də götürdülər, yenidən iki eyni şəkil göründü. Çinli elə gözəl seyqəl (güzgü) düzəldibmiş ki, Rumlunun çəkdiyi şəkli olduğu kimi əks etdirirmiş! Hər iki sənətkarın alqışa layiq olduğu bilindi.

Bu yerdə Nizami daha bir əfsanə danışır. Mani rəssam idi və Reydən (İrandan) Çinə gəlib peyğəmbərlik etmək istəyirmiş. Çinlilər bundan xəbər tutanda yolda büllurvari sərt maddədən parlaq bir hovuz düzəltdilər ki, sanki içində su var idi və suyun üzərində küləyə görə dalğalar yayılırdı və hovuz kənarındakı otların yaşıl kölgəsi suya düşürdü. Susuzluğa dözə bilməyən Mani bura çatanda sevindi və saxsı kuzəni su ilə doldurmaq istədi. Kuzə hovuza dəyib sındı. Mani işi başa düşdü. Fırçasını işə saldı və hovuzun üstündə ölü it çəkdi, sanki itin üstündə çoxlu qurd qaynaşırdı. Çində Maninin " Bu hovuzdan uzaqlaş" əsərinə yüksək qiymət verdilər.

Xaqan şaha bir kəniz bağışladı, "pəriçöhrə türk qızı", "ağzı gözündən daha dar". Xaqan onun çox gözəl, xoş avazlı və rud çalan və güclü döyüşçü olduğunu dedi. Sonra ruslarla ağır savaşda bu qız böyük igidlik göstərdi, eləcə də şahı vurğun etdi: "kəniz azadlığa çıxdı, şah əsir düşdü".

İskəndərin Çin dənizinə getməsi, gəmi ilə səyahət etməsi, başına macəralar gəlməsi də maraqlıdır. Hindli müdrik qocanın "niyə çinli ağ, zənci qara rənglidir?" sualına cavab olaraq İskəndər bunun Günəşlə bağlı olduğunu deyir. "İskəndərnamə"də böyük zəka sahibi gənc Ərşəmidəşə (Arximedə) İsgəndərin Çin kənizi bağışlaması, Ərşəmidəşin ona aşıq olması və bu səbəbdən ustad Ərəstunun, yəni Aristotelin dərsini buraxması...

kimi maraqlı məqamlarla dolu daha bir hekayə də nəql olunur.

Nizami dünyasını dəyişəndən təqribən 18 il sonra Azərbaycan monqolların əlinə keçəcək, yeni dövlətlər qurulacaq, kimlərsə əzab çəkəcək, nələrsə dağılacaq, kimlərsə, nələrsə yeni həyata başlayacaqdı...Monqol dövründə Azərbaycanla Çin arasında əlaqələr geniş vüsət alacaq, iqtisadi-ticari, mədəni, elmi əlaqələr daha da güclənəcəkdi.

***

1206-cı ildə Ümummonqol qurultayı Temuçini (Çingiz xan adı ilə) Böyük xan elan etdi. Çingiz xanın fəth etdiyi ilk torpaqlar arasında Çin vilayətləri də vardı. Çingiz xanın sağlığında Orta Asiya, İranın şimalı, Azərbaycan və oradan hərəkət edərək Qıpçaq elləri və Rusiya fəth edildi. Beləliklə, Şərqi Avropa ilə Pekin arasındakı torpaqlar monqolların əlinə keçdi. Çingiz xanın qurduğu və onun sələflərinin davam etdirdiyi Monqol imperiyası dünyanın ən böyük dövləti idi. Monqollar gücləndikcə onların ordusunda türklər üstünlük təşkil etməyə başladılar. Çingiz xan 1227-də öldü, lakin onun ən azı bir qismi türklərdən alınan güclü idarəetmə siyasəti onun oğulları və sonrakı nəsillər tərəfindən davam etdirildi. Çingiz xanın oğlu Ögedey 1234-də Çini məğlub etdi. Sonra Mönke (Münke, Mengü, Möngke) Böyük xan seçildi (hakimiyyəti: 1248-1257), o, Çini idarə etməyi öz öhdəsinə götürdü, qardaşı Hülaku (Hülegü) İranı və Bağdadı tutdu, xəlifəlik ləğv edildi (1268). Orta Asiyadakı Çağatay, Azərbaycan, İran və yaxın İslam ölkələrini idarə edən İlxanilər, eləcə də Rusiya-Qıpçaq ərazilərini birləşdirən Qızıl Orda – bu üç faktik olaraq müstəqil olan nəhəng xanlıqlar Monqol Böyük xanlarını, o cümlədən Yuan sülaləsinin (paytaxtı - Xanbalık və ya Dadu, yəni Zhongdu və ya Beijing) təsisçisi Xubilay xanın böyüklüyünü qəbul edirdilər (bəzən könüllü, bəzən bir qədər çəkişmədən sonra). Beləliklə, Çin və Azərbaycan eyni bir dövlətdə, Böyük Monqol imperiyasında (paytaxtı - Xanbalık və ya Dadu, yəni Zhongdu və ya Beijing) birləşmişdilər!

1256-cı ildə Hülaku İsmaililərin məşhur Alamut qalasını aldı, orada astronomik cihazlar və... məşhur alim, riyaziyyatçı, astronom, filosof, təbiətşünas Nəsirəddin Tusi ilə də rastlaşdı. Bir sıra qaynaqlar Çin imperatoru Mönke xanın rəsədxana qurmaq üçün N.Tusini Çinə gətirmək planı olduğunu deyir. Qaynaqlar həmçinin Hülakunun da rəsədxana qurmaq

arzusuna düşdüyünü və bunun N.Tusidən qaynaqlandığını deyirlər (Tusi isə təşəbbüsün Hulakudan gəldiyini yazır). N. Tusi Hülaku ilə söhbətində rəsədxananın əhəmiyyətini səbəb-nəticə məntiqi ilə izah etmişdi: fərz edək ki, siz bir adama dağın təpəsindən iri bir şeyin aşağı buraxılmasını əmr etmisiniz. Böyük səs-küy, gurultu yaranır və hamı qorxur, bunun nə olduğunu bilmədikləri üçün. Yalnız siz və o şeyi buraxan adam narahat deyil, bildiyiniz üçün. Hülaku hər şeyi, hər səfərini N. Tusi ilə məsləhətləşərmiş. Azərbaycan şəhəri Marağada (Təbrizdən cənubda) təpə üzərində rəsədxana qurulması işinə 1259-cu ildə başlanıldı. Mönkenin ölüm xəbəri və Xubilayın taxta çıxması haqqında məlumat Hülaku xana çatanda Marağa rəsədxanasının qurulması işi xeyli qabağa getmişdi; bütöv qurulma 5 ildən artıq vaxt tələb etmişdi (Aydin Sayili. The Observatory in İslam. Türk Tarih Kurumu Basımevi, Ankara, 1988).

Bir çox elm tarixçiləri Marağa rəsədxanasını bəşər tarixində ilk ən böyük rəsədxana və elmi institut sayırlar. Marağa rəsədxanasında əldə olunan fundamental elmi nəticələrə görə elm tarixində "Marağa inqilabı", "Marağa məktəbi" kimi adlar yaranmışdır. Mönkenin rəsədxana qurmaq planının müzakirəsində Cəmaləddin adlı müsəlman astronomun iştirak etdiyi deyilir. Çin qaynaqlarında anılan Ça-ma-lu-tin (Cha-Ma-Lu-Ting) adlı astronomun Xubilayla da astronomik cihazlar barədə müzakirə apardığı söylənilir. Qaynaqlar Marağa rəsədxanasında 400 min kitab olduğunu iddia edirlər. Dünyanın müxtəlif yerlərindən gələn və müxtəlif zamanlarda Marağa rəsədxanasında çalışanlar arasında Çinli Fao-Mun-Jinin də adı çəkilir. Marağada tərtib olunan İlxani astronomik cədvəlinin Çində də tanındığı və istifadə olunduğu deyilir (George Sarton. Introduction to the History of Science. Robert E. Krieger Publishing Company, 1975, volume 2, pp. 1005-6).

İlxani vəziri Rəşidəddin Fəzlullah Həmadani (1247-1318) "Cəmi əl-Təvarix" (Tarixlər toplusu) əsərini dünya tarixi kimi fikirləşmişdi (mərkəzdə Monqol-türk tarixi olmaqla). Çin tarixi hissəsini yazmaq üçün iki Çinli tarixçi işə cəlb edilmişdi. Bu misilsiz monumental əsərin yalnız bir hissəsi qalıb. 1285-ci ildə Azərbaycana (Hülakülərin paytaxtı Təbrizə) gələn Çin nümayəndə heyətinin başçısını Rəşidəddin Bolad (Pulad) Çyensyan adlandırır. O, Azərbaycanda qaldı (cənubda və şimalda), idarəetmə işində məsul vəzifələrdə çalışdı, Şirvanda dünyasını dəyişdi.

Hülaku ordusu ilə çoxsaylı Çin hərbi mütəxəssisləri də gəlmişdi



*Təbiət qoynunda*

(müxtəlif atıcı silahlar üzrə). Təbrizə Çindən həkimlərin gəldiyi (və dərmanlar gətirildiyi) də məlumdur. Gələn Çinli rəssam və digər sənətkarlar Azərbaycan-İran sənətinə təsir göstərmişdilər; miniatürlərdə Çin motivləri əks olunurdu. Əks təsir də (Azərbaycan və İranın Çinə) az olmayıb. Səyahətnamə, tarixi əsərlər və arxeoloji qazıntılar Çin-Azərbaycan əlaqələrinin sonrakı əsrlərdə də çox olduğunu deyir (Сара Ашурбейли. Экономические и культурные связи Азербайджана с Индией в средние века. «Елм», Баку, 1990. Səh. 19-26).

Yuan imperiyasında kağız pul əsas rol oynayırdı. İlxanilər Çin icadı olan kağız pul (çou) siyasətini Azərbaycan və İranda da yürütmək istədilər (1294), lakin bu baş tutmadı.

İpək yolu ilə İslam sivilizasiyası, Avropa və Çin arasında səyahət edənlər əksər hallarda Azərbaycandan keçir, xüsusi halda Çin ilə İlxanilər sülaləsi, o cümlədən Çin ilə Azərbaycan arasında ticari və elmi-mədəni əlaqələrin yaranmasında iştirak edirdilər. Marko Polo, onun atası və əmisindən ibarət Venetsiya (İtaliya) tacirləri 1271-1295-ci illər ərzində Çinə getmiş, orada yaşamış, Dadu (indiki Pekin) şəhərində Xubilay xan sarayında olmuş,

Avropa və keçdikləri ölkələr haqqında məlumat vermişlər. Qeyd edək ki, onlar həm gedərkən, həm də geri dönərkən Azərbaycanın və İlxanilərin paytaxtı olan Təbriz şəhərində olmuşlar; Təbriz bölgənin ən böyük şəhəri, ticarət və mədəniyyət mərkəzi idi.

XIII-XIV əsrlər Monqol imperiyası sayəsində nisbi sülh hökm sürür, Avropa, İslam aləmi, Asiya, xüsusilə də Çin arasında rahat hərəkət etmək olurdu, əlaqələrin inkişafı üçün əlverişli şərait mövcud idi (Pax Mongolica). Beynəlxalq ticarətin və elmi-texnoloji ideyaların şərqdən qərbə, qərbdən şərqə hərəkətinin təhlükəsizliyi təmin olunmuşdu. Tarix boyu dünyanın ən böyük səyyahlarından biri sayılan (təqribən 120 min km yol keçdiyi deyilən) İbn Bəttutə Təbrizdə olmuş ("dünyada gördüyüm ən gözəl bazarlardan biri burdadır", 1327), İlxani hökmdarı Əbu Səidlə görüşmüşdü. İbn Bəttutə Cənubdan Çinə daxil olmuş, 1345-də Quanzhou (Fudan), Beijing, Hangzhouda ("dünyada gördüyüm ən böyük şəhər") olmuş, Çin səddi haqqında da məlumat vermişdir (Marko Polo bu barədə heç nə deməmiş, onun Çində olmasını şübhə altına salanlar bu faktı da səbəb göstərmişlər. Hərçənd ki, İbn Bəttutənin də bəzi səfərlərinə, o cümlədən Çin səfərinə şübhə edənlər var).

***

Tarix boyu Çin-Azərbaycan əlaqələrini diqqətlə izləmək çətindir, bu, yəqin ki, mümkün deyil. Bu əlaqələr gah zilə qalxmış, gah xəfifləmiş, gah az qala yoxa yaxın olmuşdur. Sovet İttifaqı zamanı Azərbaycanda Çin haqqında məlumatlar çoxalmış, Çinə maraq artmışdı. Sovet İttifaqının dağılması, müstəqil Azərbaycan Respublikasının tarix səhnəsinə çıxması və Çin-Azərbaycan diplomatik əlaqələrinin qurulması yeni dövrün başlanğıcı oldu. Gediş-gəliş müqayisəolunmaz dərəcədə artdı.

Hər iki ölkənin yeni məkan, yeni iş üçün can atan şirkətləri qarşı ölkədə fəaliyyət göstərməyə başladılar. Çin şirkətləri Azərbaycanda birinci növbədə neft və enerji ağırlıqlı sahələrə girişdilər, Azərbaycan şirkətləri Çinə hər şeydən əvvəl ticarət və daşıma üçün üz tutdular. Çin universitetlərində müxtəlif səviyyələrdə təhsil almaq istəyən tələbələrin sayı artmaqda və onların Çində yayılma coğrafiyası genişlənməkdədir. Mən Pekində də, Şanxayda da çox azərbaycanlı tələbələr gördüm, onlarla görüşüb vəziyyətlərini öyrəndim, uğurlarına sevindim. Çinli ta-

nışlarım bəzi azərbaycanlı tələbələrin Çincə danışığına valeh olduqlarını söylədilər. Çin universitetləri ilə əlaqələrimiz genişlənməkdədir. Xəzər universitetinin rəhbəri kimi mən Beijing və onun ətrafında, Şanxayda, Anhui və Guiçjou (Guizhou) əyalətlərində (paytaxt Guiyangda) fəaliyyət göstərən ali məktəblərlə tanış oldum, onların rəhbərləri və professorları ilə görüşdüm, beynəlxalq konfranslarda iştirak etdim, Çin elminin, texnologiyasının inkişafını görüb hiss etdim. Eyni zamanda Çin universitetlərinin, Çin professorlarının əməkdaşlığa ciddi maraq göstərdiyinin şahidi oldum.

Səmimi söhbətlər etdik. Çin zəka sahibləri və ziyalılarının dünyaya açıq gözlə baxdıqlarını, öz tarix və mədəniyyətlərini çox sevdiklərini gördüm, duydum, eyni zamanda onların daha yaxşı, daha güclü olmağa can atan tənqidi düşüncə sahibi olduqlarına da əmin oldum. Çinin iqtisadi yüksəlişi, elmi-texnoloji baxımdan tərəqqisi Çin gənclərində qürur hissi doğurur, onlar öz kimlikləri ilə fəxr edirlər - bu fikri mənim həmkarım olan Çinli professorlar da təsdiq etdilər. Onladan birinin “çox xəyalpərvər olmuşuq, göylərdə uçmuşuq, indi yerdə - gerçək dünyada güclənmək lazımdır” fikri yaddaşımda həkk olundu.

Çinin təbiəti haqqında xüsusi söhbət açmaq olardı. Böyük şəhərlərdən kənara, əyalətlərə getmədən Çini tanımaq mümkün deyil. Çinin təbii gözəllikləri də əyalətlərə çağırır. Quiçjou əyalətindəki dağlar, meşələr, şəlalələr, körpülər, güllər-çiçəklər gəl-gəl deyir, insan təbiətlə qucaqlaşır, insan təbiətə qovuşur, insan rahatlaşır, riqqətə gəlir. Əlbəttə ki, dünyanın ən böyük əhalisinə malik bir ölkənin problemləri də az deyil. Yaşayış səviyyəsinin yüksəldilməsi birinci yerdə dayanır. İndi təşəbbüs göstərmək, iş qurmaq təşviq olunur. Yüksələn xətt, Çinin güclənməsi çinliləri və Çinin dostlarını sevindirir, Çini özünə rəqib hesab edənlərdə isə qayğı yaradır, bəzilərini təşvişə salır.

Çinin dostları sırasında dayanan Azərbaycan çinlilər üçün yeni cazibə mərkəzlərindən birinə çevrilməkdədir. Çinin böyük və kiçik şirkətləri Azərbaycanda yerləşir, fəaliyyətlərini genişləndirirlər. Azərbaycanlılar Çində oxuduqları kimi çinli tələbələr də Azərbaycan ali məktəblərində təhsil alırlar. Çin səfirliyi, Çin dilini öyrədən və yayan Konfutsi mərkəzi azərbaycanlılar arasında Çinə marağı təşviq edir, təsir və təmas dairələrini genişləndirirlər. Sadə çinlilər Azərbaycanda yerləşir, işləyir, azərbaycanca danışır, evlənib çoxuşaqlı ailə sahibi olur, iki xalq arasında körpü salırlar.

Çin və Azərbaycan arasında bənzərliklər çoxdur. Çində də, Azərbaycanda da böyük çaylar qərbdən şərqə doğru axır. Çinin də, Azərbaycanın da şərqini dəniz suları yuyur. Çinlilər də, Azərbaycanlılar da zəhmətkeşdirlər. Çinlilər də, Azərbaycanlılar da dost olmağı sevir, dostluğun qədrini bilirlər. Azərbaycan-Çin dostluğunun çiçəklənməsini, bol bar verməsini arzu edirəm.

# Azərbaycanın iqtisadi tərəqqisinə səy göstərən gənc iqtisadçı



*Orucov Seymur Vaqif oğlu 1984-cü ilin oktyabr ayının 27-də Naxçıvan MR-nın Naxçıvan şəhərində anadan olmuş, orta təhsilini 2001-ci ildə Şirvan şəhərində bitirmişdir. Elə həmin ildə Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə-kredit" fakültəsinə daxil olmuş, 2005-ci ildə bakalavr təhsil pilləsini bitirmişdir. 2005-ci ildə universitetin magistr təhsil pilləsinə "Maliyyə-kredit" ixtisası üzrə qəbul olmuş və 2007-ci ildə həmin ixtisas üzrə magistr dərəcəsi almışdır. 2007-ci ildə qəbul imtahanlarını müvəffəqiyyətlə verərək Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə" kafedrasına aspirant kimi qəbul olmuşdur. 2010-cu ildə iqtisad elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsini almaq üçün "Müasir şəraitdə dövlət büdcəsinin gəlir və xərclərinin tənzimlənməsi problemləri" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmişdir.*

*2006-cı ildən 2009-cu ilin iyun ayına kimi Azərbaycan Dövlət İqtisad Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsində çalışmışdır. 2009-cu ilin noyabr ayından tərbiyə işləri üzrə prorektor vəzifəsində işləyib.2010-cu ildə Tərəqqi medalı ilə təltif edilmişdir.*

*29 yanvar 2011-ci ildə Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin sədri və həmçinin aprel 2011-ci il tarixində Rabitə İşçiləri Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri seçilmişdir.*

## Azərbaycan – Çin iqtisadi əlaqələri

Azərbaycanın 1991-ci ildə dövlət müstəqilliyinin bərpası ilə başlayan yeni tarixinin ötən dövrü, bir sıra mühüm cəhətlərlə xarakterizə edilir. Belə mühüm cəhətlərə ilk növbədə inkişafın bütün aspektlərində dövlətçilik və milli maraqların qeyd şərtsiz prioritetliyinin önə çıxarılmasıdır. Bu cəhət xüsusi ilə 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin dövlət rəhbərliyinə qayıdışından sonra yaranmışdır.



*Tədbirlərin birində*

Cəmiyyətin və dövlətin həyatının müxtəlif sahələrində əsaslı yenidənqurmanın strateji istiqamətləri və üsullarını böyük ustalıqla müəyyənləşdirən Ulu öndər, ölkəmizin dünyanın aparıcı ölkələri ilə əlaqələrinin yeni keyfiyyət səviyyəsində inkişaf etdirilməsi zərurətini

ortaya qoydu və ardıcıl addımlarla bu xəttin reallaşdırılmasına yönəlmiş dövlət siyasətini təmin etdi. Bu siyasətin mühüm istiqamətləri kimi, təhrik olunduğumuz müharibədə müvəqqəti atəşkəsin yaranması, dərin böhrana düçar olmuş iqtisadiyyatın inkişafına xarici investisiyaların cəlb edilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin yaradılması, iqtisadi islahatlarda sistemlilik və ardıcılllığın təmin edilməsi və sair kimi mühüm addımlarla yanaşı, ölkəmizin dünyanın söz sahibi olan iri ölkələri ilə dostluq münasibətlərinin bərpa edilməsi və ya yaradılması qeyd edilə bilər.

Bu sırada dövlət başçımızın ilk xarici səfərlərindən birinin böyük və qədim Çinə olması heç də təsadüfi deyildir. Bu səfərin sonrakı nəticələrinin konkret təzahürləri çoxsaylı və kifayət qədər zəngindir. Lakin hesab edirik ki, bu səfərin ən mühüm nəticələrindən biri sonralar Azərbaycanın dominant olduğu ”Qədim ipək yolunun“ bərpası üçün formalaşan böyük beynəlxalq layihənin meydana gəlməsi və reallaşmasıdır.

Ötən dövr ərzində Azərbaycanla Çinin dostluq və əməkdaşlıq əlaqələri bütün spektrlər üzrə müvəffəqiyyətlə inkişaf etmişdir. Məsələn, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında iqtisadi əlaqələrin genişləndirilməsi, bu sahədəki problemlərin həlli məqsədilə Hökumətlərarası İqtisadi Komissiya yaradılmışdır. Bu Komissiyanın tərkibində 2003-cü ildən Azərbaycan-Çin Ticarət-İqtisadi Əməkdaşlıq üzrə İşçi Qrupu fəaliyyət gostərir.

2006-cı ildə Çin-Azərbaycan Dostluq Cəmiyyəti təsis edilmişdir. Azərbaycan-Çin Parlamentlərarası İşçi qrupu mövcuddur. Bu müddətdə Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında iqtisadi sahələrdə geniş muqavilə-hüquqi baza yaradılmışdır :

- Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş. Pekin, 8 mart 1994;
- Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında Saziş. Pekin, 7 mart 1994;
- Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında, ÇXR-dən Azərbaycan Respublikasına mallar göndərilməsi üçün Dövlət krediti ayrılması haqqında Saziş. Pekin, 24 may 1994;
- Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında Çinin Azərbaycana güzəştli kredit verməsi haqqın-

da çərçivə Sazişi. Bakı, 18 iyun 1998;

- Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş. Bakı, 23 oktyabr 2004;
- Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında gömrük işi sahəsində qarşılıqlı yardım haqqında Saziş. Pekin, 17 mart 2005;
- Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş. Pekin, 17 mart 2005;
- Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında gəlirlərə gorə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Saziş. Pekin;
- Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş. Bakı, 29 dekabr 2008;
- Azərbaycan-Çin Hökumətlərarası ticarət-iqtisadi əməkdaşlıq Komissiyasının iş prinsipləri haqqında Memorandum. Pekin, 27 may 2009.
- Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş. Bakı, 16 iyun 2010.

Doğrudur, yaradılmış əlverişli normativ-hüquqi baza və ölkələrimizin iqtisadi potensialı müqabilində ticarət dövriyyəsinin faktiki səviyyəsini heç də adekvat hesab etmək olmaz. Məsələn, 2011-ci ilin nəticələrinə görə Çin bizim tərəf müqabilləri arasında yalnız 12-ci mövqeni tutmuşdur.

Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında xarici ticarət dövriyyəsinə nəzər yetirdikdə aydın olur ki, iki ölkə arasında xarici ticarət dövriyyəsinin həcmi 2005-ci ildə 275.1 mln-dan 2011-ci ildə 667.3 mln ABŞ dollarına qədər yüksəlmişdir. Ölkəmizin Çin ilə xarici ticarət dövriyyəsinin ümumi dövriyyədəki payı 2005-ci ildə 3,1%, 2006-cı ildə 1,96%, 2007-ci ildə 2,46%, 2008-ci ildə 1,78%. 2009-cu ildə 2,9%, 2010-cu ildə 3,3% və 2011-ci ildə 1,83% olmuşdur.

Ölkəmizin Çin ilə idxal və ixrac əlaqələri üzrə statistik məlumatlardan aydın olur ki, iki ölkə arasında 2000-2011-ci illərdə ticarət saldosu,




*Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ticarət dövriyyəsi (min ABŞ dolları)*

2008-ci il istisna olmaqla bütün illər Azərbaycan üçün mənfi olmuşdur. Azərbaycanın Çin ilə idxal və ixracını təşkil edən əsas növ məhsulların dinamikasında isə aydın olur ki, məbləğinə görə Azərbaycana Çindən idxal olan əsas növ məhsullar yük avtomobilləri - 49219,3 min ABŞ dolları Azərbaycanın Çindən idxalının 7,8%-i, buldozerlər, ekskavatorlar, digər yol-tikinti maşınları - 36964,3 min ABŞ dolları və hesablama maşınları və qurğuları - 10300,1 min ABŞ dolları təşkil edir.

Azərbaycandan Çinə ixracın əsas hissəsini etilen polimerləri, ilkin formada 22470,8 min ABŞ dolları (Azərbaycanın Çinə olan ixracın 57,6%-i) və emal olunmamış alüminum – 8025,1 min ABŞ dolları təşkil etmişdir.

2004-2011-ci illərdə Çin kapitalı ilə Azərbaycanda 40 şirkət qeydiyyata alınıb. 1995-2011-ci illərdə Çin şirkətləri Azərbaycanın qeyri-neft sektoruna 102,5 mln., neft-qaz sektoruna 598 mln. ABŞ dolları məbləğində investisiya qoyub.

Azərbaycanda dövlət sifarişi ilə Çin şirkətlərinin iştirakı ilə reallaşdırılan layihələrin dəyəri 417 mln.avro təşkil edir.

"Çində Azərbaycan kapitalı ilə 16 şirkət qeydiyyatdadır ki, onların ölkə iqtisadiyyatına investisiyaları təxminən 5 mln. ABŞ dolları təşkil edir.

# Çində doktorluq dissertasiyası müdafiə edən ilk azərbaycanlı




*Rəşad Seyfəddin (Kərimov) 25 mart 1979-cu ildə Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1995-ci ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin çin dili bölməsinə daxil olmuşdur. 1996-2004-cü illər ərzində Pekin Dillər və Mədəniyyət Universitetində bakalavr və magistr təhsili almışdır. 2004-2008-ci illərdə Çinin Xarici Əlaqələr Universitetinin doktoranturasında təhsilini davam etdirmişdir. ÇXR-də "Azərbaycanın xarici siyasətində Çin-Azərbaycan münasibətləri" adlı doktorluq dissertasiyasını müdafiə etmişdir. Bir sıra məqalələrin və kitab tərcümələrinin müəllifidir. Doktoranturada təhsil aldığı illərdən AR-nın ÇXR-dəki səfirliyində rəsmi iş fəailiyyətinə başlamışdır.*

*Rəşad Seyfəddin Çində doktorluq dərəcəsinə yiyələnmiş ilk azərbaycanlıdır. O, Çin-Azərbaycan böyük lüğətinin müəllifidir.*

*Hazırda AR-nın Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici Siyasət Məsələlərinin Təhlili Şöbəsinin aparıcı elmi işçisidir.*

## Arzuların çin olduğu yer

Çoxumuzun təsəvvüründə Çin qədim, həm də bir qədər müəmmalı, əfsanələr və miflərlə əhatə olunmuş bir ölkədir. Məktəbdə oxuduğumuz vaxtlardan Çinin məşhur ixtiraları- kompas, barıt, kağız və s. haqqında məlumatlar almışıq və bilirik ki, bunlar bəşəriyyətin inkişafına böyük təkan




*Doktorluq dissertasiyamın müdafiəsi günü*

verib. Məşhur "Çin səddi" haqqında isə əlbəttə ki, eşitməyən, bilməyən yoxdur. 20 əsr ərzində tikilən və dağların ətəkləri boyu 8000 kilometrlərlə uzanan bu tikili dünyanın 7 möcüzəsindən biri hesab olunur.

Biz həmişə hər yerdə Çinin güclənən iqtisadiyyatı və son illərdə inşaat sahəsindəki möhtəşəm nailiyyətləri, ekzotik yeməkləri, sirli elmləri və digər möcüzələri barədə xəbərləri eşidirik... Və bizə elə gəlir ki, bu ölkə haqqında hər şeyi bilirik. Amma Çinlə daha yaxından tanış olduqdan sonra başa düşürük ki, demə, bu sirli ölkə və onun sakinləri haqqında məlumatımız çox səthi imiş.

Hədislərdən birində peyğəmbərimiz buyurur ki, elm Çində olsa da gedin, öyrənin. Bəli, elmə yiyələnmək üçün ölkəmizdən çox uzaqda olan Çin kimi ölkəyə getmək mənə də nəsib oldu, hər şeyə qismətə bağlı imiş. Orta məktəbi bitirəndə hüquqşünas olmağı düşünürdüm, ancaq imtahanın nəticələrinə görə ölkəmizdə ilk dəfə Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsində açılan " Çin filologiyası" bölməsinə qəbul olun-



*Müəllimlərimlə birlikdə*

dum. Bu, mənim üçün gözlənilməz idi. Ancaq sonralar anladım ki, bu elə alın yazımmış. Birinci kursu bitirdikdən sonra mənim üçün bu dili öz vətənində öyrənmək şansı yarandı və dövlət xətti ilə Çin Xalq Respublikasına göndərildim. O vaxt BDU-nin rektoru sonralar parlamentin spikeri olmuş mərhum Murtuz Ələsgərov, prorektor isə sabiq Təhsil Naziri Misir Mərdənov idi.

Həyatımda ilk dəfə idi ki, vətənimdən, ailəmdən bu qədər uzaq düşürdüm. O zaman Azərbaycanın müstəqilliyinin ilk illəri idi. Pekin şəhərində yerləşən səfirliyimiz də həmin dövrlərdə kiçik, darısqal idi və bəlkə də

orada hamını bir-birinə doğmalaşdıran səbəblərdən biri də elə bu idi. Neçə min kilometrlərlə vətənindən uzaqda sənin dilində danışan, səni anlayan və ən əsası səni duyan insanlar burada toplaşmışdır. Bizi Pekin şəhər hava limanındaca səfirliyin əməkdaşları qarşıladılar. Elə həmin o anlardan onlarla aramızda isti münasibətlər yarandı, bu günəcən davam edən dostluğumuzun təməli qoyuldu.Çində Azərbaycanı təmsil edən o vaxtkı səfirimiz Tamerlan Qarayev bizi iş otağında mehribanlıqla qarşıladı və sonralar da işlərimizlə daima maraqlanıb öz köməkliyini göstərirdi. Onu da xüsusi vurğulamaq istəyirəm ki, hər dəfə Tamerlan Qarayev tələbələri və səfirlik işçilərini öz evinə dəvət edib Yeni ili bizimlə birlikdə qarşılayırdı.



*Müəllimim Li Tyeçın ilə birlikdə*

İqlimi, dili və insanları yad olan ölkədə yaşamaq ağır idi. Hətta bir ara təhsilimi yarımçıq qoyub vətənə qayıtmaq istədim. Amma mənə olan etimadı və etibarı itirəcəyimdən bu fikrimdən çəkindim və təhsilimi davam etdirdim. BDU-da bir il təhsil almağıma baxmayaraq, mən çin dilini və Çini əsl mənada Pekin Dillər və Mədəniyyət Universitetinə gələndən son-

ra öyrənməyə başladım. Bir zamanlar bu universitet Dillər İnstitutu olduğundan ora daha çox çin dilində Yüyan Süyeyüan kimi tanınır. Təhsil adığım müddətdə universitetin şəhərciyində müəllimlərlə yanaşı biz də bir çox yerlərə velosipedlə gedirdik. Təhsil adığım universiteti kiçik BMT də adlandırırdılar, çünki burada yüzdən çox ölkəni təmsil edən tələbələr təhsil alırdılar. Tələbələr arasında çox isti münasibətlər var idi. Bu gün də dostluq əlaqələrimizi saxlayaraq virtual da olsa bir-birimizlə tez-tez görüşürük.

Beləcə mənim həyatımın 15 illik səhifəsi Çinlə bağlı oldu. Xoşbəxtliyimdən o nəhəng ölkədə yaşadığım müddətdə Çinin ən savadlı,



*Müəllimim Çü Sin ilə birlikdə*

ən nüfuzlu müəllimlərindən bilik əldə etdim. Bu təəssüratlarımı qələmə alarkən qeyd etməyi borc bilirəm ki, həmin müəllimlərimdən özümə qarşı həm də sanki bir valideyn-övlad münasibəti gördüm. Bəzən hətta şəxsi məsələlərin həllində belə həmişə müəllimlərimlə məsləhətləşmişəm və bundan ancaq xeyir tapmışam. Nailiyyətlər əldə etdim. Bakalavrdan




*Valideynlərimlə birlikdə Tyananmen meydanında*

magistraturaya və doktorantura pilləsinə qədər qalxdım. Nəhayət, bu böyük ölkədə hamımızın doğma ocaq bildiyimiz səfirliyimizdə vətəni təmsil etmək şərəfinə nail oldum. 2007-ci ildə doktoranturanın axırıncı ilində olarkən səfirimiz Yaşar Əliyevin təşəbbüsü ilə səfirliyə referent vəzifəsinə işə düzəldim. Səfirlikdə işlədiyim 4 il müddətdə diplomatiya elmini daha dərindən öyrənməyimdə və bir diplomat kimi formalaşmağımda Yaşar Əliyevin rolu böyük olmuşdur. Bu illərdə Azərbaycan-Çin əlaqələrinin inkişafına xidmət göstərən bir çox layihələr həyata keçirdik. 2008-ci il Pekin Yay Olimpiadasında prezidentimiz İlham Əliyevin oyunları canlı izləmək üçün bu ölkəyə səfər etməsi idmançılarımıza ruh yüksəkliyi verdi. Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının Çinin paytaxtı Pekindəki "Tianqiao" teatrında səhnələşdirilməsi, Azərbaycan nağıllarının çin dilinə tərcümə edilib kitab şəklində nəşr olunması, respublikamızın əlamətdar günləri zamanı təşkil olunan təntənəli qəbullar və s. səfirliyin düzgün istiqamətli fəaliyyəti nəticəsində yüksək səviyyədə həyata keçirilmişdi. Digər təbliğatı işləri görməklə də Azərbaycanın Çində daha da yaxından tanınması üçün yorulmadan çalışırdıq. Səfirlikdə işlədiyim dövr mənim

gələcək həyatıma istiqamət verən ən vacib amillərdən biri oldu.

Çində təhsil aldığım illərdə oranın adət-ənənələri, mentaliteti, qədim fəlsəfəsi, mədəniyyəti və tarixi ilə tanışlığım, yerli əhali ilə sıx təmaslarım bu ölkəyə məhəbbətimi günbəgün artırırdı. Çinin hər dəfə müxtəlif yerlərini gəzdikcə, yeni şeylər öyrənir, bu qədim, sirli ölkənin hikmətlərinə valeh olurdum. Bu gün doğma Bakımda Pekinə yola düşən dost-tanışlarıma istiqamət verə bilməyim məni necə də sevindirir. Çünki mən oranın küçələrini və insanlarını demək olar ki, Bakının küçələri və insanları qədər tanıyıram. Pekində hər şey yerli-yerində, hər yer tərtəmiz, yerli əhalinin xarici vətəndaşlara münasibəti dostcasınadır. Məndən tez-tez Çinin necə ölkə olduğunu soruşurlar. Cavabım belə olur: hər çinşünasın özünün bir Çini var, bu ölkəni təfərrüatı ilə görmək istəyən gərək Çinə mənim gözlərimlə baxsın...

Dünya sivilizasiyasının beşiklərindən olan Çin dünya mədəniyyətinin təşəkkül tapmasında müstəsna rol oynayıb. Müasir Çin də bu ölkəyə gələn qonaqlara sirrini dərhal vermir, tədricən açır və orada keçirilən hər gün yenilikləri ilə insanları sözün yaxşı mənasında heyrətləndirir. Tədricən



*Qrup yoldaşlarımla birlikdə*

belə bir təsəvvür yaranır ki, Çin həqiqətən də sərhədsiz imkanlar ölkəsidir: burada nağıllar reallaşır, arzular gerçək olur.

Mən Çinə gedəndə ölkə iqtisadi inkişafına hələ yenicə qədəm qoymuşdu. Orada olduğum illər ərzində bu irəliləyiş ən yüksək həddinə çatdı və hazırda da davam etməkdədir. Mən bütün bu dəyişikliklərin hamısının canlı şahidi olmuşam.

Çin, ümumiyyətlə, müasirliyi və keçmişi özündə qoruyub saxlayan bir ölkədir. Burada müasirləşmənin çox sürətlə getdiyi bir vaxtda adət-ənənələr və qədim tikililər çox böyük ehtiramla qorunub saxlanılır. Böyük şəhərlərdə çox dəbdəbəli mərkəzlər və otellərdən sanki zamanın maşınındakı kimi birdən-birə çox qədim - 5 min illik tarixi olan tikililər və saraylar aləminə düşürsən. Bizi tələbə vaxtı mütəmadi olaraq Pekinin qədim məbədlərinə aparırdılar. “Yixıyüan” İmperatorun Yay sarayına hər dəfə universitetdən müəllimlərimizlə birlikdə gedib orada piknik təşkil edərkən, hər tələbə öz ölkəsinin yeməyini nümayiş etdirmək imkanına malik olardı.

Universitetimizin bufeti və həyətində açılmış uyğur restoranı tələbələrin yemək vaxtı dərdləşdiyi yerlərdən biri idi. Uyğur restoranının açılması mənim magistratura illərimə təsadüf edirdi. Acılığına və çoxlu ədviyyatlar istifadə olunmasına baxmayaraq, bu mətbəxin bir az bizim mətbəxə yaxınlığı var idi. Çin mətbəxindən düzgün qaydada istifadə etmək əksər xəstəliklərin dərmanıdır. Çünki həm bu yeməklər, həm də Çin qida məshullarından düzgün istifadə ənənəvi Çin təbabəti Yinyan konsepsiyası əsasında düzənlənib, yəni, bu zaman ət məhsulları və s . ilə yanaşı tərəvəz məhsullarının bir yerdə qəbul olunması zəruridir. Çin mətbəxinin dərin məzmunu onun özünün bir elm olmasından xəbər verir. Çinlilər demişkən “Çin yeməyi ən düzgün təbabətdir”.

Çinin istənilən ərazisində tənəffüs gimnastikası ilə məşğul olan və ya yelpiklərlə, lentlərlə və xəncərlərlə rəqs edən insanları görmək olar. Müasir şəhər yollarında isə son model maşınlar və velosipedlər şütüyür. Orada yaşadığım müddət ərzində çinlilərin bəzi adətləri ilə bizim aramızda olan oxşarlıqları müşahidə etmişəm. Bu sıradan qonaqpərvərlik, böyüyə hörmət, toy adətləri, ailələrdə ər-arvad münasibətləri, onların böyük sevinclə qeyd etdikləri yaz bayramı və s. qeyd etmək istərdim. Çinlilərin yaz bayramı, yəni yeni ili bizim “Novruz bayramı” kimi əlamətdardır. Bayram günü yaşlıların hədiyyə qismində kiçiklərə verdikləri xərclik pul “ya suyçien” cox maraqlı ritualla müşayiət olunurdu.Tələbəlik illərimdə çinli dostları-



*Vanfucində*

mın valideynləri bayramlarda məni də yaddan çıxarmırdılar. Çinli dostlarımın ailələri ilə onların bu yaz bayramını birgə keçirmək məndə çox xoş təəssüratlarla yadda qalıb. Hazırda Bakıda da Çin səfirlyi və Konfutsi İnstiutunun təşkil etdikləri Yaz bayramları şənliyinə böyük sevinclə qatılıram. Bu, çinlilərin dünyanın harasında olmalarından asılı olmayaraq, yeni il süfrəsi arxasında toplaşmaları üçün gözəl bir imkan və səbəbdir. Yaz bayramını eyni ilə bizim kimi hamı öz evində - ailəsinin, doğmalarının əhatəsində qeyd etməyə calışır.

Qısaca da olsa qeyd edim ki, bu bayram xüsusi bir təmtəraqla bütün ölkə ərazisində qeyd edilir. Parklarda müxtəlif tədbirlər, konsertlər, çərpələnglərin uçuşu təşkil olunur. Ailələr isə Yaz bayramına çox böyük həvəs və şövqlə hazırlaşırlar. Bayram süfrəsi üçün ənənəvi olaraq, ən bahalı və dadlı yeməklər hazırlanır. Süfrədə balığın olması əsas şərtdir. Belə ki, çinlilərin inancına görə balıq bolluq rəmzidir. Həmçinin süfrədə ət, toyuq, ördəkdən hazırlanmış yeməklər, müxtəlif şirniyyatlar da olur. Gecə isə böyük atəşfəşanlıq başlanır. Çinlilərdə yaz bayramı uzunmüddətli tətillərlə davam edir. Yaz bayramı günlərində dost-tanışların, qohumların

evinə qonaq getmək, hədiyyələr aparmaq, böyüklərə baş çəkmək, qeyd etdiyim yaşca kiçiklərə xərclik olaraq qırmızı konvertdə pul hədiyyələri etmək və s. bayram adətlərindəndir.

Əlbəttə ki, Çində yaşadığım müddətdə, xüsusən də, tələbəlik illərində çinli dostlarımla onların yaz bayramını qeyd etdiyim kimi, onlar da mənimlə birlikdə mart ayının 20-21-də bütün azərbaycanlıların " Yeni ili" olan Novruz bayramını qeyd edirdilər. Mən isə ailəmin göndərdiyi xüsusi bayram təamlarını-şəkərbura, paxlava, müxtəlif çərəzləri süfrəyə düzür, bayram şamlarını yandırırdım. Bu, onlar üçün çox maraqlı idi. Mən dostlarıma bizim bayramların bəzi oxşarlıqlarını izah edirdim. Deyirdim ki, süfrəmizdə bol nemətlərin olması, balığa üstünlük verilməsi, bayramlaşmalar, hədiyyələr vermək, bayram günü təzə geyinmək və s. bizim oxşar adətlərdəndir.

Çin haqqında çox danışmaq olar. Bu ölkənin iqtisadiyyatı, təhsili, tarixi, fəlsəfəsi və s. həmişə dünya ictimaiyyətinin diqqətindədir. Çinin inkişafı əlbəttə ki, onun iqtisadiyyatı ilə bağlıdır. Bu da Çini dünyanın inkişaf etmiş ölkələri ilə bir sırada qərarlaşdırır. İndi Çində dünyada birincilərdən sayılan göydələnlər, qeyri-adi formada tikilən teleqüllə, Olimpiadanın keçirildiyi möhtəşəm stadion, böyük otellər və s. dünya memarlıq abidələrinin incilərindən sayılır. Bu da ölkədə turizmin inkişafına zəmin yaradır. Bu inkişaf tempi təkcə paytaxt Pekini deyil, digər şəhərləri də əhatə edir.

Pekin okeanarimu və zooparkı haqqında isə xüsusi qeyd etmək lazımdır. Mən ilk dəfə burada əsl pandaları görmüşəm. Bu, mənim üçün cox maraqlı idi. Zooparkın böyük ərazisi var. Burada heyvanlar dəmir barmaqlıqlar arxasında olmur, onları hətta yemləmək də mümkündür. Zooparkın ərazisində funikulyor da var. Burada bəzi zooparklardakı kimi pis iy-qoxuya rast gəlmərsən. Hər yer baxımlı, təmiz və çox səliqəlidir. Burada həmçinin bulaq, uşaq attraksionları, gəzinti üçün böyük ərazi vardır.

Pekində Tyananmen meydanı, yəni Səma məbədi (qapısı) şəhərə gələnlərin ən çox ziyarət etdikləri yerlərdəndir. Qadağan olunmuş şəhər-Ququn sarayı da olduqca maraqlı abidədir. 2008-ci ildə doktoranturanı bitirməyimlə bağlı mərasimə valideynlərim gələndə onlar da bu yerləri bir memarlıq möcüzəsi kimi qiymətləndirdilər. Ququn sarayında daş heykəllərdən ibarət böyük bir ordu var. Bəli, Pekində insanı heyrətləndirən tarixi yerlər bitib-tükənmək bilmir. Amma bu ölkə necə deyərlər, keçmişində ilişib qalmır,bunlarla yanaşı Pekində müasir komplekslər, yeni parklar sa-

lınır, çoxmərtəbəli yaşayış binaları tikilir. Ancaq bütün bunlar heç bir halda Pekinin tarixi görkəmini pozmur, əksinə harmonik bir mənzərə yaradır. Burada yeniliklər böyük sevinclə qarşılanır, ancaq köhnəliklər də “arxivə atılmır”, gələcək nəsillər üçün yaşadılır

Çinin sürətli inkişafı və nailiyyətləri təkcə bura təşrif buyuranları deyil, hətta yerli sakinləri də sözün yaxşı mənasında təəccübləndirir. Onlar 20 il əvvəl bu inkişafı təsəvvürlərinə belə gətirə bilməzdilər.

Məlum olduğu kimi dünya sivilizasiyasının parlaq və əhəmiyyətli nailiyyətlərindən biri Şərqi və Qərbi birləşdirən Böyük İpək Yolu hesab olunur. Böyük İpək Yolunun inkişafında Azərbaycan da olduqca əhəmiyyətli rol oynayıb. Çünki Azərbaycan coğrafi baxımdan Şərq üçün Qərbə, Qərb üçün də Şərqə açılan qapıdır. Böyük İpək Yolu təkcə ticarət yolu deyil, hər bir sahədə əldə edilən nailiyyətlərin, yeniliklərin mübadiləsi idi. Aralıq dənizindən Böyük Çin səddinə qədər uzanan bu yolu tacir karvanları üç ilə qət edirdilər. Bu zaman müxtəlif malların alış-verişi gedirdi. Bu sırada Naxçıvan koşenili (qrmızı boya) ən məşhurlardan idi. Sara Aşurbəylinin kitabında da Böyük İpək Yoluna dair ətraflı məlumat əks olunub. Hazırda bizdə istifadə olunan çini qablar da o dövrlərdən qalan yadigardır. Yəni, bizim bu münasibətlər özündə uzun bir tarixi ehtiva edir.

Bu ticarət əlaqələri sayəsində ipək yolu ölkələrindən Çinə müxtəlif qızıl-zinət əşyaları, gözəl teştlər, piyalələr, yunan ustalarının döyməsi olan gümüş qablar və s. gətirilirdi. Çindən isə ipəkdən başqa bürünc güzgülər, saxsı və çini qablar aparılırdı. Ancaq ən əsası İpək yolu vasitəsilə Çinin dahi ixtiraları olan kompas, barıt, kağız dünyanın müxtəlif ölkələrində geniş yayılaraq bəşəriyyətin inkişafına təkan vermiş oldu. Şərqlə Qərbi birləşdirən İpək yolunda, Çinlə Orta Asiya və Avropa dövlətləri arasında ticarət əlaqələri sürətlə möhkəmlənir, xalqlar bir-birini tanıyır, öyrənir, bilik və təcrübə mübadiləsi aparırdılar. Bu da İpək Yolu boyunca yerləşən dövlətlər arasında həm də müasir dillə desək, diplomatik əlaqələrin yaranmasına rəvac verirdi.

Lakin 15-ci əsrin sonlarından etibarən bu dövlətlərə qarşı işğalçı hücumlar nəticəsində İpək yolunun əhəmiyyəti tədricən azaldı. İpək yolunun dağılması iqtisadiyyatda durğunluq yaratdı, mədəni və siyasi əlaqələrin itməsinə səbəb oldu və Şərq inkişafda olan Qərb ölkələrindən geri qaldı...

Amma doğrudan da tarixin təkəri bir yerdə dayanıb-durmur, daim hərəkətdədir. Son illər İpək Yolu ölkələrinin bir çoxu, təbii ki, Çin və

Azərbaycan da daxil olmaqla bəlkə də bütün tarixləri boyu görünməmiş inkişaf mərhələsinə qədəm qoyublar. Bu da İpək Yolunun yenidən bərpasını zəruri edir. Bu, son illərin ən aktual mövzularındandır.

Hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzində Çin ilə əlaqədar işlər mənə həvalə olunub. Çalışdığım müddətdə mərkəzin direktoru Fərhad Məmmədovun rəhbərliyi ilə Çinin ən böyük beyin mərkəzləri ilə memorandum imzalanıb və bir sıra layihələr həyata keçirilməkdədir. Bütün bu işlər bir daha ölkə rəhbərliyinin Çin ilə əlaqələrə verdiyi xüsusi önəmin təsdiqidir. Azərbaycan həmişə Çini dost ölkəsi kimi tanıyıb və bir çox sahələri əhatə edən bu sıx əməkdaşlıq gələcəkdə də davam edərək daha da geniş vüsət alacaq.

Düşünürəm ki, gələcəkdə əgər bu ölkə barədə memuarlarımı yazası olsam orada yalnız xoş fikirlər yer alacaq. Çünki Çinin mənim həyatımda, formalaşmağımda çox önəmli təsiri olub, sabiq ABŞ prezidenti Niksonun təbirincə desək - Çin böyük bir məktəb, biz isə bu məktəbin tələbələriyik...

# Qələmi ilə millətinə xidmət edən insan



*İsmayılov Elçin Qərib oğlu 1975-ci il may ayının 20-də Ermənistan Respublikasının Spitak rayonunda anadan olub. 1991-ci ildə Nizami rayonu 272 saylı orta məktəbi bitirib. Elə həmin il Futurologiya Universitetinin futurologiya fakültəsinə daxil olmuş və 1996-cı ildə həmin universiteti bitirmişdir.*

*1997-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasının "Qaz-Neft Mədən" fakültəsinə daxil olub, 2001-ci ildə "Faydalı qazıntı yataqlarının işlənməsi" ixtisası üzrə bakalavr pilləsini fərqlənmə diplom ilə bitirmişdir. 2001-2003-cü illərdə həmin ixtisas üzrə magistraturada təhsilini davam etdirmişdir. 2003-cü ildə magistraturanı fərqlənmə diplomu ilə bitirmişdir.*

*2007-ci ildən "Mühəndis qrafikası" kafedrasında laborant, böyük laborant, assistent vəzifəsinə kimi yüksəlmişdir.*

*2011-ci ildə "Neft Mexanika" ixtisası üzrə fəlsəfə elmləri doktoru dissertasiyasını müdafiə edərək, fəlsəfə elmləri doktoru adını almışdır.*

*1 monoqrafiyası və 16 məqaləsi müxtəlif ölkələrdə, Çin Xalq Respublikasında, Rusiya Federasiyasının San-Peterburq şəhərində, Londonda, Türkiyədə və, nəhayət, doğma Azərbaycanda çap edilmişdir.*

*Azərbaycan Respublikasının Kütləvi İnformasiya Vasitələrinin Həmkarlar İttifaqının və "Obyektiv fikir" İctimai Birliyinin rəy sorğusu əsasında İsmayılov Elçin Qərib oğlu "Qızıl Qələm" və "Şöhrət" media mükafatına layiq görülmüşdür.*

## Çin Azərbaycanın gözü ilə

Tarixən Azərbaycan xalqı ilə Çin xalqı arasındakı münasibətlər dinc və mədəni xarakter daşımışdır. Vaxtilə tarixi "İpək yolu" vasitəsilə bir-birilə əlaqələr quran bu iki xalq zəngin mədəniyyətə malik olmuşlar. Bu səbəbdən də onların qarşılıqlı əlaqələr qurması faydalı tərəfdaşlığın inkişafına xidmət etmişdir.

Tarixin bəzi çağlarında bu əlaqələr obyektiv və subyektiv amillərin təsiri altında zəifləsə də bütövlükdə faydalı olmuş və nəticədə hər iki mədəniyyətin zənginləşməsinə gətirib çıxarmışdır.

1991-ci ildə Azərbaycanın müstəqillik aktını qəbul etməsi, onun xarici ölkələrlə, ilk növbədə Çin ilə əlaqələrində keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoydu. 1991-ci il dekabrın 27-də Çin tərəfi Azərbaycan Respublikasının müstəqilliyini tanıdı. 1992-ci il aprel 2-də isə Azərbaycan ilə Çin arasında diplomatik münasibətlər quruldu. Bu dövrdən başlayaraq iki ölkə arasında münasibətlər daim inkişaf etmişdir. Ötən müddət ərzində yüksək səviyyədə əlaqələrin və qarşılıqlı siyasi etimadın güclənməsi müşahidə olunmuşdur. Hər iki tərəf həmişə siyasi etimadın daha da dərinləşməsində, müxtəlif sahələrdə əməkdaşlığın və ənənəvi dostluq əlaqələrinin daha da möhkəmlənməsində maraqlı olduqlarını təsdiq etmişlər.

İki ölkə arasında əlaqələrin inkişafında ulu öndər Heydər Əliyevin 1994-cü ildə Çinə səfəri böyük rol oynamışdır. Həmin səfər gedişində ikitərəfli əməkdaşlığın hüquqi bazası yaradılmışdı. Azərbaycan prezidenti




*Səfirliyin Şuşa mədəniyyət mərkəzində*

İlham Əliyevin 2005-ci və 2008-ci illərdə Çinə səfərləri də əlaqələrin inkişafına böyük töhfə və təkan vermişdir.

Sevindirici haldır ki, Azərbaycan ilə Çin beynəlxalq müstəvidə də bir-birini dəstəkləyirlər. Təsadüfi deyil ki, Çin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini, Azərbaycan tərəfi isə " Vahid Çin" siyasətini dəstəkləyir.

Hazırda Azərbaycanın dövrün bütün tələblərinə cavab verən, bölgədə lider olan, iqtisadiyyatı sürətlə inkişaf edən, beynəlxalq aləmdə nüfuzu xeyli artan bir ölkəyə çevrilməsi Çin kimi qüdrətli bir dövləti maraqlandırmaya bilməz. Azərbaycan tərəfi həmişə yüksək səviyyədə vurğulayıb ki, onun üçün dünyada yalnız bir Çin var, Çin Xalq Respublikasının hökuməti Çini təmsil edən yeganə qanuni dövlətdir, Tayvan isə Çinin ayrılmaz hissəsidir.

Çin tərəfi də həmişə ikitərəfli münasibətlərin inkişafını yüksək səviyyədə qiymətləndirmişdir. Çin son 20 il ərzində demək olar ki, bütün qarşılıqlı görüşlərdə, bu məsələ ilə əlaqədar verdiyi bəyanatlarda Azərbaycanı özünün həqiqi dostu və etibarlı tərəfdaşı hesab etmişdir. Təsadüfi deyil




*Quancou şəhərində keçirilən beynəlxalq sərgidə*

ki, Dağlıq Qarabağ münaqişəsinə dair Çinin mövqeyi aydın və dəyişməz olaraq qalır. Belə ki, Pekin Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünü tanıdığını və dəstəklədiyini həmişə təsdiq etmişdi. Rəsmi Pekin münaqişənin sülh yolu ilə həllininin tərəfdarıdır.

Azərbaycan-Çin münasibətləri bütün sahələrdə, o cümlədən iki ölkənin parlamentləri arasında əlaqələr baxımından da yüksək səviyyədə inkişaf edir. Azərbaycan Milli Məclisində Azərbaycan-Çin parlamentlərarası dostluq qrupu yaradılmış, bu qrupda Çinin əsl dostları toplaşmışdır. Eyni zamanda Ümumçın Xalq Nümayəndələri Məclisində də müvafiq qrup yaradılmışdır. Halbuki, Çin parlamentində heç də bütün dövlətlər üzrə bu cür qruplar yaradılmamışdır. Hər iki ölkənin parlament üzvləri bir neçə dəfə qarşılıqlı səfərlər etmişlər. Bu səfərlər zamanı həm fikir və təcrübə mübadiləsi aparılmış, həm də ikitərəfli münasibətlərin və dostluğun daha da inkişaf etdirilməsi üçün yaxşı təməl qoyulmuşdur. Bütün bunlar həm Azərbaycan və Çin parlamentləri arasında qarşılıqlı münasibətlərə, həm də iki ölkə və onların xalqları arasında dostluq münasibətlərinin inkişafına müsbət təsir göstərmişdir.

Azərbaycan-Çin münasibətləri iqtisadi sahədə də durmadan yüksələn xətlə inkişaf edir və genişlənir. Çinin iri şirkətləri Azərbaycandakı əlverişli sərmayə mühitindən fayda götürür.

Uzaq Şərqin qabaqcıl dövləti olan Çin ilə qarşılıqlı faydalı əməkdaşlığın inkişafının zəruriliyi Azərbaycanı "İpək yolu" layihəsinin gerçəkləşdirilməsində daha iradəli olmağa sövq etmişdir. Çinin artan beynəlxalq nüfuzu və Avrasiyada onun mövqelərinin mökəmlənməsi Azərbaycan-Çin münasibətlərinin intensivləşməsinə təkan vermişdir. İqtisadi əməkdaşlıq üzrə xüsusi hökumətlərarası komissiya indiyə qədər üç iclas keçirmişdir. Bu komissiyanın fəaliyyəti iki ölkə arasında ticarət-iqtisadi münasibətlərdə mühüm rol oynayır. Bu göstərici həm hər iki ölkədə iqtisadi tərəqqinin getdiyini, həm də bu sahədə əməkdaşlığın genişlənməsi üçün yaxşı imkanlar olduğunu sübut edir. Əlavə etmək yerinə düşərdi ki, bu yaxınlarda Çinin Sintszyan-Uyğur Muxtar Rayonu ilə Azərbaycan arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə işçi qrup yaradılmışdır. Bu fakt ölkəmizin iqtisadi əməkdaşlığı daha da inkişaf etdirmək əzmində olmasını bir daha təsdiq edir.



*Quancou şəhərində*

Həmçinin belə bir faktı da qeyd etmək yerinə düşərdi ki, Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi ilə Çinin Kommersiya Nazirliyi arasında əməkdaşlıq barəsində memorandum imzalanmışdır. Bundan əlavə, Azərbaycan İqtisadi İnkişaf Nazirliyi və Sintzyan-Uyğur Muxtar Rayonu arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə işçi qrupunun yaradılması haqqında protokol imzalanmışdır. Bütün bunların məntiqi nəticəsi olaraq Pekində Çin Azərbaycan biznes forumu keçirilmişdir. Biznes-forumda bank, sığorta, tikinti, şərabçılıq, arıçılıq və digər sahələrdə fəaliyyət göstərən 100-dən çox iş adamı iştirak edib.

Son illər iki ölkə arasında mal dövriyyəsi xeyli artıb. Bu artım üçün hər iki ölkədə yaxşı potensial mövcuddur. Son illərədək Çin kapitalı ilə 40 şirkət qeydiyyata alınıb. 1995-2011-ci illərdə Çin şirkətləri Azərbaycanın qeyri-neft sektoruna 102,5 milyon dollar, neft-qaz sektoruna 598 milyon dollar məbləğində investisiya qoyub.

Artıq Azərbaycanda dövlət sifarişi ilə Çin şirkətlərinin iştirakı ilə reallaşdırılan layihələrin dəyəri 417 milyon avro təşkil edir.

Çində isə Azərbaycan kapitalı ilə 16 şirkət qeydiyyatdadır. Onların ölkə iqtisadiyyatına investisiyaları təxminən 5 milyon dollar təşkil edir. Bütün bunlar onu göstərir ki, hər iki ölkə iqtisadi tərəqqi yolu ilə inamla irəliləyir.

Azərbaycan ilə Çin arasında mədəni əlaqələrin tarixi qədimlərə gedib çıxır. Ölkələrimiz arasında məsafənin uzaqlığına baxmayaraq, iki ölkə arasındakı mədəni əlaqələr təşəkkülü eradan əvvələ gedib çıxır. E.ə. II əsrin əvvəllərindən başlayaraq Azərbaycan Şərqi Asiya ölkələrinin Qərb ilə beynəlxalq tranzit ticarəti yolunda yerləşdiyinə görə onun bu ölkələrlə ticarət, iqtisadi sahələrdə olduğu kimi, mədəni sahədə də əlaqələr yaratmasına geniş imkanlar açılmışdır.

Çin malları - ilk növbədə ipək və ipək parçalar, ədviyyat, ətirli məmulatlar, fil sümüyü, çini mallar və qiymətli daş-qaş karvan yolu ilə Orta Asiya və Xəzər dənizindən keçib, Kür və Rioni vasitəsilə Qara dəniz sahillərinə çatdırılırdı. Çinin ipək parçaları XII-XIII əsrin əvvəllərində geniş vüsət tapmışdı.

Azərbaycanın idxal etdiyi mallar içərisində çini qablar xüsusi yer tuturdu. Qiymətli Çin qablarına Azərbaycanda həmişə çox böyük tələbat olmuşdur. Belə ki, bunlardan feodal əyanları istifadə edirdilər. XIII əsrdən başlayaraq bütün Şərqdə olduğu kimi, Azərbaycanda da nəbati ornamentlərlə bəzədilmiş gözəl fayans qablar geniş vüsət aldı. Burada tətbiq edilən



*Böyük Çin Səddində*

rəsmlər Çin keramika sənətinə məxsus ornamentlərin təsiri ilə yaranmışdı. Azərbaycan dilində bu qabların adını "çini" adlandırılması faktı isə bu ölkənin adı ilə bağlıdır.

Orta əsrlərdə Azərbaycanın Çinlə mədəni əlaqələrinin inkişafına təsir edən mühüm tarixi hadisə, Azərbaycanın bir müddət Hülakülər dövlətinin hakimiyyəti altında olması faktıdır. Çünki bu dövlət Çin ilə digər sahələrdə olduğu kimi mədəni sahədə də intensiv əlaqə saxlayırdı.

XIII əsrdə Hülakü ordusu ilə birlikdə hərbi mütəxəssislər – körpüsalanlar, həmçinin möhkəmləndirici qurğular, istehkamlar salan, hədəfi nişan alan hərbi sursatın hazırlanması üzrə mütəxəssislər də gəlmişdi.

Orta əsrlərdə Çində alim, həkim, mühəndis, incəsənət sahələri üzrə tanınmış hörmətli sənətkarlar yaşayıb-yaradırdı. Bu sənətkarlarla Azərbaycan arasında da əlaqə mövcud idi. Məsələn, görkəmli astronom Nəsrəddin Tusinin rəhbərlik etdiyi Marağa rəsədxanasında Çindən dəvət olunmuş alimlər də çalışırdılar.

Bu dövrdə Azərbaycana eyni zamanda öz işini gözəl bilən həkimlər də dəvət olunurdular. Belə ki, Təbrizdə Çindən gəlmiş 50 təcrübəli həkim

çalışırdı. Onların da hər birinin 5-10 qabiliyyətli şagirdi vardı.

Çin ilə mədəni əlaqələrin intensiv inkişaf dövrü XIII-XV əsrlərə təsadüf edir. Görkəmli Azərbaycan alimi Bakuvi məlumat verirdi ki, Çində yeraltı və yerüstü sərvətlər tükənməz olmuşdur.

Azərbaycanın görkəmli şairi Nizami Gəncəvinin "Yeddi gözəl" poemasındakı çin mövzusuna müraciətin özü Azərbaycan-Çin mədəni əlaqələri kontekstindən diqqəti cəlb edir. Əsərdə çin gözəlinin füsunkar obrazı, ona məxsus əql və zəkanı təsvir edən şair çin mədəniyyətinə ehtiramını da ifadə etmişdir.

Xatırladaq ki, SSRİ dövründə Azərbaycan da Moskvanın müəyyən etdiyi çərçivədə Çin ilə mədəni əlaqələrin saxlayırdı. Hələ 1920-ci ildə Bakıda keçirilən Şərq xalqlarının I qurultayında Çindən də nümayəndələrin iştirakı yeni tarixi şəraitdə iki ölkə - Azərbaycan və Çin arasında mədəni əlaqələrin qurulması işində mühüm əhəmiyyət kəsb edir.

XX əsrdə Azərbaycanın bir sıra şair və yazıçıları – Rəsul Rza, Süleyman Rüstəm, Hüseyn Hüseynzadənin yaradıcılığındakı şeirlər çin mövzusunda fikir və mülahizələrlə zəngindir.

Azərbaycanla Çin arasında mədəni əlaqələrin əməkdaşlıq səviyyəsində inkişaf etdirilməsi üçün rəngarəng forma və metodlardan istifadə olunmuşdur. Mədəniyyətlərin qarşılıqlı tanışlığı məqsədilə müştərək səfərlər, yaradıcılıq ezamiyyətləri keçirilirdi. Çin yazıçıları və incəsənət xadimləri Azərbaycanda yaradıcılıq ezamiyyətlərində olmuşdular. Bu cür görüşlər get-gedə ənənəvi səviyyə kəsb edərək sistemli və ardıcıl şəkildə davam etdirilirdi.

Ümumiyyətlə, Azərbaycanın Çin ilə həyatın müxtəlif sahələrində faydalı əməkdaşlığı qarşılıqlı maraqların təmin olunmasına və hər iki ölkənin tərəqqisinə xidmət edir.

# Dünyanı Azərbaycana tanıtdıran insan



*Qəribov Azər Şaiq oğlu 22 may 1961-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1978-ci ildə orta məktəbi, 1983-cü ildə isə fərqlənmə diplomu ilə Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmişdir.*

*1983-1986-cı illərdə Dövlət Neft Şirkətinin Xarici Əlaqələr Şöbəsində çalışmış, 1986-1988-ci illərdə sovet ordusunda xidmət etmiş, 1988-1990-cı illərdə isə Daxili İşlər Nazirliyində işini davam etdirmiş, eyni zamanda hərbi-vətənpərvərlik televiziya verilişinə aparıcılıq etmişdir.*

*1990-cı ildə Bakıda sovet ordusunun işğalına qarşı etiraz olaraq Kommunist partiyasının sıralarını tərk etmiş və bu səbəbdən də işdən çıxarılmasına görə təzminat almadan Daxili İşlər Nazirliyində tutduğu vəzifədən azad edilmişdir.*

*1990-cı ildən şəxsi biznesində bir sıra kommersiya strukturlarına rəhbərlik etmişdir.*

*2003-cü ildə səyahətlər haqqında olan "Oralar" televiziya verilişinin yaradıcısı, müəllifi və aparıcısı olmuşdur. 75 ölkədə olmuş, "Oralar" verilişinin 500-ə yaxın buraxılışını hazırlamışdır.*

*2008-ci ildə www.oralar.az turizm-informasiya portalını təsis etmişdir.*

*2010-cu ildə məşhur şəxslərlə müsahibə formatında "Azər Qəriblə 5 o'clock" televiziya-internet verilişinin yaradıcısı olmuşdur.*

*2011-ci ildə qardaşı ilə birgə AzRu Tv televiziya-internet kanalını təsis etmiş və oranın baş redaktoru olmuşdur.*

*Azərbaycan jurnalistlər birliyinin, Beynəlxalq jurnalistlər birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatı və H.Zərdabi (Azərbaycan jurnalistikasının banisi) adına peşəkar jurnalist mükafatçısıdır.*

*Azərbaycanın baş səyyahı qeyri-rəsmi titulunun sahibidir*

## Çin haqqında qısa hekayə

Mənim Çinlə ilk tanışlığım bir neçə il əvvəl Çin Xalq Respublikasının Azərbaycandakı səfirindən müsahibə alarkən olmuşdur. O, məni öz iş otağında qəbul etdi və biz uzun müddət söhbət etdik. Daha doğrusu, mən suallar verir, cənab səfir isə təfsilatı ilə, ətraflı cavablandırırdı və mən özüm üçün bu diplomatın ölkəsinə olan əsl məhəbbətini vurğulayan qeydlər aparırdım.

Çox güman ki, Çinə səfərim zamanı məhz bu – onun doğma torpağına, mədəniyyətinə son dərəcə isti münasibəti xalq haqqında ilk təəssüratım oldu.

Bu ölkəyə səfərim ilk dəfə 2008-ci ildə Çin öz qədim torpağında yay olimpiya oyunlarını keçirən zaman olmuşdur.

Ümumiyyətlə, peşəkar səyahətçi kimi mən həmişə ilk növbədə getdiyim ölkənin milli xüsusiyyətlərinə, daha sonra isə diqqətəlayiq yerlerinə fikir verirəm.

Elə Pekinin hava limanı da məni qüsursuz memarlıq kamilliyi ilə deyil, işçi personalının öz vəzifələrinə münasibətləri ilə daha çox heyran etdi.

Bu yalnız bütün xidmətin işinin dəqiq təşkilatçılığı və gözəçarpacaq dərəcədə ciddi nizam-intizamı deyil, Çinə çoxsaylı qonaqların qəbuluna cəlb edilmiş insanların səmimiliyi və qonaqpərvərliyidir.

Hətta strateji obyektlərin mühafizəsinə cəlb edilmiş əsgərlərin xarici görkəmlərindəki sərtliyə ramən, gülər gözlərində olimpiya oyunlarının keçirilməsinə nail olmuş ölkəsi üçün fəxr duyğusu oxunurdu.

Hər bir şey həqiqətən də çox müasir və yüksək səviyyədə təşkil edilmişdi.

Terminal kompleksinin binasına daxil olan hər bir kəsin baqajı yoxlanılırdı. Amma bu yoxlama digər şəhərlərdə adət etdiyimiz kimi aparılmırdı – xidmətçilər kiçik parça ilə çamadanların kənarını azacıq sürtür, sonra isə həmin parçanı xüsusi qurğuya yaxınlaşdırırdılar. Əgər yaşıl işıq yanırdısa, deməк hər şey qaydasındadır, içərisində nə partlayıcı, nə də ki, qadağan edilmiş heç nə yoxdur.

Polislər isə baş geyimlərinə quraşdırılmış videokameralarla təchiz edilmişdilər. Onların hər bir addımı, hər bir vətəndaşla ünsiyyəti on-layn rejimdə qeydə alınır və mərkəzi məntəqəyə ötürülürdü. Bu da onsuz da öz işində son dərəcə nəzakətli olan polislərin öz vəzifə borclarını yerinə yetirməsində daha da nəzakətli olmağa məcbur edirdi.

Yeri gəlmişkən, həmin günlər görülən təhlükəsizlik tədbirləri, həqiqətən də misilsiz idi. Bütün avtobus dayanacaqlarında, bütün yol qovşaqlarında, hər taksi dayanacağında yalnız polis deyil, artıq xatırlatdığım Çin ordusnun əsgərləri növbədə dururdular. Başqalarında necə olduğunu bilmirəm, bu məndə yalnız şəxsi mühafizə edilmək hissi doğururdu.

Məqamı gəlmişkən, taksilər haqqında da danışım. Pekin taksi sürücüləri ilə ünsiyyətdə olarkən çox məzəli anlar yaşamışam. Hava limanında taksiyə əyləşərək, sürücüyə otelin ünvanı yazılmış kağızı göstərdim və onun baş hərəkəti ilə razılığını aldım, mən onun otelin adını düzgün oxuduğundan, oranı tanıdığından və harada yerləşdiyini dəqiq bildiyindən əmin olduqdan sonra, oturacaqda yerimi rahatlayaraq yol boyu şəhəri seyr etməyə hazırlaşırdım.

Belə ki, sən demə, sürücü səmimiyyət xatirinə məni üzmək istəmədiyindən otelin yerləşdiyi yerin ona o qədər də tanış olmadığını söyləməyib. Üstəlik, onun ingilis dilini bilmək səviyyəsi hər bir suala baş hərəkəti ilə cavab verməsi ilə məhdudlaşır və  bütün fikirlərimi razılıqla qəbul etməyi gərgin anlar keçirtməyimə səbəb olurdu.

Əvvəlcə əsəbləşsəm də, sonradan bunun oteli tapmaq prosesini sürətləndirməyəcəyini anlayaraq, sakitləşdim və mən sürücü ilə hərəmiz öz aləmimizdə gülməyə başladıq. Mən onun mənim hər sözümə güldüyünə, o isə necə şən sərnişinin rastına çıxdığına gülürdü. Biz beləcə gedir, ünvana çatana qədər vaxtaşırı otelin adı yazıldığı kağızı yoldan keçənlərə göstərmək üçün dayanır, həyatdan zövq alır və gülürdük.

Bu hadisə mənim üçün artıq bir nümunə oldu. Çinlilər təbiətlərinə görə çox səmimidirlər. Çox böyük iş qabilliyyətlərinə, intizama tabeçiliklərinə

baxmayaraq, bütün Asiyada olmadığı kimi, onlarda da təcavüzkarlıq, əsəbilik yoxdur və onlar son dərəcə səbirlidirlər. Yuxarıda xatırlatdığım kimi, onlarda həddən artıq səmimilik və ölkəsinə sevgi vardır. Bəlkə, məhz ona görə də, onlar ilk baxışdan zidd görünən kommunist ideologiyası və iqtisadiyyatda kapitalist yanaşma tərzini uyğunlaşdıra bilmişlər.

Əgər Mao Ce Dun Çində ideologiyanın atası sayılırsa, onda Din Syaopin Çinin indiki sürətli inkişafının Allahı və yaradıcısı hesab edilir.

Dünyada ən zəngin korporasiyaları, ən varlı biznesmenləri, ən böyük bankları, lakin ciddi partiya nəzarəti olan bir ölkə. Sən velorikşa və ya milyarder olmağından aslı olmayaraq, partiya tərəfindən müəyyən edilmiş qaydalara riayət etməlisən.

Mən bu barədə belə düşünürdüm. Adama ilk baxışdan elə görünə bilər ki, hər bir imkanı olan insana ölkəsindən uzaqlaşmaq, məsələn, okeanda özünə ada almaq və orada, ölkədən, partiyadan və onun qaydalarından uzaqda firavan yaşamağa nə mane ola bilər? Sanki heç bir şey. Amma bu çinliyə aid ola bilməz. Bəs millət nə deyər? Mümkündürmü?

Elə buna görə də, ölkəni tərk etsə də, o öz ölkəsinin həyatı ilə yaşayacaq, yaxınlarına köməklik göstərəcək və yalnız özünü deyil, ölkəsini də zəngin etmək üçün yatırımlar edəcəkdir.

Mənə belə gəlir ki, bütün bunlar ümumi çin konsepsiyasından qaynaqlanır. Əgər Mao və Din – müasir Çinin yaradıcılarıdılarsa, onda Konfutsi çin fəlsəfəsinin banisi hesab edilir.

Qədim yunan fəlsəfi fikri Avropada daimi və əbədi iz qoyduğu kimi, konfutsiçilik də Asiyanın bütün həyat tərzinə öz damğasını vurmuşdur. Koreya, Tayland, Malaziya, Yaponiya – bütün bu ölkələrdə dünyanın, həyatın dərk edilməsində, qavranılmasında oxşarlıqlar vardır. Və bu fəlsəfəyə əsaslanan iki sütun vardır – insan insanı sevməlidir və o, böyüyə hörmət etməyə borcludur.

Çində olarkən böyüklərin uşaqlara olan münasibətini müşahidə etmək maraqlı idi. Onları əzizləyir, dəcəllik etmələrinə icazə verirlər,amma o da müəyyən bir həddə qədər, böyüklər qaşlarını çatan kimi uşaqlar tezliklə özlərini yığışdırırlar. Bunu mən yalnız Çində deyil, bütün Asiya ölkələrində müşahidə etmişəm, amma məhz Çində bu xüsusilə qabarıq özünü büruzə verir. Axı qanunvericilik ailədə uşaqların sayını yalnız Çində məhdudlaşdırır. Onların ailədə bir uşaqdan artıq övladı və birdən artıq nəvəsi olmayacaq. Ona görə də tərbiyə sistemində hər hansı bir




*Pekin Yay Olimpiadasında*

kompromisə yol verilmir. Əgər uşağı tərbiyəsinə görə əldən vermisənsə, artıq sənin başqa uşağın olmayacaq.

Uşaq ağlağan və ya gülərüz, şən və ya qaşqabaqlı, hərəkətli və ya sakit ola bilər. Amma heç bir halda o, ərköyün olmamalıdır. Və o, həm də böyüklərə hörmət etməli, öz ölkəsini sevməlidir – bütün bunlar uşağın həyatının ilk dəqiqələrindən onun beyninə həkk edilir.

Nəinki tərbiyə və təhsil, bütün sistem məhz bu postulat əsasında qurulub – sən öz tarixini bilməli, öz ölkənlə qürur duymalısan. Mənə belə gəlir ki, Çində öz köklərinə hörmət – dövlətin gənclər siyasətinə yanaşmasının əsasını təşkil edir. Uşaq bağçaları, məktəblər, kolleclər, universitetlər, təhsil alan sinif və qruplar ciddi sürətdə müəyyən edilmiş günlərdə və mütəşəkkil şəkildə muzey, teatr, məbəd, rəsədxana, heyvanxanalara gedirlər. Şagirdlərin və tələbələrin üzlərindən göründüyü kimi onlar belə yerlərə məmnuniyyətlə getmək istəyirlər.

Buna görə də çinlilərdə öz ölkəsinə, öz xalqına qarşı fəxr hissi daha çox büruzə verilir. Hətta çinlilərlə söhbətim zamanı onlarda hər şeyin özlərinin yaratdıqları, hər bir şeyin başlanğıcının onlardan götürüldüyü fikri, aşkar

olmasa da Avropadan üstün olmaları fikrində olduqları hiss olunur.

Çinlilərin Avropalılar üçün bənzər olduqları haqqında məşhur bir zarafat da vardır. Çində isə tam əksinədir. Şanxayda bir yeniyetmə mənə yaxınlaşıb şəkil çəkdirmək istədiyini xahiş edəndə, mən onun bu marağına təəccübləndim, çünki mən Çində hələ yetərincə tanınmırdım. Sonra mənə izah etdilər ki, bu uşaq Şanxay muzeylərinə siniflərinin tərkibində əyalətdən gəlib, harada ki, mən görkəmdə insan heç vaxt görünməyib və biz də onlar üçün hamımız bənzər simalıyıq. Bax onlar dünya müxtəlifliklərini belə dərk edirlər.

Açığın deyim ki, müasir Pekin məndə xüsusi bir təəssürat yaratmadı. Daha doğrusu məni heç nə ilə təəccübləndirmədi. Hər şey hər yerdə olduğu kimi idi – geniş prospektlər, şüşə göydələnlər, ticarət mərkəzləri. Gözlədiklərimə əks olaraq, daha doğrusu, yaranmış stereotiplərə əks olaraq, bunlar məni yaxşı mənada təəccübləndirirdi. Düzünü desəm, mən burda velosipedçilərin axınını, avtomobillərin daha az olmasını gözləyirdim, amma məlum oldu ki, Çin artıq nə vaxtsa şəkillərdə gördüyümüz ölkə deyildir. Çin indi dinamik hərəkətli, çoxlu avtomobilləri, müasir avtobusları və futurizm üslubunda nəqliyyatları olan meqopolisdir.

Amma şəhərin qədim hissəsi mənim daha çox xoşuma gəlirdi. Məhz orada Çinin qədim paytaxtının ruhu və mahiyyətini hiss etmək mümkündür. Orada avtomobillərə giriş qadağandır, amma alternativ olaraq, velorikşaların xidməti təklif edilir. Burada xidmət iki cürdür – mənə izah edildiyi kimi, biri fərdi sahibkarlardır ki, onlarla sövdələşmək də mümkündür. Amma xidmətin keyfiyyətinə heç kəs cavabdeh deyildir.

Həmçinin rəsmi şirkətlərin xidmətlərindən də istifadə etmək olar. Briqadirə yaxınlaşırsan, o, velorikşanı təyin edir, siz təyin edilmiş məbləği ödəyir və bu yerlərin bilicisinin ixtiyarında olursunuz. Velorikşa burada təkcə nəqliyyat sürücüsü deyil, o, həm sizin bələdçiniz, həm də məsləhətçinizdir, və hətta mağazalarda da o sizin xeyrinizə ticarət edəcəkdir.

Əgər Çinin müasir hissəsi insanı heç bir şeylə təəccübləndirə bilmirsə, qədim Çin dərhal özünəməxsusluğu, orijinallığı ilə adamı heyran edir. Artıq bizə tanış olan paqoda tipli dam örtükləri, saysız-hesabsız kiçik mağaza və restoranlar, və ətrafa maraqla baxan çoxlu sayda turistlər.

Hətta veloaraba ilə keçilməsi mümkün olmayan yerlərdə, rikşa təyin edilmiş yerdə gözləyərək, piyada getməyi təklif edir. Və siz Çinin qədim




*Pekin Yay Olimpiya Oyunları zamanı çinli könullülərlə*

nəfəsini canınıza çəkərək dolanırsınız, restoranların vitrinlərindən isə asılmış məşhur Pekin ördəyinin cəmdəyi görünür. Burada ördək yeməmək – özünü onun tarixi vətənində dadmaq ləzzətindən məhrum etmək deməkdir. İnandırım sizi ki, xaricdə heç bir Çin restoranında siz belə bir dadla qarşılaşa bilməyəcəksiniz! Restoranlarda çörək axtarmaq lazım deyil, çünki burada çörək olmur. Çinlilər üçün çörəyi düyü əvəz edir və yəqin ona görə də tosqun çinli kişi və ya qadın görmək , demək olar ki, qeyri-mümkündür.

Yeri gəlmişkən, ördək Pekindən sonra, hətta Şanxayda da artıq həminki deyildi. O da dadlı idi, amma şanxaysayağı idi. Bu da bir daha təsdiq edir ki, dadı tamlıqla duymaq üçün qurmanlar hər şeyi oz vətənində dadmalıdırlar.

Buna baxmayaraq, Şanxay bütünlükdə yeməklərin incəliyini yaxşı bilmək coşqusu ilə bunu kompensasiya edirdi.

Əgər çox müasir Pekin mənim o qədər də ürəyimcə olmasa da, Şanxay isə ümid etdiyimdən də artıq oldu. Şanxay məhz mənim təsəvvür etdiyim kimi – dinamik, canlı, çox təzadlı idi. Dünən və bu gün yayın isti nəfəsində qovuşurdu.

Şanxay gecələri xüsusilə məndə çox böyük təəssürat yaratmışdı. Xuan çayına ekskursiya sifariş verməkdə mən heç də yanılmamışdım. Əgər Sena, Temza və başqa Avropa çayları boyunca gəzintiyə çıxarkən tarixi şəhərlərin, qədim binaların görünüşündən zövq alırsansa, Şanxaydan o qədər də qədim olmayan Xuan çayı boyunca kiçik gəzinti qayığında sakit üzmək tamam başqa bir zövq verir – qeyri-adi işıqlar altında parlaq, orijinal göydələnləri seyr edirsən. Və dərhal O.Henrinin sözlərini xatırlayıram - "Nyu-Yorkun işıqları cəlbedici qonaqpərvərliklə bərq vururdu".

Gecə həyatının coşqusu  - Şanxay haqqında yaddaşımda həkk olan təəssüratlardandır.

Şəhərin əsas piyada hərəkət edən küçələrində həyat elə qaynayır ki, qeyri-ixtiyari olaraq, şəhərin bu döyünən ritminə daxil olursan. Ayıq və sərxoşlar, günahkar və dindarlar, cibgirlər, ticarətçilər, mağaza və restoran dəvətliləri, təhsil alanlar və işləyənlər, yerlilər və turistlər – elə təəssürat yaranır ki, Şanxayın çoxmilyonlu əhalisi bu gecə coşqusuna qoşulmaq üçün Nankin küçələrinə axışıb.

Və tarix əmin etdiyi kimi, bu hər zaman belə olur. Şanxay dəniz yollarına yaxın olduğundan, Avropanı pambıq, çay, farfor və başqa məşhur çin malları ilə təchiz edən əsas ölkələrdən biri olmuşdur.

Həm də bu satışı qızılla edirdi. Və İngiltərə qəflətən oyandı ki, artıq onun qızıl ehtiyatları tükənir, əvəzində isə ölkəyə xatırladılan çin brendləri gətirilir.

Və İngiltərə sivil münasibətlər baxımından özünəməxsus hərəkət etdi – Şanxaya keçmiş koloniyası olan Hindistandan narkotik gətizdirdi. Qeyri-rəsmi dillə desək şəhəri "iynəyə otuzdurdu". Və bundan sonra bütün qızıl İngiltərəyə qayıtmağa başladı. Hətta sağlam həyat tərzi uğrunda öz hüquqlarına görə Şanxayın apardığı mübarizə də bir nəticə vermədi. Məğlubiyyətə düçar olmuş şəhər narkotik alverinə görə nəhəng dünya mərkəzlərindən birinə çevrildi. Bu ticarətdə ABŞ və Fransa da öz payını almış oldu.

Bu gün Çində narkotikin yayılmasına və istifadəsinə görə ölüm cəzası gözlənilir – hələ əhalinin narkotik təsirindən əzab çəkdiyi vaxtlar yaddaşlarda çox təzədir.

Çinlilər həm də çox dindardırlar. Amma, açığın desəm, mən burada vahid dinin olduğunu müşahidə etmədim. Konfutsiçilik, daozim, buddizm, islam – hər bir dinin də öz davamçıları və ibadət məbədləri vardır.

Lakin mənə elə gəlir ki, bütün çinliləri birləşdirən ümumxalq ideyası haqda danışmaq olar. Daha doğrusu, bu heç ideya da deyil, bu xalqı möhkəmləndirən hər hansı bir mənəvi əsasdır.

Hər bir çinli inanır ki, həyatda əsas olan öz ölkənin və ailənin xeyri üçün səylə çalışmaqdır. Təkrar olsa da, qeyd edim ki, bu, ruhların köçürülməsinə inanan çinliləri xarakterizə edən bir amildir.

Sən bu həyata ya heyvan, ya bitki, ya da insan kimi gələ bilərsən. Və əgər dünyaya insan kimi gəlmisənsə, sən cəmiyyətə, onun qaydalarına və qanunlarına bağlı insan kimi də qalmalısan. Və əgər sən insan kimi qalsan, sənin növbəti həyatında dünyaya yenə insan kimi gəlmək şansın var. Bu da belə bir fəlsəfədir.

Şanxay buddist məbədlərinin birinə mən də baş çəkdim. Bir yerə cəmlənmiş baxışlar, müqəddəslərə ehtiram, yandırılan şamlar və edilən səcdələr. Hər şey çox ritual, təmtəraqlı və gözəldir. Düzdür, orada olarkən mənə danışdılar ki, son illər Çində xristianlq yayılmışdır, amma şəxsi müşahidələrimə əsaslanaraq, mən deməzdim ki, bu yayılma xaricilər üçün gözəçarpacaq dərəcədədir.

Dövlət isə bu yayılmaya heç cür mane olmur, amma Çin, dərk etdiyim qədərincə, fikirləşmirəm ki, xristianlaşma qorxusu qarşısındadır. Doğrusu, hər bir çinlidə öz adətlərinə sədaqət meyli vardır ki, lakin bu da qloballaşma təsirini istisna etmir.

Və sonda əgər çin qızları haqqında bir neçə cümlə deməsəm, mənim Çin haqqında kiçik hekayəm dolğun və tam alınmaz.

Biz Çin haqqında öz təsəvvürümüzdən bilirik ki, çin qızları alçaq boylu olur, yəqin ki, akselerasiya öz işini görmüşdür, cavan çinli qızlar içərisində mən kifayət qədər hündürboylu qızlar da görmüşəm.

Həm hündür, həm də o qədər ucaboy olmayan qızları qısa şortlara olan meyl birləşdirirdi, mənə belə gəlirdi ki, düz ayaqları çılpaq qoyan bu geyim müasir milli qadın geyimidir. Qadınları çox xoş görünüşlüdür, az makiyajdan yalnız badam gözlərini vurğulamaq üçün istifadə edirlər.

İpək kimi, və hətta ilk baxışdan qüsursuz ağ dəri. Mənim bu ölkə haqqında təəssüratım qədər ağ, heç bir qara ləkəsi olmayan ağ.

Çin, mən mütləq sənə dönəcəyəm, mütləq qayıdacağam, söz verirəm...

# Peşəsini sevən insan



*Azad İsmayıl oğlu Nağıyev 1962-ci ilin mart ayının 21-də Bakı şəhərində anadan olmuşdur. O, 1985-ci ildə 2-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmiş, 1991-ci ildə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək, elmlər namizədi alimlik dərəcəsini almışdır.*

*2004-2007-ci illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin göndərişi ilə Rusiya Federasiya Xarici İşlər Nazirliyinin Diplomatiya Akademiyasında oxumuş və həmin Akademiyanı fərqlənmə diplomu ilə bitirmişdir.*

*A.Nağıyev 1994-cü ildən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin əməkdaşıdır. Bu müddət ərzində A.Nağıyev Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin ezamı ilə ATƏT-in Xorvatiya və Kosovodakı (Serbiya) missiyalarında (1998- 2000 illər), Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı (2001-2004 illər) və Hindistandakı (2008-2013 illər) Səfirliyində çalışmışdır. Hal-hazırda XİN-in İnformasiya və İctimai Əlaqələr İdarəsinin şöbə müdiri vəzifəsində çalışır.*

*A.Nağıyevin birinci dərəcəli müşavir rütbəsi var (2008-ci il).*

*Öz vəzifəsini peşəkarlıqla yerinə yetirməsi və uğurlu nəticələrin əldə*

*edilməsinə görə 2009-cu ilin dekabr ayının 28-də A.Nağıyev "Azərbaycan Respublikası Diplomatik Xidmət Orqanlarının 90 illiyi (1919-2009)" yubiley medalı ilə təltif edilmişdir.*

## Çin səddinin "fəthi" və ya səmimi etiraflar

Etiraf edirəm ki, mənə Çində bizim səfirliyimizdə işləmək təklif ediləndə çox çaşqın vəziyyətdə qaldım. Bir çox qısamüddətli və uzunmüddətli xidməti ezamiyyətlərdə Avropa ölkələrində çalışmış bir insan kimi bu təklif mənə çox qəribə və məntiqsiz görünürdü. Mən qətiyyən özümü Çində görə bilmirdim və təsəvvür edə bilmirdim ki, əvvəl əldə etdiyim peşəkar və həyati təcrübəm bu uzaq Asiya ölkəsində nə işə yaraya bilər.

Mən Çin haqqında nə bilirdim? Nədənsə uzaq uşaqlıq illərinin xatirələrindən parlaq gözəl güllü, çayından tıxac qoxusu gələn, qapağında anlamadığım işarələr, möcüzəvi böcək və qurdları xatırladan heroqlifləri olan termos yadıma düşdü. Bir də atamın, mən dünyaya gəlməmişdən çox-çox əvvəl əldə etmiş olduğu və yəqin ki, anamın onu gizlətdiyi yerdən xəbəri olsaydı, hətta, indiyə qədər geyinəcəyi "Dostluq" ticarət nişanından olan əfsanəvi köynəkləri haqqında sözlərini xatırladım. Və deyəsən bu qədər. Həqiqətən elə də dolğun xatirələr deyil. Çin haqqında bilik boşluğunu doldurmaq lazım olduğu aşkar idi və mən tezliklə bütün mövcud ədəbiyyatı öyrənməyə başladım.

Etiraf edirəm ki, Çində iqtisadi islahatların keçirilməsi və ölkənin fantastik artım tempi nümayiş etdirməsi haqqında informasiyanı şübhə ilə qəbul etdim. Belə ki, bütün iqtisadi cəhətdən inkişaf etmiş ölkələr islahatların ilkin mərhələlərində sürətli artım göstərir və sonra isə bu inkişaf surəti tezliklə azalır. Və ümumiyyətlə, böyük rəhbər Mao Ce Dunun zamanından saysız-hesabsız inqilablar və islahatlar təşkil edilirdi ki, bu da Çin xalqı üçün iztirablar və müvəffəqiyyətsizlik ilə nəticələnirdi.

Demək olar ki, edilən təklifdən imtina etmək qənatində idim, amma qəti imtina üçün üzürlü bəhanə fikirləşmək lazım idi. İş orasındadır ki, diplomatik xidmətdə gələcək iş yerinin seçimində belə hal yaxşı qarşılanmır və mənim mühüm bir səbəb olmadan işdən imtina etməyim rəhbərlik tərəfindən anlaşılmazlıqla qarşılana bilərdi. Bir neçə gün əzab çəkərək, heç bir ağlabatan səbəb tapa bilmədim və əgər heç bacara bilməsəm geri qayıdacağımı fikirləşərək, təklifi qəbul etmək qərarına gəldim və həm də



*Çində dostlarımızla birlikdə*

həmkarlarımın sözlərinə görə də onlar artıq oxşar halla qarşılaşmışdılar.

Bütün rəsmi işlər tezliklə qaydaya salındı və 2001-ci ilin avqust ayında mən Pekinə getdim. Pekin məni elə ilk saatlardan kifayət qədər müasir hava limanı, geniş prospektləri, hökumət binalarının möhtəşəm memarlıq üslubu və küçələrində bizdə milli bayramların qeyd olunduğu günlərdə olduğu kimi çoxlu sayda adamların olması ilə yaxşı mənada təəccübləndirdi. Və bir də heç bir ölkədə şahidi olmadığım velosipedçilər üçün nəzərdə tutulmuş geniş yolların olması çox xoş təsir bağışladı. Hansı ki, bu yollarla ucu-bucağı görünməyən ikitəkərli axını hərəkət edirdi.

Gördüklərimdən ilk təəssüratım bu idi ki, burada çox şey mənə tanış gəlirdi və üslubuna görə daha baxımlı və inkişaf etmiş 60-cı illər Moskvasını xatırladırdı. Həm orada və həm də burada çin dilində səslənən və nostalji hisslər oyadan “Katyuşa” və “Moskvaətrafı gecələr” mahnıları, küçələrdə hər tərəfdə qırmızı qalstuklu pionerlər dəstəsinin olması bu təəssüratı daha da gücləndirirdi. Mən burada 20-ci əsrin ortaları nöqteyi-nəzərindən inkişaf etmiş sosializmin paytaxtının necə olmalı lazım olduğunu öz gözlərimlə gördüm. Pəncərənin o tayında isə 21-ci əsr başlayırdı.

Ailəmlə ilk dəfə gəzintiyə çıxdığımız andan böyük maraqla qarşılandıq, dərhal böyük insan kütləsilə əhatə olunmağımız məni çox təəccübləndirdi, onlar bizə maraqla baxır və danışmağa cəhd edirdilər, uşaqlarımın başını sığallayır, onlara şirniyyat verir və mütləq bizimlə şəkil çəkdirmək istəyirdilər. Bizim şəxsiyyətimizə belə marağın olması nadir hal deyildi, bu cür hadisələr həmişə baş verirdi və biz buna demək olar ki, artıq alışmışdıq. Sıravi çinlilərlə bu ilk ünsiyyət onların mehriban, səmimi, ürəyiaçıq olduqlarını, uşaqları çox sevdiklərini və xaricilərin onlar üçün qeyri-adi olduqlarını üzə çıxartdı.

Həm də belə əlaqələr göstərdi ki, bir neçə avropa dillərini bilməyimin burada elə bir əhəmiyyəti yoxdur və çin dilini bilmədən burada yaşamaq mümkün deyildir. Əlacım ancaq bu "müəmmalı, anlaşılmaz" dili öyrənməyə qalırdı. Yaşlı, mehriban bir çin dili müəllimi lütfkarlıqla mənə çin heroqliflərini yazmağı və çin dilində nitqin 5 musiqi intonasiyasının xüsusiyyətlərini öyrətməyə razılaşdı. İlk həftə ərzində 10 heroqlif öyrənmişdim və buna görə də son dərəcə qürur duyurdum, sonra müəllimimdən (shifu) çin əlifbasında 50 mindən artıq heroqlif olduğunu və qəzet oxumaq üçün ən azından 25 min heroqlif bilməyin lazım olduğunu öyrənəndə  tez bir zamanda dili öyrənə biləcəyimə olan güvənim yox dərəcəsinə endi və həvəsim demək olar ki, tamamilə söndü. Amma bu uğursuz təcrübə mənə fərdi şəkildə dili öyrənməkdən daha çox şey öyrədə bildi. Mən anladım ki, vaxtın burada başqa ölçüsü var, o, sonsuz olaraq indiki zamandan keçmişə, eləcə də gələcəyə uzana bilər və xüsusi sürətə, ahəngə malikdir, həyat isə boş-boşuna çalışmanı qəbul etmir və daimi, məqsədyönlü əməyin nəticəsində formalaşır.

Hesab edirəm ki, Çində olub və Böyük Çin səddini görməmək bağışlanılmaz olardı, ən yaxın bazar günündə mən həyat yoldaşımla termos, buterbrodlarımızı hazırlayaraq, 1 yaşlı qızımızı uşaq üçün nəzərdə tutulan kisəli çantaya qoyaraq, digər 6 yaşlı böyük övladımızın əlindən tutub dünya möcüzələrindən sayılan Çin səddini "fəth etməyə" yollandıq. Bura qalxmaq elə də asan olmadı.  Böyük səddin ikinci arakəsməsində mən artıq huşumu itirməyə doğru gedirdim, həm də 2 uşaq, götürdüyümüz azuqə və haldan düşmüş yoldaşımı da mən qaldırmalı idim. Yaşlı çinlilərin bizi ötüb keçərək, yuxarı qalxdıqlarını görəndə biz də qərara aldıq ki, qalxmağa davam edək.

Çin səddinin ən yüksək nöqtəsində mənim oksigen çatışmamazlığın-



*Çin mətbəxini dadarkən*

dan, məqsədimizə çatdığımız üçün duyduğumuz qürur hissindən, gözəlliyə heyranlıqdan və bura açılan mənzərənin əzəmətindən başım gicəllənirdi. Uca dağ silsilələrini və dərələri dolanaraq, üfüqdə get-gedə uzaqlaşıb itərək, yüzlərlə kilometr ərazidə Böyük Çin səddi uzanırdı. Xoşbəxtlikdən mənə çox bir şeylər görmək nəsib olsa da, lakin dünyanın heç bir yerində buna bənzər daha əzəmətli və möhtəşəm heç bir şey görməmişəm. Burada mən sadə bir həqiqəti anladım – belə əzəmətli səddi yalnız əzəmətli bir xalq yarada bilərdi. Mən bu haqda düşünərkən, birdən qədim çinlilərin bu dünya möcüzəsini türk və monqol tayfalarının qəfil hücumlarından qorunmaq üçün tikdiklərini xatırladım və yəqin ki, mən də bu döyüşçülərin nəslindən olduğumdan, yürüşün qarşısını hətta Böyük Çin səddinin almasının mümkün olmadığı fikri məni qürurlandırırdı. Ola bilsin ki, bu qürur şübhəli xarakterli olsun, amma bizim də böyük işlər etməyə qadir olmağımız çox xoş təsir bağışlayırdı.

Belə ki, Xarici İşlər Nazirliyinin məni hər halda Çinə nə dil kursuna, nə də ki, tarixi yerlərdən zövq almaq üçün deyil, iki ölkə arasında münasibətlərin möhkəmləndirilməsi məqsədilə təyin edilmiş məsələləri

yerinə yetirmək üçün göndərdiyini nəzərə alaraq, inadla məni maraqlandıran əsas suala cavab tapmağa çalışırdım – müasir Çin deyəndə nə başa düşülür və bizim ölkələr hansı sahələrdə daha çox əməkdaşlıq edə bilərlər? Diplomatik nümayəndəliyin həmkarları ilə olan çoxsaylı görüşlərdə mənim bu sualıma onlar mənalı-mənalı gülümsəyir və gözlərini axıdırdılar. Əlbətdə ki, bu problemə aydınlıq gətirmirdi.

Amma mən məyus olmurdum. “Sinhua”, ”Jen Minjibao” və s. informasiya agentlikləri mənim işimə çox böyük dayaq oldular, onlar bu tip məlumatları, ölkə üzrə və xarici siyasət üzrə analitik xəbərləri dünyanın əsas dillərində operativ olaraq çatdırırdılar. Çinin iqtisadiyyatı və islahatların keçirilməsi xüsusiyyətləri haqqında bir çox maraqlı məlumatları akademik Z.Səmədzadədən onun ÇXR-ə səfərləri zamanı öyrənmişəm. Əlbəttə ki, ÇXR-in Xarici İşlər Nazirliyinin nümayəndələri, müxtəlif dövlət strukturları, böyük şirkətlər və universitetlərin professor-müəllim heyəti ilə görüşlər mənə bir çox suallara cavab tapmağa kömək oldu. Ölkənin yaxından tanınması üçün mənə indiyədək də dostluq münasibətləri ilə bağlı olduğum Pekin dil və mədəniyyət universitetinin tələbəsi, sonradan diplomat olan, indi isə çox gözəl çinşünas alim Rəşad Kərimovun qiymətsiz köməkliyi və dəstəyi olmuşdur.

Çinin Xarici İşlər Nazirliyinin və böyük şirkətləri tərəfindən təşkil edilən səfərlər zamanı siyasi, mədəni, sənaye mərkəzləri və iqtisadi inkişaf zonaları ilə tanışlıq məni heyran edirdi. Ən çox mən Şanxayda olarkən emosional şok yaşadım. Bu son dərəcə gözəl şəhər öz energetika, üslub və təkrarolunmaz aurası, son dərəcə güclü ahəngi və işgüzar fəallığına görə Nyu-York, Honkonq, Sinqapur və dünyanın digər texniki meqopolislərini xatırladır. Şanxay, Çhonçin, Nannin və Dalien şəhərləri ilə tanışlıq SSRİ-də 60-70-ci illər rifah dövründə olduğu kimi mənim Çin haqqında ilkin fikirlərimi köklü dəyişikliyə uğratdı. Etdiyim səfərlər və ölkə ilə tanışlıq keçirilən islahatların mənasız inqilabi kompaniya deyil, uzunmüddətli və ciddi islahat olduğunu göstərdi. Son on il ərzində Çinin ildən-ilə ciddi və davamlı iqtisadi artım göstərməsi mənim bu hadisənin müvəqqəti olacağına dair ilkin fikirlərimin qalıqlarını alt-üst etdi.

Ölkəyə səfərlərim zamanı mənə çox xoş təsir bağışlayan çinlilərin nəzərə çarpacaq dərəcədə nəzakətli olmaları və qonaqpərvərliklərini xüsusi vurğulamaq istəyirəm. Öz fəaliyyətlərində hər bir xalq üçün məğrurluq və şərəf sayıla biləcək möhtəşəm nəticələr göstərən çinlilər buna baxma-




*Beydayxıya səyahət*

yaraq həmişə nöqsanlarını bilmək istəyər və bizim dost məsləhətlərinə ehtiyac duyduqlarını və s. təkrar edərdilər. Yəqin ki, belə münasibət qonaqlara əhəmiyyətli olduqları hissini bəxş edir və bu da onları həyəcan vəziyyətlərindən çıxardırdı. Qəribədir ki, digər böyük xalqlara və uğur əldə etmiş ölkələrə xas olan özünü "böyük qardaş" mövqeyindən göstərmək kimi hallara böyük və ya kiçik, varlı və ya kasıb ölkəni təmsil etməyindən asılı olmayaraq təkəbbürlü və lovğa münasibətə rast gəlməmişəm. Belə ki, çinlilər öz şəxsi ləyaqətlərini də yüksək tutur, ölkəyə, xalqa qarşı hər hansı hörmətsiz münasibətin qarşısını çox qətiyyətlə və sərt alırdılar.

Mənim üçün çinlilərin əsl xüsusiyyətləri 2003-cü ildə ölkənin kritik durumunda burada baş qaldıran atipik pnevmaniya epidemiyası (SARS) zamanı tam olaraq açıldı. Epidemiya ölkə daxilində sürətlə yayılır, hər gün onlarla insanın həyatına son qoyurdu və o qədər təhlükəli vəziyyət yaranmışdı ki, artıq diplomatik nümayəndəliklərin əməkdaşlarını da kütləvi olaraq köçürülür, məktəb və müəssisələri bağlayırdılar. İzdihamlı küçələr dərhal boşaldılmış və Pekin artıq ölü şəhər təsiri bağışlayırdı. Amma heç bir təlaş müşahidə edilmirdi, həyat üçün lazımi olan bütün

dövlət xidmətləri normal iş rejimində çalışırdılar. Ölkədə təcili olaraq epidemiya ilə mübarizə üçün zəruri tədbirlər görülür, əhali isə hökumətin bütün tövsiyələrini dəqiqliklə yerinə yetirirdi. İşdə belə nizam-intizam və çinlilərin mətanəti heyranlıq və rəğbət hissi oyatmaya bilməzdi. Bu günlərdə mən bu xalqa qarşı xüsusi həmrəylik göstərir, onların ağrı və çətinliklərinə şərik olurdum.

Onlara mənəvi dəstək olmaq, azərbaycanlıların onları atıb heç bir yerə getmədiklərini, onların yanında olduqlarını göstərmək üçün müntəzəm olaraq mən saatlarla səfirlər üçün nəzərdə tutulmuş xüsusi nişanlı maşını artıq boşalmış Pekin küçələrində sürürdüm. Çinlilərin minnətdarlıq dolu baxışları və sevincli salamlamaları, bəlkə də, bu çətin günlərdən qalan ən parlaq xatirələrimdəndir.

Çinlə nə qədər yaxından tanış olduqca, mənim qarşımda bir o qədər də sonsuz biliklər açılırdı ki, bunları da 3 illik xarici ezamiyyət müddətində öyrənməyin mümkünlüyünü təsəvvür etmirdim. Bu ölkəni daha yaxından tanıdıqca, başa düşürdüm ki, mən ölkə haqqında heç nə bilmirəm.

Çin adi ölkə deyil, o, ayrı mədəniyyət, xüsusi dünya, həyat fəlsəfəsidir ki, onu öyrənmək üçün ən azı bütün ömrünü həsr etməlisən. İndi mən də ölkəyə yeni gələn diplomatların Çin haqqında sadə suallarına bura bələd olan insan kimi müəmma ilə gülür və gözlərimi axıdırdım.

Taleyin qisməti və rəhbərliyin qərarı ilə ÇXR-də olduğumdan, məhz burada keçirtdiyim illərə görə bir dəfə də olsun təəssüf hissi keçirtməmişəm. Mən özümü dünyanın inkişaf mərkəzində sayırdım və bu mənə çox xoş təsir bağışlayırdı. Ölkə, xüsusilə onun paytaxtında köhnə məhəllələr-xutonqlar sürətlə yerini çoxmərtəbəli şüşə və beton binalara verir, dar küçələr çoxzolaqlı avtobanlarla və prospektlərlə əvəz olunur, dəmir yollarında isə ilk maqnit yastıqlı qatarlar görünürdü. Çin sürətlə yeni dövrə qədəm qoyurdu və artıq mən 21-ci əsr ölkəsini tərk edirdim. Öz doğma nazirliyimə qayıdarkən, növbəti ezamiyyətimdə hara getmək istərdim sualına - bəlkə Avropaya? - xeyr, cavabını verərdim, ancaq Asiya ölkəsinə, bu dəfə isə Hindistana getmək istəyərdim. Bu isə tamamilə başqa şəhər və tamamilə başqa tarixdir.

# Kitabların dostu



*Salahova Zərifə Teymur qızı 2 fevral 1932-ci ildə anadan olmuşdur. 1948-1952-ci illərdə Sabir adına Pedaqoji Məktəbdə, 1952-1956-cı illərdə isə təhsilini M.F.Axundov adına APİ-də davam etdirmişdir.*

*1956-1958-ci illərdə orta məktəbdə ibtidai sinif pedaqoqu və rus dili və ədəbiyyatı müəllimi kimi çalışmışdır. 1958-1962-ci illərdə "Minqeçaurskiy raboçiy" və "Kommunist Sumqaita" qəzetlərinin ədəbi əməkdaşı, 1968-1970-ci illərdə Azərbaycan Respublikası kommunist partiyasının Sumqayıt şəhər komitəsinin ikinci katibi, 1970-1981-ci illərdə isə həmin partiyanın mərkəzi komitəsinin təşkilat-partiya şöbəsinin partiya informasiyası sektorunun müdiri olmuşdur.*

*1981-1993-cü illər ərzində Könüllü kitabsevərlər cəmiyyətinin idarə heyətinin sədrinin birinci müavini, 1993-cü ildən bu günədək isə Azərbaycan Respublikası "Kitab" cəmiyyətinin idarə heyətinin sədridir. O, həmçinin, 1993-cü ildən Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin üzvüdür.*

*Z.Salahova bir sıra mükafatların sahibidir. Kitab mədəniyyətinin inki-*

*şafına etdiyi töhfəyə görə "Humay-2001" milli mükafatı, "Şöhrət" ordeni ilə təltif edilmişdir.*

*2002-ci ildə dünyada birinci və hələlik ilk olan yegane Miniatür kitab muzeyi açılmışdır. Bu muzeydə Z.Salahovanın 21 il ərzində topladığı 5 mindən çox miniatür kitab olan şəxsi kolleksiyası nümayiş etdirilir.*

*Z.Salahova 2006-cı ildə AMEA-nın Elmi şurasının qərarı ilə professor adına layiq görülmüşdür. Yeni Azərbaycan Partiyasının üzvüdür.*

## Çin haqqında təəssüratlarım

Söhbətə uzaqdan başlayacağam. 1954-cü ildə Pekində Çin Xalq Respublikasının 5-ci ildönümü təntənəli şəkildə qeyd olunurdu. Bu bayrama Mao Tse Dun – Çin Kommunist Partiyasının sədri o zaman artıq vətənlərindən çox-çox uzaqlarda məşhurlaşmış SSRİ-nin iki xalq artistini də dəvət etmişdi: Rəşid Behbudov (Azərbaycan) və Tamara xanım (Özbəkistan). Onlardan birincisi Pekində nümayiş etdirilmiş "Arşın mal alan" filmi, ikincisi isə çıxış elədiyi ölkələrdə yerli dil və milli geyimlərdə mahnı və rəqslərin ifaçısı kimi tanınırdı. Tamara xanımın və Rəşid Behbudovun ÇXR-də qastrolu bir ay davam etdi. Onlar Çinin müxtəlif şəhərlərində rəngarəng proqramlarla çıxış etdilər. Yerli tamaşaçılar onların çıxışlarını böyük sevinc hissilə qarşılayırdılar. Yerli kütləvi informasiya vasitələri onların çıxışlarını geniş reklam etmişdilər.

Xüsusi vurğulamaq istərdim ki, "Arşın mal alan" operettasına sonralar, 1955-ci ildən 1990-cı illərədək Pekin Opera Teatrının səhnəsində quruluş verilmiş və 2010-cu ildə onun nümayişi bərpa olunmuşdur.

Bu qastrollardan iki ay sonra Moskvada Tamara xanımla görüşdüm və ondan qədim Çin torpağı haqqında təəssüratları ilə maraqlandım. Öz təəssüratlarını müfəssəl danışdıqdan sonra o, xüsusi olaraq bunları qeyd etdi: "Bu cür əməksevər, intizamlı xalq dünyanın heç bir yerində yoxdur. 50 ildən sonra Çin bütün dünyanı fəth edəcəkdir". Bu sözləri deyən dünyanı dolaşmış, bir çox ölkələrdə olmuş, bu torpaqlarda məskunlaşmış xalqların adət-ənənələrini, mədəniyyətlərini, uğurlarını öyrənmiş, o cümlədən Çin xalqının qədim ənənələri və qısa müddətdə qazandığı uğurlara obyektiv qiymət verə bilən qüdrətli aktrisa deyirdi.

Çin Xalq Respublikasına mən ilk dəfə 1995-ci ilin iyulunda olmuşam.




*Çinə səfərimdən bir xatirə*

Məni, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin fərmanı ilə yaradılan Milli Qadın Şurasının sədrini, Pekinə IV Dünya Qadın Konqresi ərəfəsində ezam etmişdilər. Bu tədbir qeyri-hökumət qadın təşkilatlarının avqustun 30-dan sentyabrın 8-dək baş tutmalı idi. Səfirliyimizlə tədbirin keçirilmə yeri və bir sıra təşkilati məsələləri dəqiqləşdirməli idim. Nəticədə nəzərdə tutulmuş bütün proqram vaxtında və hərtərəfli yerinə yetirildi. Biz Pekindən olduqca böyük təəssürat və xoş xatirələrlə qayıtdıq.

Mənim Çinə ikinci səfərim 1995-ci il avqustun 29-da baş tutdu. Həmin il sentyabrın 8-dək Pekindən 52 km uzaqda yerləşən Xay-Rou şəhərində oldum. Azərbaycan qadınlarının Bakı Assosiasiyası üzvləri ilə birgə qadın qeyri-hökumət təşkilatlarının IV Dünya Konqresində iştirakımı heç zaman unutmayacağam. Bu səfərim də olduqca məhsuldar keçdi, maraqlı xatirələrlə yadda qaldı.

1995-ci ilin sentyabrın 9-dan 16-dək isə mən artıq Pekində keçirilən Konqresdə iştirak edirdim. Bizim hökumət nümayəndə heyətinin ən böyük uğuru bu idi ki, Dünya Qadınlarının IV Konqresində qəbul edilmiş bizim tərəfimizdən Platformaya "Girov qadınlar – müharibə qurbanları" haqqın-

da maddə daxil edildi.

Xüsusi vurğulamaq istəyirəm ki, bütün dünyanı təmsil edən qeyri-hökumət və hökumət qadın təşkilatlarının iştirakı ilə bağlı bütün tədbirlər yüksək səviyyədə təşkil olunmuşdu. Xay-Rouda Konqresin bağlanışında Hillari Klintonun parlaq çıxışı yadda qaldı.

Növbəti dəfə mən ÇXR-də 2008-ci ildə oldum. Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü kimi Pekində keçirilən Olimpiya Oyunlarını izləyirdim. Azərbaycanın dünyanın qabaqcıl ölkələri arasında beynəlxalq idman yarışlarında uğurlu çıxışları həmişə bizi sevindirmişdi.

Pekinə ilk və üçüncü səfərimiz arasında 13 illik bir fasilə vardı. Adama qəribə gəlirdi, axı qısa bir müddətdə 18 milyon əhalisi olan paytaxtda nə etmək olardı ki, o tanınmaz olsun... ÇXR-in paytaxtı köklü olaraq dəyişmişdi: nəhəng göydələnlər, avtomobil qovşaqları, evlərin gözəl fasadları, kilometrlər boyu uzanan yol xətlərinin ətrafında Pekin Olimpiadasının emblemləri ilə təbii çiçəklər və kollar, yaşıl əklillər. Mən hələ qədim Çin arxitekturasının özünün və məzmununun saxlanması ilə nadir məbədləri demirəm... Ginnesin Rekordlar Kitabına düşmüş Buddanın qırmızı ağacdan olan 26 metrlik heykəli məni heyran etdi.

Mən Sidney, Afina, Pekin, Londonda keçirilən Olimpiadalarda olmuşam. Bunu həmişə demişəm və deyəcəyəm ki, heç bir ölkə Pekində keçirilən Olimpiada – 2008-in təşkili səviyyəsini adlaya bilməyəcəkdir. Birincisi, idman qurğularının arxitekturası, bu obyektlərə haşiyələr və onlara yanaşma tərzinə görə.

Bütün idman növləri üzrə TV-də və kütləvi informasiya vasitələrində reklam, üstəlik, meydanların, prospektlərin, yol xətlərinin Olimpiada – 2008 rəmzləri olan tərtibatı yüksək səviyyədə idi. Bunu görmək üçün iki göz kifayət eləmir: girişdə idman arenasındakı qüllədə meqafonla gənc bir oğlan, aşağıda, yan tərəflərdə isə çinli qızlar – könüllülər dayanıb və əllərində yumşaq oyuncaqlar tutublar. Gənc oğlan elan edir: "Möhtərəm olimpiada qonaqları, mümkünsə, istifadə olunmuş biletləri bizə hədiyyə edin, onları xələflərimiz üçün saxlamaq istəyirik, əvəzindəsə sizə yumşaq oyuncaq hədiyyə edəcəyik".

Və onda, üçüncü dəfə yenidən Pekindən 150 kilometr uzaqlıqdakı Çin səddi ilə qarşılaşdım. Bu dahiyanə tikilinin miqyaslılığına yenidən heyran oldum. Və əsas odur ki, bu 150 şəhərin mərkəzindən Çin səddinədək olan 150 kilometrlik məsafənin hər 50 metrindən bir işıqlandırıcı dirəklərdə




*Məşhur məbədlərin birində*

ipək parçalarda Olimpiada rəmzləri görünürdü, bütün şəhər, bu nəhəng meqapolis Olimpiada – 2008-in müxtəlif rəmzləri ilə bəzədilmişdi. Lakin 2012-ci ilin avqustunda Londonda bunu görmədik.

Amma gördüklərim arasında ən dəyərli şey xeyirxah, savadlı, mədəni çinlilər idi. Şəxsən mən ağzında siqaret olan gənc adamlara şəhərdə rast gəlmədim. Pekin metrosu məni heyran qoydu: orda platforma orqşüşə ilə hasarlanıb. Bütün nəqliyyat vasitələrində ödəniş vahid elektron kartla və çox aşağı qiymətlə həyata keçirilir. 1995-ci ildə mövcud olmayan yeni, müasir muzeylər isə öz ekspozisiyası ilə adamı heyrətləndirir.

On bir ay sonra, 2009-cu ilin iyununda şəxsi təşəbbüsümlə bir daha Çində oldum. Pekin yenə də özünün füsunkar gözəlliyi ilə seçilirdi. Qısa müddətdə bu nəhəng meqapolisin gözoxşayan dəyişikliklərinə yenidən heyrətləndim.

May-oktyabr aylarında Şanxayda keçirilən EKSPO-2010 sərgisində Azərbaycan pavilyonunda 2 vitrində “Azərbaycan və Çin miniatür kitab-da” sərgisini nümayiş etdirdim. Bu xəbərə təəccüblənmişdim: dünya miq-yaslı sərginin açılışına 9 gün qalmış 33 milyon bilet satılmışdı. Elə həmin

vaxt kəsiyində pavilyonumuzun seyriciləri 6 kitabda "Azərbaycan və Çin miniatür kitabda" sərgisi haqqında minlərlə rəy yazmışdılar.

Boş yerdə, həm də qısa müddətdə dünya sərgisi iştirakçı dövlətləri üçün pavilyonların inşasını təsəvvür etmək sadəcə çətindir. Və əlbəttə, hamıdan çox Çin Xalq Respublikasının pavilyonu diqqət çəkirdi. Məni heyrətləndirən digər bir şey otellərdə – istər beşulduz olsun, istər üçulduz – xidmətin yüksək keyfiyyəti idi.

Yüngül sənaye mallarının, ərzaq məhsullarının keyfiyyəti yüksək səviyyədə idi. İnanılmazdır, böyük nəsil öz sağlamlığının qayğısına necə qalır: sübh tezdən, gündüz, axşam parklarda, bağçalarda, istirahət zonalarında onlar müəyyən hərəkətləri yerinə yetirirlər. Axşamlarsa rəqs edir, musiqiyə qulaq asırlar. Uşaqlar, böyüməkdə olan nəsil – məktəbəqədər yaşda olanlar, şagirdlər və tələbələrin necə diqqət və qayğıyla əhatələndiyi insanı heyran edir.

ÇXR-də kitabların necə yüksək poliqrafik səviyyədə nəşr olunduğunu qeyd etməyə bilmərəm - dünya klassik ədəbiyyatından tutmuş məşhur filosoflarının əsərləri, dərsliklər, xüsusi ədəbiyyat, füsunkar illüstrasiyalarla uşaq ədəbiyyatına qədər.

Əlbəttə, şübhə etmirəm ki, inşallah gələcəkdə hələ bir daha Çin Xalq Respublikasında olacağam. Və hər dəfə dünyanın bir çox ölkələrində olarkən mən daim Tamara xanımın bəsirətli sözlərinə əmin oluram: "Bu cür əməksevər, intizamlı xalq dünyanın heç bir yerində yoxdur. 50 ildən sonra Çin bütün dünyanı fəth edəcək". Biz bunun elə bu gün də şahidi oluruq.

# КИТАЙ

## ГЛАЗАМИ АЗЕРБАЙДЖАНЦЕВ

# СОДЕРЖАНИЕ

**Предисловие**
Доктор Фархад Мамедов. Директор Центра стратегических исследований при Президенте Азербайджанской Республики ____ 119

**В поисках старых друзей**
Яшар Алиев. Чарующая красота Китая ____ 123

**Китай глазами экономиста**
Зияд Самедзаде. «Желтый дракон просыпается» ____ 133

**Большая честь быть первым послом Азербайджана в Китае**
Тамерлан Гараев. Из депутатов в послы ____ 153

**Интеллигент, познакомивший мир с азербайджанским образованием**
Гамлет Исаханлы. «Великие реки текут с запада на восток» ____ 169

**Молодой экономист, стремящийся помочь процветанию азербайджанской экономики**
Сеймур Оруджев. Азербайджано-китайские экономические отношения ____ 185

**Первый азербайджанец, защитивший в Китае докторскую диссертацию**
Рашад Сейфаддин (Керимов).Там, где сбываются мечты ____ 191

**Человек, служащий народу своим пером**
Эльчин Исмайлов. Китай в глазах Азербайджана ____ 205

**Человек, познакомивший мир с Азербайджаном**
Азер Гариб. Короткий рассказ о Китае ____ 213

**Человек, влюбленный в свою профессию**
Азад Нагиев. «Завоевание» Китайской Стены или чистосердечное признание ____ 223

**Друг книг**
Зарифа Салахова. Мои впечатления о Китае ____ 233



**Предисловие**

Восстановление государственной независимости Азербайджана в 1991 году привело к фундаментальным изменениям в жизни республики. В качестве полноправного члена международного сообщества Азербайджан реализует внутреннюю и внешнюю политику в соответствии с национальными интересами государства.

С этой точки зрения налаживание отношений с соседями и мировыми центрами силы имело для нашей страны приоритетное значение. Китай как одна из крупнейших стран мира является для Азербайджана очень важным государством-партнером. С 1991 года между Азербайджаном и Китаем в различных областях стали устанавливаться отношения, которые способствовали укреплению сотрудничества в политической, экономической, торговой и культурной сферах. Официальные визиты общенационального лидера Гейдара Алиева, а затем президента Ильхама Алиева в Китайскую Народную Республику поднимали межгосударственные отношения на качественно новый уровень.

На протяжении последних лет двусторонние визиты разного характера между государственными и правительственными делегация-
